Parlamentin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi ilə bağlı məlumat verib. Bildirib ki, adıçəkilən qanunun təhsil sahəsində dövlətin vəzifələrinə həsr olunmuş 29-cu maddəsinə əlavələr təklif olunur. Əlavələrə əsasən, ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, habelə orta ixtisas təhsil müəssisələrində təhsilalanlar tərəfindən təhsil müəssisəsinin, ixtisasın, təhsilalma formasının dəyişdirilməsi, onların təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunması, habelə təhsilalanların təhsilini müvəqqəti dayandırması (onlara akademik məzuniyyətin verilməsi) qaydalarının müəyyən edilməsi təhsil sahəsində dövlətin vəzifələri kimi təsbit edilir.

Digər düzəlişlərə əsasən, təhsilalanların hüquqları ilə bağlı 32.3.7.-ci maddədə "və ixtisasını dəyişmək" sözləri "ixtisasını və təhsilalma formasını dəyişmək, təhsil müəssisəsindən xaric və ya təhsil müəssisəsinə bərpa olunmaq" sözləri ilə əvəz edilir. 32.3.12.-ci maddədə isə "dayandırmaq" sözündən sonra akademik məzuniyyət götürmək sözləri əlavə edilir.

Qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini (ikinci oxunuş) təqdim edib. Layihəyə əsasən, məcəlləyə inzibati məsuliyyətə cəlb etmə və inzibati cərimələrin ödənilməsi ilə bağlı məsələlərin təkmilləşdirilməsi məqsədilə bir sıra yeni müddəaların əlavə olunması və mövcud müddəalarda dəyişiklik edilməsi təklif olunur.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Deputat Nizami Səfərovun təqdimatından sonra "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihəsi də ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Bəhruz Məhərrəmovun təqdimatından sonra Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində, Azərbaycan Respublikasının 1994-cü il 8 fevral tarixli 782 nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Konsul Nizamnaməsi"ndə və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri ikinci oxunuşda qəbul edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihəsini təqdim edərək, məsələnin İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun yanında işçi qrupunun yaradılması ilə bağlı olduğunu bildirib.

Zahid Oruc İnsan hüquqları komitəsinin sənəd barədə rəyini səsləndirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

İclasda Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), "Dövlət müəssisəsinin səhmdar cəmiyyətinə çevrilməsinin qaydaları haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında", "Maliyyə-sənaye qrupları haqqında" və "Torpaq icarəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə" və "Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikası medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında (üçüncü oxunuş), "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (üçüncü oxunuş) qanun layihələri qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# 8 Noyabr - Zəfər Günü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 2020-ci ilin sentyabr - noyabr aylarında 44 günlük Vətən müharibəsində əldə etdiyi möhtəşəm Zəfər Azərbaycan tarixinin müstəsna əhəmiyyətli hadisələrindən biridir. Döyüş meydanında Ermənistan Silahlı Qüvvələrinin darmadağın edilməsi, 30 ilə yaxın işğal altında saxlanılan Azərbaycan torpaqlarının əsarətdən qurtarılması, dövlətimizin ərazi bütövlüyünün bərpa olunması ilə nəticələnmiş tarixi qələbə xalqımızın bəzən açıq, bəzən də gizli şəkildə ona qəbul etdirməyə çalışdıqları ədalətsizliklə barışmadığını, həyati milli maraqlarını qorumaq üçün hər bir fədakarlığa hazır olduğunu nümayiş etdirdi.

Son iki yüz ilə yaxın dövrdə davakar erməni millətçiliyinin həyata keçirdiyi qəsbkarlıq və etnik təmizləmələr silsiləsinə birdəfəlik son qoyulması Azərbaycan dövlətçiliyinin tarixində yeni inkişaf dövrünün başlanmasına təkan vermişdir. Yenilməz sərkərdəsinin və uzaqgörən liderinin rəhbərliyi ilə möhtəşəm qələbəni əldə edən xalqımız bundan belə heç kəsin onunla güc və təzyiq dili ilə danışa bilməyəcəyini qətiyyətlə bəyan etmişdir.

Təəssüf ki, Zəfərə gedən yol xalqımıza çox böyük qurbanlar və itkilər hesabına başa gəlmişdir. On minlərlə azərbaycanlı qətlə yetirilmiş, yaralanmış və şikəst edilmiş, kütləvi etnik təmizləmə nəticəsində 1 milyondan artıq soydaşımız 30 ildən artıq qaçqınlıq və köçkünlük həyatı yaşamağa məhkum edilmişdir. Hələ Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş 4 minə yaxın azərbaycanlının taleyi bu günədək məlum deyildir.

Həm Birinci, həm də İkinci Qarabağ müharibələrinin gedişində düşmən beynəlxalq konvensiyaların tələblərini kobudcasına pozaraq hərbi qulluqçulara və dinc əhaliyə qarşı çoxsaylı müharibə cinayətləri, o cümlədən soyqırımı və dövlət terrorizmi aktları törətmişdir. İşğal olunmuş ərazidə erməni vandalları bütün şəhər və kəndlərimizi qarət etmiş, dağıtmış və yandırmış, milli-mədəni və tarixi irsimizi xüsusi qəddarlıqla məhv etmişlər. İşğal bölgəsində mövcud olmuş 67 məsciddən 65-nin dağıdılması, ibadət yerlərinin təhqir edilməsi xalqımızın məruz qaldığı etnik nifrət və düşmənçilik aktlarının miqyasını göstərən çoxsaylı faktlardan yalnız bəziləridir. İşğaldan azad edilmiş ərazidə Ermənistanın mina terroru hələ də davam edir. 2020-ci ilin noyabrında hərbi əməliyyatların başa çatmasından sonrakı dövrdə 260 nəfərdən çox azərbaycanlı minaların partlaması nəticəsində həlak olmuş və ya yaralanmışdır.

Lakin düşmənin vəhşiliyi və qəddarlığı xalqımızın mübarizə əzmini qıra bilməzdi və qıra da bilmədi. Azərbaycan şəhid və qazilərinin canı və qanı bahasına BMT Təhlükəsizlik Şurasının, Qoşulmama Hərəkatının, ATƏT-in, Avropa Şurası Parlament Assambleyasının, Avropa Parlamentinin, İslam Əməkdaşlığı Təşkilatının və digər beynəlxalq təşkilatların qərarlarının icrasını təmin edərək, tarixi ədaləti və beynəlxalq hüquq normalarının və prinsiplərinin qüvvəsini bərpa etdi.

Xalqımızı məğlubiyyət sindromundan qurtararaq qalib xalqa çevirmiş bu şanlı Qələbənin təməlində dayanan başlıca amil son 29 il ərzində Azərbaycanda bərqərar olmuş səriştəli, etibarlı və məsuliyyətli siyasi rəhbərlik fenomenidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin həyata keçirməyə başladığı quruculuq və inkişaf strategiyasını zamanın çağırışlarına uyğun şəkildə davam etdirərək Azərbaycanı öz tarixinin ən qüdrətli dövlətinə çevirmişdir.

Azərbaycan hərtərəfli inkişaf etmiş, onun böyük siyasi, iqtisadi və hərbi potensialı yaradılmış, doğma torpaqlarını işğaldan azad etməyə hazır olan gənc nəsil yetişdirilmişdir. Düşünülmüş hərbi konsepsiyanın həyata keçirilməsi müasir dövrün ən yüksək standartlarına cavab verən Silahlı Qüvvələrin formalaşdırılmasına imkan vermişdir. Yenilməz döyüş əzmi, misilsiz rəşadəti və yüksək peşəkarlığı sayəsində Şuşanı, digər şəhər və kəndlərimizi düşməndən təmizləyən əsgər və zabitlərimizin qəhrəmanlığı xalqımızın qürur mənbəyidir. Silahlı Qüvvələrimiz bu gün də Azərbaycanın müstəqilliyinin və ərazi bütövlüyünün keşiyində ayıq-sayıq dayanmışlar.

Xalqın maraqları və tələbatı üzərində qurulan daxili və xarici siyasət digər məsələlərlə yanaşı, cəmiyyətin və dövlətin bütün qüvvələrinin ümumi məqsəd naminə birləşməsinə gətirib çıxarmışdır. Azərbaycançılıq ideallarından güc alan xalqımızın milli birliyi döyüş meydanında düşmənə endirilən "dəmir yumruğ"a çevrilərək qələbənin mühüm amillərindən biri olmuşdur.

Beləliklə, Azərbaycan xalqına qarşı düşmənçilik siyasəti yeridən erməni şovinizmi və ekspansionizmi ağır məğlubiyyətə uğradılmışdır. 2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya liderləri tərəfindən imzalanan Üçtərəfli Bəyanat münaqişəyə son qoyulmasını təsbit edərək Ermənistanla Azərbaycan arasında sivil dövlətlərarası münasibətlər qurulmasının əsas parametrlərini müəyyənləşdirmişdir.

Bu gün qalib Azərbaycan xalqı Vətən müharibəsində göstərdiyi hünərləri Qarabağda və Şərqi Zəngəzurda geniş vüsət alan bərpa-quruculuq işlərində də göstərir. İşğal dövründə viran qoyulmuş torpaqlarımıza yeni həyat gəlir. Məcburi köçkünlərin doğma yurdlarına qaytarılmasına yönələn nəhəng layihələr həyata keçirilir. Şəhər və kəndlərin təməli qoyulur, yeni yaşayış məntəqələri ilk sakinlərini qəbul edir. İnfrastruktur yaradılır, sənaye müəssisələri, digər obyektlər istifadəyə verilir, kənd təsərrüfatı dirçəldilir. Yollar, körpülər, tunellər çəkilir. Artıq həmin bölgədə iki beynəlxalq hava limanı istifadəyə verilmişdir, Zəngəzur dəhlizinin açılmasına hazırlıq görülür. Bütün bunlar Şərqlə Qərb arasında əlaqələndirici rol oynayan Azərbaycanın tranzit ölkə kimi potensialının daha da güclənməsini təmin edəcəkdir. Şübhə yoxdur ki, regionda yerləşən ölkələr arasında iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsi, yeni nəqliyyat kommunikasiyalarının inşası, bölgənin logistika mərkəzinə çevrilməsi Azərbaycanla bərabər, qonşu dövlətlərin də iqtisadi inkişafına kömək göstərəcəkdir.

Şərh edilənlərlə əlaqədar olaraq, Azərbaycan Respublikasının Milli Məclisi Ermənistan tərəfini yaranmış tarixi imkanı və şəraiti düzgün dəyərləndirməyə və sülh prosesini təhlükəyə məruz qoyan aktlardan çəkinməyə çağırır. Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, Azərbaycanın təklif etdiyi 5 təməl prinsip əsasında aparılan sülh danışıqları prosesində əldə edilən razılaşmaların və götürülən öhdəliklərin yerinə yetirilməsi tərəflər arasında etimadın güclənməsinə və qısa müddət ərzində sülh sazişinin imzalanmasına kömək göstərərdi. Ermənistanla Azərbaycan arasında dövlətlərarası münasibətlər yalnız bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və bunlara hörmət edilməsi əsasında qurula bilər.

Azərbaycan Respublikası Vətən müharibəsində qazanılmış tarixi Zəfərin nailiyyətlərini qorumaq, xalqımıza və dövlətimizə qarşı yeni düşmənçilik hərəkətlərinə yol verməmək üçün bundan sonra da bütün tədbirləri görəcəkdir.

# Qüdrətli Komandanın möhtəşəm Zəfəri



## Böyük möcüzə kiçik möcüzələrdən yaranır

*İnsan nəyisə öyrənmək istəyəndə sual verir.*

*İnsan hərdən bildiyini dəqiqləşdirmək üçün də sual verir.*

*İnsan bəzən ritorik sual da verir.*

Başqa sözlə, cavabı içərisində gizlənən suallar da olur.

**İndi isə belə bir sualı nəzərdən keçirək:**

**Həyatda möcüzə varmı?**

Gəlin biliyimiz və dünyagörüşümüz həddində bu suala cavab tapmağa çalışaq.

❖ ❖ ❖

Biz hamımız uşaqlıqda möcüzə görmək arzusunda olmuşuq...

İstəmişik ki, bütün arzularımız bir anda, möcüzəvi şəkildə yerinə yetsin.

Hətta bunun icrasının yolunu da tapmışıq:

Sehirli çubuq!

Nağıllarda rast gəldiyimiz sehirli çubuq!

Belə çubuğa sahib olmağı o qədər arzulamışıq ki...

*Bir qədər böyüdükdən sonra anlamışıq ki, sehirli çubuq yalnız əfsanə kimi mövcuddur.*

*Həyatda isə arzuna, istəyinə çatmaq üçün zəhmətə qatlaşmalı, yorulmadan çalışmalısan, daim məqsədinə doğru irəliləməlisən.*

**Ancaq bəzən insan həyatda möcüzəyə və ya möcüzəyəbənzər hadisələrə də rast gəlir!**

**Əfsanəvi yox, real möcüzəyə!**

**Sehirli çubuqla yaranan möcüzəyə yox, real həyatda yaranan möcüzəyə!**

**Gözü ilə gördüyü, şahidi olduğu, adi insanların iştirakı, əli ilə yaranan möcüzəyə.**

Onlardan bir qismi barədə danışmaq istəyirik.

❖ ❖ ❖

Azərbaycan ərazisinin zorla alınaraq Ermənistana verilməsinə xidmət edən "Qarabağ problemi" uydurulandan, XX əsrin sonlarında isə SSRİ-nin dağılma prosesi başlayandan ölkəmiz daim təklənib, haqsızlıqlara məruz qalıb.

Əvvəlcə dünyaya yeganə informasiya çıxışı kanalları olan sovet informasiya agentlikləri, mərkəzi televiziya və mərkəzi qəzetlərdə problem təhrif olunmuş şəkildə işıqlandırılıb və dünyaya təqdim olunub.

Azərbaycan "məzlum", "zavallı" erməniləri sıxışdıran, öldürən tərəf kimi göstərilməklə məsələnin mahiyyəti saxtalaşdırılıb.

Sonra sovet ordusunun bölmələri və silahları vasitəsilə Azərbaycan ərazisi işğala məruz qalıb.

*BMT Təhlükəsizlik Şurasının məşhur 4 qətnaməsi - Qarabağın Azərbaycana məxsus olmasını və erməni silahlı birləşmələrinin dərhal, qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxarılmasını tələb edən sənəd isə uzun illər boyu yerinə yetirilməyib.*

*Əksinə, ərazisi işğala məruz qalan Azərbaycana qarşı ABŞ Konqresi bədnam 907-ci düzəlişi qəbul edib.*

Həmin dövrdən başlayaraq erməni diasporunun güclü olduğu dünyanın aparıcı dövlətlərində ermənilərin sözü keçib, beynəlxalq hüquq ayaqlar altında qalıb, ATƏT-in Minsk qrupu isə münaqişəni həll etmək əvəzinə saqqız kimi uzadıb, özünün mənasız və səmərəsiz fəaliyyəti ilə məşhurlaşıb.

Xalqın arzu və tələbi ilə Ulu Öndər Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıtması nəticəsində Qarabağın işğaldan azad olunması məsələsi yeni mərhələyə qədəm qoymuşdur.

Prezident İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə isə başlanan işlər daha yüksək səviyyədə davam etdirilmiş, yaranan vəziyyət və mövcud şərait dəqiq qiymətləndirilərək torpaqlar hərbi yolla işğaldan azad olunmuşdur.

**İkili standartların hökm sürdüyü, BMT-nin, ATƏT-in Minsk qrupunun acizlik göstərdiyi, erməni diasporunun at oynatdığı və Ermənistanın sülh danışıqlarına gəlmədiyi bir zamanda Müzəffər Ali Baş Komandan İlham Əliyevin Vətən müharibəsinə başlayaraq 44 gün ərzində Ermənistan ordusunu məhv etməsi, düşməni qarşısında diz çökdürməsi və ona kapitulyasiya aktını imzalatdırması əsl möcüzə oldu!**

Görünən odur ki, 44 gün ərzində Azərbaycan təkcə işğalçı Ermənistana deyil, üstəlik, onun müdafiəçilərinə və havadarlarına, erməni diasporuna, beynəlxalq hüququ pozanlara da qalib gəldi, üstəlik, BMT-nin və digər beynəlxalq qurum və təşkilatların görəcəyi işi təkbaşına özü gördü!

**İlham Əliyevin xalqın ən müqəddəs arzusunu həyata keçirərək yaratdığı bu böyük möcüzə, əslində, onun bu istiqamətdəki kiçik möcüzələrinin məntiqi yekunu idi.**

Bəs həmin kiçik möcüzələr hansılardır?!

❖ ❖ ❖

İkinci Qarabağ müharibəsində Azərbaycanın qazandığı qələbə dünya tərəfindən birmənalı şəkildə və eyni cür qiymətləndirildi:

*Azərbaycan Vətən müharibəsində sürətli və möhtəşəm Zəfər qazanıb!*

Yeni strategiya və ən müasir taktika tətbiq edib!

PUA-ların nümunəsində yeni silahlar işlədib!

**Bütün bunlar isə ölkəmizə XXI əsrin ən yeni müharibəsini aparmağa və dünya müharibələri tarixində təzə səhifə açmağa imkan verib!**

**Möcüzə deyilmi?!**

❖ ❖ ❖

*Müzəffər Ali Baş Komandan İlham Əliyev baş sərkərdəsi olduğu bu müharibədə iki rekorda da imza atmış oldu:*

*Əvvəla, son beşəsrlik dövrdə Azərbaycan ilk dəfə olaraq işğal olunmuş torpaqlarını geri qaytardı!*

*İkincisi, Vətən müharibəsindəki Zəfər həm də iki əsr ərzində mövcud olan, habelə tarixinin ən keşməkeşli dövrlərində Azərbaycandan kimlərinsə əli ilə torpaq qoparılması ilə nəticələnən Qarabağ münaqişəsinə birdəfəlik son qoydu!*

**Daha heç kəs "Qarabağ problemi" adı ilə bizə təsir və təzyiq göstərə bilməyəcək!**

**Daha kimsə kimlərinsə havadarlığı ilə bizdən müxtəlif üsul və bəhanələrlə torpaq qopara bilməyəcək!**

**Möcüzə deyilmi?!**

❖ ❖ ❖

*Hər bir müharibənin çoxsaylı şahidi və qəhrəmanı olur.*

*Onlarsız ötüşmək mümkün deyil!*

Hər bir müharibənin həm də yeganə baş qəhrəmanı olur!

Müharibəyə hazırlığı təmin və təşkil edən, bütün qərarlara "hə" deyərək icrasına yaşıl işıq yandıran, son söz sahibi olaraq hər şey üçün cavabdehlik daşıyan səlahiyyət sahibi!

Hər bir müharibənin taleyini həll edənə, həmin insana isə Ali Baş Komandan deyilir!

**44 günlük Vətən müharibəsinin əsl baş qəhrəmanı cənab İlham Əliyev oldu!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyev diplomatiya və informasiya müharibəsinin də yeganə baş qəhrəmanıdır!**

Cənab İlham Əliyev ixtisasca diplomatdır.

Dünyanın ən tanınmış ali təhsil ocaqlarından birini - Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunu bitirib!

Təkcə bitirməyib, həm də orada dərs deyib!

Və bu gün də onunla qürur duyan təhsil ocağı şəklini şərəf lövhəsində saxlayır.

*Azərbaycan Prezidenti nə hərbi təhsil alıb, nə də peşəkar zabit kimi orduda xidmət edib!*

*II Qarabağ müharibəsi ilk döyüşü, Ali Baş Komandan kimi rəhbərlik etdiyi ilk hərbi əməliyyat oldu!*

*Bütün bunlara baxmayaraq, cənab İlham Əliyev elə bir qeyri-adi müharibə apardı, elə bir zəfər qazandı ki, bütün dünya heyran qaldı.*

Həm də təkcə heyran qalmadı!

Həmin müharibədə Müzəffər Ali Baş Komandan İlham Əliyevin tətbiq etdiyi straregiya və taktikanı öyrənərək ordularında tətbiq etməyə başladılar!

**İlk dəfə müharibə aparan cənab İlham Əliyev yeni müharibə örnəyi yaratdı!**

**Möcüzə deyilmi?!**

❖ ❖ ❖

Erməni işğal etdiyi ərazilərdə yerləşmiş, rahat oturmuşdu.

Artıq Qarabağı da, Şərqi Zəngəzuru da özününkü sayırdı!

Xislətinə uyğun olaraq hər yeri söküb dağıdır, dostlarına satıb pula çevirir, viran qoyurdu...

Tutduğu yerləri geri qaytarmaq niyyətində də deyildi!

Amma içində bir qorxu da vardı!

Bilirdi ki, torpağın əsl sahibi nə vaxtsa geri dönəcək, itirdiklərini geri qaytaracaq, qisasını alacaqdır!

Odur ki, 30 il ərzində havadarlarının və dostlarının köməyi ilə hər tərəfdə müdafiə istehkamları qurmuş, dərin səngərlər qazmış, dəmir qapılarının qalınlığı 70 santimetr olan beton bunkerlər tikmişdi.

*Bakıda yaradılan Hərbi Qənimətlər Parkında Qarabağdakı 6 qatlı müdafiə səddlərinin bütün elementlərini açıq-aydın görmək mümkündür.*

*Təbii relyefin də "kömək göstərdiyi" hərbi mühəndis qurğularından bir pişik belə keçə bilməzdi!*

AMMA...

Sən öz saydığını say...

**Müzəffər Ali Baş Komandan İlham Əliyev elə bir müharibə apardı, elə hərbi manevrlər etdi ki, düşmən 30 ildə qurduğu mövqelərdən bir güllə belə ata bilmədi...**

**Ağdam, Laçın və Kəlbəcər kimi rayonlar dinməz-söyləməz geri qaytarıldı!**

Halbuki həmin mövqelərdən Azərbaycana güclü zərbələr vurmaq, böyük miqdarda canlı qüvvə itkisinə nail olmaq nəzərdə tutulmuşdu!

**Beləliklə, erməninin 30 ildə qurduğu müdafiə mövqeləri gərəksiz şeyə çevrildi!**

**Möcüzə deyilmi?!**

❖ ❖ ❖

Hücuma keçən tərəf yalnız qələbə barədə düşünür!

Qələbənin şərtləri isə çoxdur!

Burada şəxsi heyətin hazırlığından, ruh yüksəkliyindən, silahlanmasından, tətbiq olunan taktika və strategiyadan, dəqiq kəşfiyyat məlumatlarından, öndə döyüşənlərin bütün növ təchizatlarla təminatından və digər amillərdən də çox şey asılıdır.

Təbii ki, hücum tərəfinin işi daha çətin olur.

Minalanmış sahələrə rast gəlmək, pusquya və tələyə düşmək, müxtəlif sürprizlərlə qarşılaşmaq hər an mümkündür.

Odur ki, birnəfəsə keçilən hücumla qələbəyə çatmaq olduqca müşkül məsələdir!

*Müzəffər Ali Baş Komandan İlham Əliyevin qurduğu Azərbaycan Ordusu isə müharibə başlayandan hərbi əməliyyatların dayandırıldığı anadək daim hücumda oldu!*

Daim irəli getdi!

Hər gün qarşıya qoyulan döyüş tapşırıqlarını uğurla yerinə yetirdi!

**Bircə gün də olsun hücumunu dayandırmadı!**

**44 gün ərzində nə müdafiəyə keçdi, nə də geriyə çəkildi!**

**Möcüzə deyilmi?!**

❖ ❖ ❖

Hər bir müharibənin uğuru qarşı tərəfin hazırlığı, mövqeləri və yerləşməsi, silahlanma səviyyəsi ilə bağlı dürüst məlumatlara malik olmasından da asılıdır.

Azərbaycanla Ermənistan 27 il ərzində təmas xəttində qarşı-qarşıya dayanmış, bir-birlərinə güllə atmışlar.

Ermənilər xislətlərinə uyğun olaraq dəfələrlə təsərrüfat işləri ilə məşğul olan mülki əhalini, hətta körpə uşaqları belə hədəfə çevirmişlər.

Düşmənin sülh danışıqlarına gəlməməsi, özünü qalib tərəf kimi təkəbbürlü və iddialı aparması gec-tez Qarabağda müharibənin yenidən alovlanacağına dəlalət edirdi!

Aprel müharibəsi isə, necə deyərlər, bunun anonsuna çevrildi.

Azərbaycan isə sülh danışıqlarının baş tutmayacağı təqdirdə münaqişəni hərbi yolla həll edəcəyini gizlətmirdi.

Həm də hər il hərbi sahəyə Ermənistanın dövlət büdcəsindən də çox vəsait ayırır, silahlanırdı.

*İndiki dövrdə düşmən tərəf barədə yetərincə məlumat əldə etmək üçün imkan və vasitələr çoxdur.*

*Kosmosdan peyk vasitəsilə izləmələr, PUA-larla kəşfiyyat aparmaq, kimin hansı ölkədən hansı silahları almasından, habelə keçirilən hərbi təlimlərdən yetərincə məlumat toplamaq çoxları üçün əlçatandır.*

*Xüsusən Ermənistanın dostlarının imkanlarını və ərazilərimizə yaxınlıqlarını nəzərə alanda bunun bir o qədər də çətin olmadığını görürük.*

AMMA...

**Müharibə başlayanda Azərbaycan elə silahlardan istifadə etdi, elə taktika işlətdi, elə nöqtələrdən hücuma keçdi ki, təkcə Ermənistanın özü yox, müdafiəçiləri də çaş-baş qaldılar!**

**Bu qədər "dostu", havadarı olan Ermənistanın Azərbaycanın hərbi potensialı, silahları, sürətli müharibə aparmaq imkanları barədə dəqiq və geniş informasiya əldə edə bilməməsi möcüzə deyilmi?!**

❖ ❖ ❖

Hər bir müharibənin öz hesablamaları olur.

Tərəflər döyüş meydanına nə qədər canlı qüvvə, texnika, silah-sursat çıxaracaqlarını, müharibənin təqribən nə qədər çəkəcəyini, hər gününün neçəyə başa gələcəyini və bütövlükdə nə qədər vəsait xərclənəcəyini təxmini olsa da, hesablaya bilirlər!

İtkilər də irəlicədən hesablanır.

*Adətən hücuma keçən tərəf 3-5 dəfə çox canlı qüvvə itkisi verir!*

*Çünki müdafiə tərəfi irəlicədən hazırlanmış səngərlərdə, istehkamlarda, atəş nöqtələrində daldalanaraq üzərinə hücuma keçənləri aydın görə bilir.*

*II Qarabağ müharibəsində Azərbaycan hücuma keçən tərəf idi.*

*Ermənistan isə 30 illik hazırlıqla, yerli relyefin imkanlarından istifadə etməklə möhkəm müdafiə sistemi qurmuşdu!*

Nəticə heyrət doğuracaq qədər gözlənilməz oldu!

**Azərbaycan təqribən 3000 nəfər - Ermənistandan 3 dəfə az itki verdi!**

Ermənistan hələ də ərazimizdəki leşlərin hamısını yığıb qurtara bilməyib!

Hələ də gizlətdiyi meyitlərinin kimliyini müəyyən edərək yiyəsinə qaytara bilməyib!

**Hücum edən tərəfin müdafiə olunandan bu qədər az itki verməsi möcüzə deyilmi?!**

❖ ❖ ❖

Vətən müharibəsinin ən çətin məsələsi Şuşanın işğaldan azad edilməsi sayılırdı.

Şəhərin yerləşdiyi coğrafi mövqe, relyefi, ona doğru gedən mümkün yolların asanlıqla nəzarətdə saxlanması, üstəlik, düşmənin Şuşanı israrla vermək istəməməsi vəziyyəti xeyli çətinləşdirirdi.

Məqsəd həm də az itki ilə qala şəhəri geri qaytarmaq, hücum əməliyyatı zamanı mümkün qədər dağıntılardan qaçmaq idi.

*Qəhrəman Azərbaycan əsgəri bu vəzifənin öhdəsindən şərəf və bacarıqla gəldi.*

*Cənab İlham Əliyevin tərbiyələndirdiyi yeni gənclər nəslinin də iştirak etdiyi qüdrətli ordu, mükəmməl hazırlanmış və xüsusi təlim keçmiş "xüsusi təyinatlı"ların hünəri və incəliyinə qədər düşünülərək hazırlanmış məxsusi hücum planı möhtəşəm qələbəni təmin etdi!*

Azərbaycan əsgəri həftələrlə, aylarla gündüzlər gizlənərək gecələr yol getdi, keçilməz cığırlardan keçdi, yalçın qayalardan dırmaşdı, düşmənin gözləmədiyi yerdən, qəflətən hücuma keçdi.

"Şuşa əməliyyatı"nda dağıntı olmasın deyə zirehli texnikadan, raket və mərmi atəşlərindən, habelə əlverişsiz havaya görə PUA-lardan istifadə edilmədi!

**Qəhrəman Azərbaycan döyüşçüsü bu qala şəhəri əsgər süngüsü və lapatkası ilə vuruşaraq, əlbəyaxa çarpışaraq geri qaytardı!**

**Şuşanın bu sayaq alınması möcüzə deyilmi?!**

❖ ❖ ❖

SSRİ 1941-1945-ci il müharibəsində alman faşizminə böyük itkilər bahasına qalib gəlmişdi.

Bu müharibədə keçmiş ittifaqdakı bütün xalqlar iştirak etmiş, qurbanlar vermişdi.

Müharibədən sonrakı illərdə sovet xalqının bu qələbəsindən yüzlərlə bədii film çəkilmişdi.

Hamı bu filmlərə böyük maraqla baxır, sovet əsgərinin əfsanəvi qəhrəmanlığından zövq alırdı.

Ara-sıra müharibə dövrü çəkilmiş sənədli kadrlar da nümayiş etdirilirdi.

*II Qarabağ müharibəsinə qədər müharibədən canlı döyüşləri isti-isti izləmək heç kəsə müyəssər olmamışdı!*

*Amma Vətən müharibəsində bunu da gördük!*

Həm də necə...

Evimizdə, rahat kreslomuzda oturaraq mavi ekranda "bayraqdarlar", " haroplar" vasitəsilə, dəqiq mərmi zərbələri ilə düşmən hədəflərinin - zirehli texnikasının, bunker və səngərlərdə gizlənən canlı qüvvəsinin, köməyə tələsən əsgər dolu maşınlarının, ön cəbhəyə gedən təchizat avtomobillərinin və digərlərinin darmadağın edilməsinə ləzzətlə baxırdıq!

Təkcə biz yox, bütün dünya da müharibədən "canlı reportajları" heyrətlə izləyirdi!

**Evində oturaraq döyüş əməliyyatlarının fraqmentlərini canlı izləmək möcüzə deyilmi?!**

❖ ❖ ❖

İndiki müharibələrə "hibrid müharibə" də deyilir.

Çünki döyüşlər təkcə cəbhədə deyil, informasiya meydanında da aparılır.

Həm də bir cəbhənin uğuru digərinə də ciddi təsir göstərir.

Vətən müharibəsi də istisna deyildi.

Dünyanın tanınmış KİV, televiziya kanalları, informasiya agentlikləri ölkəmizə tökülmüşdü.

Çoxu da xoş niyyətdə deyildi, maliyyəsin aldığı erməni diasporunun tapşırıqlarını icra edirdi.

Sual verənlər müxtəlif olsa da, suallar təqribən eyni xarakter daşıyırdı:

* Azərbaycan niyə sülh danışıqlarını pozdu;

* Niyə hərbi əməliyyatları dayandırmır;

* Türkiyə niyə sizə kömək edir;

* Niyə siz tərəfdə muzdlular döyüşür;

* Qadağan olunmuş silahlardan istifadə edirsinizmi və s.

Əslində, məqsəd erməni tərəfinin günahlarını bizim üzərimizə yıxmaq və dünya ictimaiyyətinə yanlış məlumat vermək idi!

**Müzəffər Ali Baş Komandan İlham Əliyev informasiya cəbhəsində demək olar ki, təkbaşına döyüşdü və qalib gəldi!**

Əslində, həmin informasiya vasitələrinin tribunasından bəhrələnərək Qarabağ müharibəsi, hərbi əməliyyatlar və onların gedişi barədə əsl həqiqətləri bütün dünyaya yaydı, Ermənistanın ikiüzlü, riyakar mövqeyini ifşa etdi, erməni tərəfinin muzdlulardan, qadağan olunmuş silah və sursatlardan istifadə etdiyini, cəbhə xəttindən xeyli aralıda yerləşən yaşayış məntəqələrinə ballistik raket zərbələri endirdiyini, mülki əhaliyə tələfat yaşatdığını konkret faktlarla ifşa etdi!

Azərbaycan dövlətinin mövqeyini, atdığı addımları da geniş izah etdi.

**Düşməni bütün cəbhələrdə məğlub və ifşa etmək, təkbaşına informasiya müharibəsində dünya mediasına qalib gəlmək möcüzə deyilmi?!**

❖ ❖ ❖

II Qarabağ müharibəsi başlayanda hamımız çox nigaran, çox narahat idik!

Düşmənə kimlərin nə sayaq kömək etdiyindən də xəbərdar idik, onun yaratdığı müdafiə qurğularından və keçilməz səddlərindən də, hətta "yeni müharibə, yeni ərazi işğalı olacaq" xəbərdarlığını da eşitmişdik!

*Ancaq dövlətimizə, ordumuza, ən əsası, Ali Baş Komandanımıza da inanırdıq, arxayın idik!*

*Zaman hər şeyi öz yerinə qoyur!*

Zaman hətta möcüzələri də adiləşdirə bilir!

Ancaq zamanın fövqündə duran möcüzələr də var.

Belə möcüzələr çoxsaylı kiçik möcüzələrdən yaranır.

**44 günlük Vətən müharibəsi əsrlərboyu öz dəyərini itirməyən möcüzələrdəndir.**

**Azərbaycan xalqını qalib xalqa, bəxtəvər xalqa çevirən möcüzə!**

**Dünyanın güclü dövlətlərini belə Azərbaycandan öyrənməyə sövq edən möcüzə!**

**Azərbaycan əsgərini, qəhrəmanlığı ilə dastanlar yaradan Azərbaycan şəhidini daim ucalıqda saxlayan möcüzə!**

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrəti, qətiyyəti, iradəsi və qəhrəmanlığı ilə yaranan möcüzə!**

**Bəxtiyar SADIQOV**

# İLHAM ƏLİYEV
## Qarabağı və Şərqi Zəngəzuru yenidən yaradır
# QURUCULUQ ZƏFƏRİ

Azərbaycan işğaldan azad etdiyi Qarabağı və Şərqi Zəngəzuru cəmi iki il ərzində möcüzələr diyarına çevirib. Cəmi iki il əvvələ qədər bir həyat nişanəsi belə tapmaq mümkün olmayan bu ərazilər indi meqalayihələrin gerçəkləşdirildiyi, nəhəng layihələrin reallaşdırıldığı unikal məkana dönüb.

30 illik işğal dövründə mənfur düşmənin xaraba qoyduğu torpaqlarımıza yeni nəfəs verilib, vəhşicəsinə viran etdiyi təbiəti yenidən canlanmağa başlayıb.

Azərbaycan xalqı 44 günlük müharibədə milli ideyası olan ərazilərinin bütövlüyü uğrunda "dəmir yumruğ"a çevrilərək işğalçıya qalib gəldi, haqq və ədaləti bərpa etdi.

Hazırda isə daha bir milli ideya ətrafında "dəmir yumruğ"a çevrilib, Qarabağı və Şərqi Zəngəzuru başdan yaradaraq tezliklə bütün keçmiş məcburi köçkünlərin öz dədə-baba yurdlarına möhtəşəm qayıdışına hazırlaşır.

Parlaq Zəfərimizin müzəffər komandanı İlham Əliyevin dünyaya bəyan etdiyi kimi: "...Bütün Azərbaycan xalqı birlik, iradə göstərmişdir. Qəhrəman əsgər və zabitlərimizin fədakarlığı, qəhrəmanlığı sayəsində bu gün biz azad edilmiş torpaqlarda qurub-yaradırıq, şəhərlərimizi, kəndlərimizi bərpa edirik və həm də şanlı Zəfərimizlə fəxr edirik. Eyni zamanda fəxr edirik ki, biz - bu torpaqların sahibləri bu torpaqlara yenidən həyatı qaytarırıq".

### Bu ərazilər gələcəkdə Azərbaycan iqtisadiyyatı üçün aparıcı qüvvə olacaq

Qısa müddət ərzində böyük səmərə və yüksək keyfiyyətlə 10 min kvadratkilometrdən çox olan ərazinin yenidən qurulması, Qarabağda və Şərqi Zəngəzurda keçmiş məcburi köçkünlər üçün daha yaxşı şərait yaradılması və onların əzəli yurdlarına qaytarılması Azərbaycan dövlətinin, birbaşa Prezident İlham Əliyevin gündəliyində duran əsas prioritetdir.

Bu il oktyabrın 5-də Ağdamda keçirilən Azərbaycan Milli Şəhərsalma Forumunda ölkə rəhbəri İlham Əliyev özü də bu barədə söylədi ki, biz Qarabağı və Zəngəzuru yenidən quracağıq. Buna heç bir şübhəmiz yoxdur. Necə bahalı olursa-olsun, bunu edəcəyik. Bu, bizim milli ideyamızdır.

Torpaqlarımız işğaldan azad ediləndən dərhal sonra həmin ərazilərdə aparılan sürətli quruculuq və bərpa işləri də dövlət başçısının bu məsələyə müstəsna diqqətinin əyani təzahürüdür.

30 il ərzində erməni vandallarının dağıtdığı, daşı daş üstündə qoymadığı yurdlarımız sürətlə dirçəldilir. Yollar çəkilir, tunellər inşa olunur, hərtərəfli infrastruktur qurulur. Artıq Qarabağda və Şərqi Zəngəzurda tikintisinə start verilən üç beynəlxalq hava limanından ikisi - Füzuli və Zəngilan hava limanları istifadəyə verilib, üçüncü - Laçın hava limanının isə 2025-ci ildə açılışı planlaşdırılır.

Bu bölgələrdəki şəhərlərimizin yeni təməlləri atılır, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası həyata keçirilir. Mənfur düşmənin vəhşicəsinə divan tutduğu tarixi, dini, mədəni abidələrimiz bərpa olunur.

Qarabağ və Şərqi Zəngəzurda yeni həyat üçün qurulan bu möhtəşəm işlər dövlət başçısı İlham Əliyevin birinci xanım Mehriban Əliyeva ilə birgə həmin bölgələrə səfərləri zamanı daha aydın göz önünə sərilir.

Vətən müharibəsindən ötən iki il ərzində dəfələrlə işğaldan azad edilən torpaqlara səfər edən ölkə rəhbəri Qarabağda və Şərqi Zəngəzurda öz əlləri ilə möhkəm təməllər atıb, şəhərlərimizin baş planlarını təsdiq edib.

Təkcə ötən il Şərqi Zəngəzura və Qarabağa 32 dəfə səfər edən İlham Əliyev cari ildə də bu möhtəşəm ənənəsini davam etdirib və demək olar ki, işğaldan azad edilən əraziləri başdan-başa gəzib, bu bölgələrimizdə reallaşdırılan işlərlə tanış olub, yeni-yeni layihələrin əsasını qoyub.

Ümumiyyətlə, bu yerlərdə layiqli həyatın təmini üçün mühüm işlər görülür, gələcək perspektivlərə hesablanmış yatırımlar qoyulur. Bu işlərin sayəsində keçmiş məcburi köçkünlərimiz yurdlarına qovuşdurulacaq, eyni zamanda gələcəkdə bu yerlər Azərbaycanın iqtisadiyyatı üçün aparıcı qüvvə olacaq.



### Qədim şəhərlərimizin yeni təməlləri

Artıq işğaldan azad edilən şəhərlərimizin baş planları təsdiqlənib, qədim şəhərlərimizin yeni təməlləri atılıb.

Ötən il mayın 28-də - Müstəqillik Günündə Prezident İlham Əliyev tərəfindən Qarabağ bölgəsinin ilk təməl daşı Ağdamda qoyulub.







İlk olaraq, erməni vandallarının "Qafqazın Xirosiması"na çevirdiyi bu qədim Azərbaycan şəhərinin yeni təməlinin atılmasının özü mənfur düşmənə, eləcə də ona havadarlıq edən qüvvələrə bir mesaj, Azərbaycan xalqının əzəli yurdlarına əbədi qayıdışının ismarışı idi. Həmçinin bu bir daha erməni vandallarından fərqli olaraq Azərbaycan xalqının qurucu xalq olduğunun dünyaya nümayişi idi.

Həmin vaxt Ağdamda 140 illik tarixə malik 1 saylı məktəbin, eyni zamanda gələcəkdə burada iş yerlərinin yaradılması üçün ərazisi təqribən 200 hektara yaxın olan Ağdam Sənaye Parkının, Bərdə-Ağdam avtomobil yolunun təməli qoyuldu, "İmarət" kompleksinin bərpası ilə əlaqədar işlərə start verildi. İşğal və Zəfər muzeyləri konsepsiyası dövlət başçısına təqdim edildi, həmçinin şəhərin içində olacaq 125 hektarlıq böyük meşə sahəsinin bünövrəsi qoyuldu.

Bu il oktyabrın 4-də isə Ağdamın 3 kəndinin - Xıdırlı, Kəngərli və Sarıcalının uğurlu təməlləri atıldı. Ən geci iki ildən sonra bu kəndlərdə bir neçə min insan yaşayacaq.

İşğaldan azad edilmiş torpaqlar arasında ən genişmiqyaslı bərpa işləri Qarabağın döyünən ürəyi Şuşada aparılır. Hazırda Şuşada geniş quruculuq və bərpa işləri sürətlə davam edir. Qala şəhərimizdə həyata keçirilən kompleks işlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin birbaşa nəzarəti altında həyata keçirilir. Dövlət başçısı Şuşaya mütəmadi səfərlər edərək görülən işlərin gedişatı ilə yerindəcə tanış olur.

Mədəniyyət paytaxtımız Şuşanın da Baş planı təsdiqlənib. Şuşanın Baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur. Baş plan hazırlanarkən şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulub. Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Yaşayış massivində 25 binanın olacağı planlaşdırılır.

Ötən ilin aprelindən şəhərin bərpası Baş plan çərçivəsində sistemli şəkildə həyata keçirilir. Baş plana uyğun olaraq Şuşada yeni məktəb binasının, xəstəxananın, məscidin, beşulduzlu mehmanxananın, konfrans mərkəzinin, televiziya qülləsinin tikintisinə başlanılıb. Artıq Şuşada ilk yaşayış kompleksinin inşasına da start verilib və gələn ilin sonunda Şuşa ilk sakinlərini qəbul edəcək və onlara evlərinin açarları təhvil veriləcək.

İlham Əliyev ötən il oktyabrın 17-də Füzuli şəhərinin bərpasının təməl daşını qoydu. Həmin vaxt rayon ictimaiyyətinin nümayəndələri ilə görüşən dövlət başçısı söylədi ki, maksimum qısa müddət ərzində Füzuli şəhəri də, rayonun kəndləri də çiçəklənəcək.

Füzuli rayonunda çox qısa zaman ərzində, cəmi 8 aya inşa olunan Füzuli Beynəlxalq Hava Limanı isə azad edilən torpaqlarımızda




reallaşdırılan möcüzəvi layihələrdən biri oldu. 2021-ci il oktyabrın 26-da Prezident İlham Əliyev və qardaş ölkə Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan ən müasir səviyyədə inşa olunan Qarabağın "hava qapısı"nın - Füzuli Beynəlxalq Hava Limanının açılışını etdilər.

### Böyük qayıdışa Şərqi Zəngəzurdan başladıq

2021-ci il oktyabrın 4-də, işğaldan azad edilən ilk şəhərimiz Cəbrayılın qürurlu bir ilində İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri ilə birlikdə şəhərin bərpasının təməl daşını qoydu.

O da vurğulanası fərəhli məqamdır ki, şanlı Aprel zəfəri sayəsində əldə etdiyimiz qələbədən sonra Böyük qayıdışımıza Cocuq Mərcanlı kəndinin timsalında məhz Cəbrayıldan başlamışıq.

Elə bu ayın 19-da və 20-də də bir daha Cəbrayılda olan İlham Əliyev burada bir sıra yeni obyektlərin açılışlarında iştirak etdi. Dövlət başçısı və birinci xanım Mehriban Əliyeva reintroduksiya layihələrinin həyata keçirilməsi çərçivəsində Cəbrayıl rayonu ərazisinə 18 baş ceyran buraxdılar.

Həmçinin dövlət başçısı qardaş ölkə Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə Cəbrayıl rayonu ərazisində yaradılacaq "Azərbaycan-Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzi", "Ağıllı Tingçilik" və "Dostluq Meşəsi" Kompleksinin təməlqoyma mərasimində iştirak etdi.

2022-ci ilin mayında Zəngilana səfər edən Prezident İlham Əliyev ayın 26-da şəhərin Baş planını təsdiq etdi. Layihəyə əsasən, Zəngilan şəhəri beynəlxalq əhəmiyyətli Zəngəzur nəqliyyat dəhlizi ilə sıx əlaqələri olan strateji əhəmiyyətli yaşayış məntəqəsi kimi inkişaf etdiriləcək.

Mayın 27-də isə 30 illik intizardan sonra, nəhayət, Vətən torpaqlarımıza qayıdışın başlanğıcı qoyuldu. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda "ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimində iştirak etdilər və burada yaradılan şəraitlə tanış oldular.

Çox keçmədən 2022-ci il iyulun 19-da Zəngilanın Ağalı kəndinə əhalinin dörd mərhələdə köçürülməsinə start verildi və vaxtilə Ağalıdan zorla didərgin salınan soydaşlarımız vətənə əbədi yaşamağa döndülər.

Oktyabrın 20-də isə Zəngilanda daha bir möhtəşəm gün yaşandı. Prezident İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Şərqi Zəngəzurun "hava qapısı"nın - Zəngilan Beynəlxalq Hava Limanının təntənəli açılışı gerçəkləşdirildi.

Zəngilan Beynəlxalq Hava Limanı Qarabağın mühüm nəqliyyat qovşağına çevrilməsini şərtləndirən əsas obyektlərdəndir. Həmçinin bu hava limanı Zəngəzur dəhlizinin hava nəqliyyatı infrastrukturu ilə gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir.

### Gələcəyin şəhərləri

Şərqi Zəngəzur iqtisadi bölgəsində yerləşən Kəlbəcərin bərpası, yenidən qurulması strategiyasına ötən il avqustun 16-da Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağda inşa olunacaq 11.6 kilometrlik möhtəşəm tunelin təməlini atmaqla start verən Prezident İlham Əliyev bu nadir təbiətli bölgəmizdə bir daha söylədi ki, artıq Kəlbəcərin inkişafı ilə bağlı planlarımızı reallaşdırırıq.

Bu il iyunun 26-da Kəlbəcərə yenidən səfər edən İlham Əliyev Kəlbəcər şəhərinin Baş planı ilə tanış oldu, Kəlbəcər İşğal və Zəfər muzeyləri kompleksinin, Kəlbəcər Rəqəmsal İdarəetmə Mərkəzinin, Kəlbəcər rayonunda su istehsalı zavodunun, "İstisu" sanatoriyasının təməlini qoydu.

Laçın rayonunda da böyük layihələr həyata keçirilir. Yollar çəkilir, tunellər salınır, elektrik stansiyaları quraşdırılır, beynəlxalq hava limanı tikilir.

Dövlət başçısı Laçın rayonunun işğaldan azad olunmuş Zabux və Sus kəndlərinin layihələndirilməsi və tikintisi işləri ilə bağlı tədbirlər haqqında sərəncam da imzalayıb.

Bu il sentyabrın 22-də Laçın şəhərinə səfər edərək orada Azərbaycan bayrağını dalğalandıran Müzəffər Ali Baş Komandan İlham Əliyev "İndi isə vaxt gəlib çatıb ki, biz Laçın şəhərini bərpa edək" deyə laçınlıları müjdələyərək məlumat verdi ki, artıq buna hazırlıq işləri görülür: "Ümid edirəm ki, laçınlıların birinci qrupu Laçın şəhərinə gələn ilin sonuna qədər qayıda bilərlər. Mən buna ümid edirəm və əlimdən gələni edəcəyəm ki, biz buna nail olaq, tezliklə Laçın şəhərini bərpa edək. Biz bütövlükdə Laçın rayonunu və bütün başqa rayonları bərpa edəcəyik".

Artıq Qubadlı şəhərinin də Baş planı təsdiq olunub və şəhərdə yeni təməllər atılıb. Oktyabrın 19-da dövlət başçısı Qubadlıya səfər edərək İşğal və Zəfər muzeyləri kompleksinin təməlini qoyub.

Şəhər şimal (Kəlbəcər) və cənub (Zəngilan) xidmət, istehsalat şəbəkələrinin bağlantı nöqtəsi olmaqla kənd təsərrüfatı, sənaye sahələrinin birgə inkişaf etdiriləcəyi, innovativ iş yerləri, bağçılıq imkanları üzrə tədris kampusuna malik, eləcə də su mənbələrinə həssas yanaşmaların təşəkkül tapdığı ekoloji dayanıqlı rayon mərkəzi kimi formalaşdırılacaq. Növbəti 20 il ərzində şəhər ərazisinin 505 hektara, əhali sayının isə 14 min nəfərə çatdırılması planlaşdırılır.

*Qarabağ və Şərqi Zəngəzurun quruculuq və bərpası ilə bağlı gətirdiyimiz bəzi nümunələrdən də göründüyü kimi, iki il əvvəlin bu zamanlarında bir-bir azadlığına qovuşdurulan tarixi torpaqlarımız indi də quruculuq zəfərini yaşayır. Kəndlərimiz, şəhərlərimiz başdan yaradılır.*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***







# Müxalif siyasi partiyalar Müzəffər Komandanın zəfərini tariximizin ən möhtəşəm nailiyyəti kimi qiymətləndirirlər

**Vətən müharibəsi Azərbaycan tarixinin milli qürur salnaməsidir. Ordumuzun 2020-ci ilin sentyabrın 27-də başlayan və 44 gün davam edən inamlı və qətiyyətli Zəfər yürüşü ərazi bütövlüyümüzün, eləcə də tarixi ədalət və beynəlxalq hüququn bərpası ilə nəticələndi. Noyabrın 8-də mədəniyyət paytaxtımız Şuşanın işğaldan azad edilməsi və noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan tərəfindən imzalanmış üçtərəfli Bəyanat hərbi-siyasi qələbəmizin təsdiqi oldu. Beləliklə, Azərbaycan 30 ilə yaxın davam edən erməni işğalına öz hərbi-siyasi gücü ilə təkbaşına son qoydu.**




Mövzu ilə bağlı siyasi partiya rəhbərlərinin fikirlərini öyrəndik. Onların sözlərinə görə, şanlı Zəfərimiz düşmənə verilən ən layiqli cavab və dövlət-ordu-xalq birliyinin ən bariz nümunəsidir. İllər keçsə, qərinələr ötsə də, şanlı Zəfərimiz Azərbaycan xalqının taleyinin ən parlaq məqamı kimi heç vaxt unudulmayacaq.

## 8 Noyabr zəfəri dövlətimizin nüfuzunu daha da yüksəltdi

**Milli Məclisin deputatı, Ana Vətən Partiyasının sədri Fəzail Ağamalı** qeyd edib ki, 8 Noyabr - Zəfər Günü Azərbaycan xalqının və dövlətçiliyinin şərəf tarixidir: "Təxminən 200 ildə ermənilər ayrı-ayrı güc mərkəzlərinin köməyi ilə nəinki tarixi torpaqlarımızda məskunlaşmışdılar, eyni zamanda onlara qondarma dövlət də yaratmışdılar. Ermənistan həmin qondarma dövlətin yaradılmasından sonra Azərbaycana qarşı təcavüzündən bir gün belə əl çəkməyib. Bolşevik hakimiyyətinin yarandığı ilk günlərdən başlayaraq xeyli torpaqlarımız - Zəngəzur, Göyçə, Dərələyiz Azərbaycan dövlətinin razılığı olmadan Moskva tərəfindən alınaraq Ermənistana hədiyyə edilib. Sonrakı illərdə də Kremlə yerləşən erməniəsilli şəxslərin fəal və hərtərəfli köməyi ilə Azərbaycanla Ermənistan arasındakı sərbədboyu hektarlarla torpaqlar alınıb Ermənistana verilib. Sovet imperiyasının dağılması ərəfəsində Ermənistan Azərbaycana qarşı yenə genişmiqyaslı əməliyyata başladı və Qarabağın dağlıq hissəsi, eləcə də Şərqi Zəngəzuru işğal etdi. Faşist və barbar xislətli ermənilər 30 il ərzində həmin torpaqlarımızı yerləyeksan edib, sərvətlərimizi vəhşicəsinə talan edib, evləri, məscidləri, tarixi abidələri daşına qədər söküb mənimsəyiblər. Azərbaycan isə torpaqlarının azad edilməsi üçün bütün mümkün olan və olmayan imkanlardan hər zaman istifadə edib".

Fəzail Ağamalı bildirib ki, həmin ərəfələrdə işğala son qoymağın yeganə yolu Azərbaycan dövlətinin güclənməsi, ordumuzun döyüş imkanlarının ən müasir səviyyəyə qaldırılması və hərbi sanayenin yaradılıb inkişaf etdirilməsi idi. Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi və olduqca ciddi əhəmiyyət kəsb edən siyasəti, 2003-cü ildən etibarən xalqımızın etimadını qazanaraq Prezident seçilən İlham Əliyevin həmin siyasəti uğurla davam etdirməsi və ordumuzu gücləndirməsi üçün əlindən gələn hər şeyi etməsi ilə Azərbaycan Qarabağ problemini təkbaşına həll etdi.

"Vaxt gəldi və Prezident İlham Əliyev nəyi, nə zaman və necə yerinə yetirməyi bilən lider kimi real addımlar atmağa başladı. 2020-ci ilin sentyabrın 27-də Müzəffər Ali Baş Komandanın formalaşdırdığı, dünya səviyyəsində güclü silahlı qüvvələr arasında yer alan Azərbaycan Ordusuna hücum əmri verildi. Ordumuz sentyabrın 27-dən noyabrın 8-nə qədər bir dəqiqə belə dayanmadan 200 il ərzində torpaqlarımızı işğal edən Ermənistana, erməni faşistlərlərinə qarşı hücum əməliyyatını layiqincə yerinə yetirdi. Ermənistana ağır zərbələr vuruldu, işğalçı ordu yerləyeksan edildi. Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 30 illik işğala son qoydu. Bu, təkcə Ermənistana deyil, dünya erməniliyinə və onların yanında yer alan güclərə qarşı olan savaş idi. Azərbaycan bu savaşdan uğurla çıxdı, xalqımızın illərlə tapdalanan ləyaqəti özünə qaytarıldı", - deyə deputat qeyd edib.













Partiya sədrinin sözlərinə görə, 8 Noyabr Zəfəri xalqımızı və dövlətimizi regionda söz sahibinə çevirdi: "Bizim mübarizəmiz Vətən müharibəsi başa çatdıqdan sonra, hətta bu günə qədər davam edir. Ermənilərin həyata keçirdiyi bütün təxribatların qarşısı qətiyyətlə alınır, onların əməlləri cavabsız qalmır. Eyni zamanda ermənilərə və onları himayə edənlərə qarşı mübarizə diplomatik platformada davam etdirilir. Biz hər zaman qalib dövlət və ləyaqətli xalq kimi beynəlxalq aləmdə özümüzə məxsus yerimizi tutacağıq. Bu, Azərbaycan xalqının başlıca hədəfidir".

## Diriliş tarixi

**Milli Məclisin deputatı, Böyük Qurtuluş Partiyasının sədri Fazil Mustafa** bildirib ki, Zəfər Günü Azərbaycan tarixində qazanılmış ən böyük qələbə nümunəsidir: "Biz tarixboyu bu prosesi müstəqillik uğrunda mübarizə kimi dəyərləndirmiş və bunun uğrunda mübarizə aparmışıq. Təəssüf ki, heç də həmişə uğura nail olmamışıq, xüsusilə də torpaqlarımızın itkisi ilə bağlı çox böyük fəlakətlərlə üzləşmişik. Amma tarixin bir dövründə, 2020-ci ildə Azərbaycan xalqı Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında birlik nümayiş etdirərək əsgərimizin rəşadəti hesabına Qarabağı işğaldan azad etdi. Xüsusilə Şuşanın işğaldan azad edilməsi bu qələbənin ən böyük ştrixlərindən oldu. Bu, Azərbaycan xalqının qürurunu bərpa etdi, xalqımızın ayaqda durmasına rəvac verdi".

Fazil Mustafanın dediyinə görə, bu qələbə xalqımızın diriliş tarixidir. Azərbaycan Ordusunun Vətən müharibəsindəki qələbəsi ilə xalqımızın gələcəyə ümidi yenidən doğdu: "Biz Zəfər Gününü həm də şükranlıq günü kimi qiymətləndirməliyik. Şükürlü olmalı, tarixi prosesləri qabaqlamağa çalışmamalıyıq. Əsas hədəf budur ki, xalqımız torpaqlarımızı qorumağa hər zaman hazır olmalıdır. Zəfər Günü həm də xalqımızın məsuliyyət günüdür. Çünki qazanılmış qələbəni itirməmək üçün daha ciddi səfərbərlik göstərmək, daha fədakarcasına çalışmaq lazımdır".

## Azərbaycan regionda yeni reallıqlar formalaşdırıb

**Milli Məclisin deputatı, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev** deyib ki, 8 Noyabr bizim vaxtilə qurduğumuz Qarabağı azad etmək, Şuşaya qayıtmaq, Cıdır düzündə konsertlərdə iştirak etmək kimi xəyallarımızı reallığa çevirib: "Bu qələbə həm də Azərbaycanın regionda diktə etdiyi və düşmən qüvvələrin qəbul etməyə məcbur qaldığı yeni reallıqlar formalaşdırıb. Dövlətimiz Vətən müharibəsində şanlı zəfərdən sonra daha rahat xarici siyasət yürüdür, hətta regional oyunçudan qlobal oyunçu roluna doğru addımlayır. Biz bunu beynəlxalq platformalarda Azərbaycan Prezidenti İlham Əliyevə qarşı münasibətdən, Ali Baş Komandana göstərilən etimaddan aydın görürük".

Razi Nurullayevin sözlərinə görə, Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi ilə ərazi bütövlüyümüz təmin edilib. İşğalda olan ərazilərimiz özümüzə qaytarılıb: "Əlbəttə ki, bütün bunların əhəmiyyətini danışmaqla ifadə etmək olmaz. Ordumuz Qarabağı azad etməklə yeni nəqliyyat dəhlizinin formalaşmasına imkan yaradıb. Əminəm ki, xalqımız bir gün Zəngəzur dəhlizinin açılması ilə bağlı zəfəri də təntənəli şəkildə qeyd edəcək.

"Şanlı Zəfərimiz keçmiş məcburi köçkünlərimizi doğma torpaqlarına qaytarır, onların yurd nisgilinə son qoyur. Qarabağın və Şərqi Zəngəzurun iqtisadi resursları ölkəmizin sosial-iqtisadi inkişafına ciddi təkan verəcək. İşğaldan azad edilmiş ərazilərdə mövcud olan təbii ehtiyatlar bizim üçün əvəzssiz sərvətdir və respublikamızın buna ciddi ehtiyacı var. Ən nəhayət, Azərbaycan bu Zəfəri ilə dünyada mövcud olan separatizm cəhdlərinə zərbə vurub. Hətta bizim İkinci Qarabağ müharibəsindəki zəfərimizdən sonra bütün dünyada yeni düzənin yaradılması üzərində iş gedir", - deyə partiya sədri bildirib.

## Tariximizin parlaq səhifəsi

**Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə** qeyd edib ki, 8 Noyabr həm xalqımız, həm də dövlətçiliyimiz üçün qürur və şərəf günüdür: "Şanlı Zəfərimiz dünyanın harasında yaşamasından asılı olmayaraq, ürəyi yurd sevgisi ilə yanan bütün soydaşlarımız, eləcə də türk dünyası üçün iftixar mənbəyidir. Heç şübhəsiz ki, torpaqlarımızın işğaldan azad edilməsi ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə çevrilib. Bu parlaq qələbə bütün dünyaya Azərbaycan xalqının birliyini, gücünü, mətinliyini və mübarizliyini nümayiş etdirir. Zəfər Günü həm də tarixi ədalətin bərpa olunduğu, 30 illik yurd həsrətinin bitdiyi gündür".

Partiya sədrinin sözlərinə görə, 44 günlük Zəfər yürüşündə yeni reallıqların təməli qoyulub: "Məhz bu reallıqlar nəticəsində ərazi bütövlüyümüz təmin olunub, status məsələsi birdəfəlik arxivə gömülüb, tarixi Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin yaradılması planlarının üstündən həmişəlik xətt çəkilib. Zəfər Gününün əhəmiyyəti canı-qanı bahasına Vətən uğrunda silaha sarılan oğullarımızın yüksəldiyi şəhadət zirvəsindən daha aydın görünür. Şanlı qələbəmiz bütün dünyaya bir daha sübut etdi ki, Qarabağ Azərbaycandır!"

## Təkcə Ermənistan deyil, havadarları da məğlub edildi

**Böyük Azərbaycan Partiyasının sədri Elşad Musayev** bildirib ki, Zəfər Gününə qədər təxminən 200 ildə Azərbaycan daim torpaq itkisi ilə üzləşib: "Nəhayət, 2020-ci ildə ölkə Prezidentinin Ali Baş Komandanlığı ilə ordumuz işğalçı Ermənistanı ağır məğlubiyyətə uğradaraq Qarabağı və Şərqi Zəngəzuru işğaldan azad edib. Bu, o deməkdir ki, təkcə Ermənistan deyil, həm də onlara havadarlıq edən məkrli qüvvələr də məğlubiyyətə uğrayıb. Azərbaycan bu şanlı qələbəyə məhz Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi, əsgər və zabitlərinin sarsılmaz gücü, dövlət-xalq-ordu birliyinin yenilməzliyi hesabına nail olub. Biz dövlət və millət olaraq Vətən uğrunda canından keçmiş şəhidlərimizin ruhunu hörmətlə anır, bütün ordu birləşmələrindəki əsgər, gizir və zabitlərimizin xidmətlərini yüksək qiymətləndiririk. Zəfər Günü unudulmaz tarixi əhəmiyyətə malikdir və bu qələbə xalqımıza çox yaraşır".

E.Musayevin sözlərinə görə, bu gün regionda sülh və əmin-amanlıq mühitinin formalaşdırılması gündəmdə duran ən vacib məsələlərdən biridir: "Azərbaycan dövləti hər zaman olduğu kimi sülh tərəfdarıdır. Ona görə Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində sülh gündəliyi məhz bizim cəhdlərimizin nəticəsi olaraq davam edir. Danışıqlarda Qarabağ məsələsinin müzakirə mövzusu olmaması isə dövlətimizin hərbi-siyasi və diplomatik gücünün göstəricisidir. 44 gün davam edən Vətən müharibəsində qazanılmış qələbəmiz yeni siyasi reallıqların formalaşmasına zəmin yaradıb. Bu gün Azərbaycan dövlətinin beynəlxalq nüfuzu durmadan artır və biz regionun diktə edən ölkəsinə çevrilmişik".

## Şanlı Zəfərimiz Prezident İlham Əliyevin məqsədyönlü siyasətinin nəticəsidir

2020-ci ilin payızının ölkəmizin tarixinə şanlı dövr kimi həkk olunduğunu deyən **Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova** bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Vətən müharibəsində işğalçı Ermənistan üzərində möhtəşəm qələbə qazanıb, xalqımızın 30 illik həsrətinə son qoyub: "Ali Baş Komandanımızın düşünülmüş strategiyası, siyasi iradəsi və qətiyyəti sayəsində ordu ilə xalqın sarsılmaz birliyi təmin olunub. İşğalda olan ərazilərin düşməndən azad edilməsi müstəqillik tariximizin ən prioritet məsələsi idi. Sözsüz ki, buna nail olmaqda Prezident İlham Əliyevin 2003-2020-ci illərdə beynəlxalq müstəvidə ardıcıl və məqsədyönlü fəaliyyəti xüsusi qeyd edilməlidir. Dövlətimiz Ermənistanın işğalçılıq siyasəti nəticəsində yaranan "Dağlıq Qarabağ münaqişəsi" ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün bütün vasitələrdən istifadə etdi. Belə qətiyyətli siyasətin nəticəsində isə münaqişənin həlli üçün əlverişli hüquqi zəmin formalaşdı".

Partiya sədri qeyd edib ki, Azərbaycan dövlətinin praqmatik siyasəti hər zaman ölkəmizin güclənməsinə, maliyyə imkanlarının artırılmasına və müasir ordu quruculuğuna istiqamətlənib: "Qısa müddətdə dünyanın 50 ən güclü ordusu sırasında yer alan ordumuzun formalaşdırılması böyük uğur kimi dəyərləndirilməlidir. Dövlətimiz artıq tarixə qovuşmuş Dağlıq Qarabağ münaqişəsinin həllində prinsipial mövqedən çıxış edərkən məhz diplomatik potensialımıza və ordumuzun gücünə güvənirdi. Beləliklə, Prezident İlham Əliyevin rəhbərliyi ilə diplomatik müstəvidə aparılmış məqsədyönlü siyasət müsbət nəticəsini verdi. Vətən müharibəsində Azərbaycan işğalçı Ermənistanla müqayisədə hər cəhətdən üstün olduğunu nümayiş etdirdi. Silahlı Qüvvələrimiz 44 günlük müharibədə Müzəffər Ali Baş Komandan İlham Əliyevin döyüş əməliyyatları ilə bağlı verdiyi bütün tapşırıqları yüksək səviyyədə yerinə yetirərək işğalçını tam kapitulyasiyaya məruz qoydu və ölkəmizin ərazi bütövlüyü təmin olundu. Prezident İlham Əliyevin Vətən müharibəsində qazanılan şanlı qələbəmizi yüksək dəyərləndirərək qeyd edir: "Həyat göstərdi ki, biz güclü iradə, cəsarət göstərərək istədiyimizə nail ola bildik".

Ə.Kazımova deyib ki, müharibələrdə qazanılmış böyük qələbələr, adətən, xalq-dövlət-ordu birliyinin sarsılmaz vəhdətinin nəticəsi olur: "İkinci Qarabağ müharibəsi dünya azərbaycanlılarının birliyinin sarsılmazlığını, xalqımızın Vətən torpaqlarının azad edilməsi naminə "dəmir yumruq" kimi birləşdiyini nümayiş etdirdi. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, habelə Azərbaycanın haqq işinə dəstək verən digər xalqların nümayəndələri erməni lobbisinin apardığı çirkin kampaniyalara qarşı fədakarlıqla mübarizə apardılar. Müharibənin gedişində milli birliyimiz daha da möhkəmləndi, Azərbaycanın bütün vətəndaşları etnik, sosial, dini baxımdan bütövlük nümayiş etdirdi, ön və arxa cəbhədə mükəmməl həmrəylik yarandı".

Partiya sədrinin sözlərinə görə, Vətən müharibəsi dövründə dövlət başçısının yüksək siyasi məharəti sayəsində diplomatik cəbhədə də böyük uğurlar qazanıldı. Prezident İlham Əliyev müharibə dövründə dünyanın ən böyük media qurumlarına 30-dan çox müsahibə verdi, münaqişə ilə bağlı həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı. Bir sıra beynəlxalq təşkilatlar və Azərbaycana dost ölkələr ədalətli mübarizəmizdə bizə böyük dəstək verdilər.

"Prezident İlham Əliyevin Vətən müharibəsindən sonrakı dövrdə dəfələrlə şəhid ailələri, qazilər və keçmiş məcburi köçkünlərlə görüşməsi, işğaldan azad edilmiş torpaqları ziyarət etməsi, həmin ərazilərin dirçəldilməsi, yenidən qurulması və abadlaşdırılması istiqamətində aparılan işlərə şəxsən nəzarət etməsi Azərbaycan dövlətinin güclü iradəsini bir daha ortaya qoyur. Bu, hər bir azərbaycanlıda qürur hissi yaradır. Prezident bildirib: "Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur". Erməni vəhşiliyinin qurbanına çevrilmiş torpaqlarımızda qurulan yeni şəhər və kəndlərimizin innovativ yenilənməsi ilə yanaşı, həm də öz tarixi keçmişini əks etdirməsi bir daha qazandığımız Zəfərin böyüklüyünü sübut edir", - deyə Əsli Kazımova bildirib.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

◆ Şuşadan reportaj







# Şuşanın suları indi gur axır

## Kiçik Kirs dağından, Zarıslıdan Zəfər qalamıza gələn həyat mənbəyi daha heç vaxt kəsilməyəcək

Yolumuz Zəfərimizin zirvəsinə - Şuşayadır...

Zəfər yolu ilə Qarabağın ecazkar mənzərəsinə tamaşa edə-edə irəlilədikcə əsrarəngiz gözəllik insanın ruhunu oxşayır.

Daşaltıdan şəhərə doğru qalxarkən Şuşanın içməli su ilə təmin edən "Azərsu" ASC-nin əməkdaşlarının Kiçik Kirs dağı istiqamətində yeni tikilmiş obyektdə işlədiklərini görüb istiqaməti dəyişirik.

Əraziyə çatanda bizi "Azərsu" ASC-nin xidmət rəisi, "Əmək" ordenli Oqtay Həziyev qarşılayır. Çox iti yaddaşı var Oqtay müəllimin. Çünki bizi görən kimi ötən ilin yayında Şuşaya ilk səfərimiz zamanı şəhərə içməli su xəttinin çəkilməsi prosesinin necə aparıldığı barədə reportaj hazırlayarkən onunla söhbətləşdiyimizi xatırladı. Həmin vaxt Kirs dağı istiqamətindən Şuşaya gələn su xəttinin hamısının üstü açılaraq köhnə borular yenilənir və qazılmış hazır xəndəklərə basdırılırdı. Oqtay Həziyev isə bunu belə izah etmişdi ki, tarixən qış aylarında Şuşada su çətinliyi, qıtlığı olub. Hətta qışda şəhərdə su pula satılıb, çünki şaxta bütün xətləri dondururmuş. İndi isə Şuşaya çəkilən bütün su xətləri izolyasiya edilir və torpağın 1,7 metr dərinliyinə basdırılır. Bu isə o deməkdir ki, Şuşa daha qışda susuz qalmayacaq, şəhər 24 saat daimi su ilə təmin ediləcək.

Söhbət zamanı Oqtay Həziyevdən Kiçik Kirs dağından şəhərə gələn su xəttinin hansı mərhələlərdən keçdiyini xəbər aldıqda isə maraqlı təklif səsləndirdi: "Mən bu barədə sizə məlumat verə bilərəm və siz də, sadəcə, yazı xətrinə bunu məqaləyə çevirə bilərsiniz. Amma yaxşı olardı ki, burdan birbaşa suyun mənbəyinə baş çəkək və öz gözlərinizlə bizim gördüyümüz işlərə şahidlik edin". Təbii ki, bu maraqlı təklifi geri çevirə bilməzdik və avtomobillərə əyləşərək yüksəkliyə üz tuturuq...







### Şuşanın içməli su təminatı necə reallaşdı?

Avtomobillə çətin dağ relyefi ilə hərəkət edə-edə Oqtay Həziyevlə söhbətləşirik. Bəlli olur ki, 44 günlük Vətən müharibəsi dövründə düşmən qüvvələri şəhəri tərk edərkən magistral su kəmərlərini də sıradan çıxardıblar. Yaranmış içməli su probleminin həlli məqsədilə ilkin olaraq Daşaltı kəndinin içməli su təchizatı bərpa edilib və Şuşa şəhərini müvəqqəti olaraq maşınlarla su ilə təmin etmək üçün Daşaltıda sudoldurucu məntəqə yaradılıb.

Bununla paralel olaraq Müdafiə Nazirliyinin müvafiq bölmələri ilə birgə təhlükəsizlik tədbirləri görülməklə diametri 325 mm olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin texniki vəziyyəti təftiş olunub. Məlum olub ki, hərbi əməliyyatlar zamanı mərmi partlayışları nəticəsində şəhəri içməli su ilə təmin edən 9,4 km uzunluğunda polad borulardan ibarət magistral su kəməri üzərində 12 nöqtədə böyük qəza var. Qəzaların qısa müddətdə aradan qaldırılması üçün lazım olan texniki avadanlıq və material tələbatı müəyyən edilib, həmçinin "Azərsu" ASC tərəfindən əlavə mühəndis-mütəxəssis heyəti, qəza-bərpa briqadası və maşınları Şuşaya ezam edilib.

Qəza-bərpa işlərinə cəlb olunmuş texnikaların maneəsiz hərəkəti üçün kəmərin marşrutu boyu mümkün olan yerlərdə istismar yolu salınıb, texnikaların hərəkətinin mümkün olmadığı yerlərə isə mal-materiallar əllə daşınaraq təmir işlərinə başlanılıb. Mürəkkəb relyefə malik ərazidə, meşə və dağ şəraitində magistral su kəmərinin qəzalı hissələri təmir edilib və Kiçik Kirs mənbəyində uzunluğu 9,4 km olan Kiçik Kirs-Şuşa magistral su kəmərinin qəzalı hissələrində bərpa işləri aparılıb. Qısa müddət ərazində Kiçik Kirs - Şuşa və Zarıslı - Şuşa magistral su kəmərlərinin qəzalı hissələri bərpa edilib, 2020-ci il noyabrın 25-də Kiçik Kirs, dekabrın 20-də isə Zarıslı mənbəyindən şəhərə suyun verilməsi təmin olunub. Şəhərdaxili şəbəkədə tənzimləmə işləri aparılıb. Hazırda "Azərsu" ASC tərəfindən Şuşa şəhəri, Kəlbəcər, Laçın, Zəngilan rayonları və Hadrut qəsəbəsində fasiləsiz xidmət təşkil edilib.

Şuşaya iki mənbədən - Zarıslı və Kirs dağının ətəyindən içməli su xətti çəkilib. Əvvəllər bu xətlər ayrı-ayrılıqda Şuşanı su ilə təmin edirdi. Ancaq sonradan nasosxana və təzyiqqırıcı inşa edildikdən sonra hər iki xətt bir məntəqədə birləşir və oradan şəhərə suyun verilməsi təmin edilir. Yəni şəhər 24 saat dayanıqlı içməli su ilə təmin olunur. Şəhərin daxilində mövcud 6 qazanxana da su ilə təchiz edilib.

### Kiçik Kirs su mənbəyində ikikameralı ötürücü qurğu yaradılıb

Xeyli yüksəkliyə qalxdıqdan sonra suyun mənbəyinə yetişirik. Mənbədə bütün işlər tamamlanıb və ərazi təhlükəsizlik baxımından məftillərlə hasara alınıb. Oqtay Həziyev deyir ki, ərazidə iki kameradan ibarət qurğu qurulub. Dağlardakı bulaqlardan su sakit axınla gəldikdə birinci suqəbuledici kamera işləyir. Yağıntılı dövrlərdə çaylarda axın çoxalanda ikinci kamera da işə düşür. Bu qurğuda toplanan su 325-lik diametrli özüaxınlı kəmərlə Şuşaya ötürülür.

"Şuşa işğaldan azad olunarkən bu ərazi çox acınacaqlı vəziyyətdə idi. Su sistemi də bərbad hala salınmışdı. Prezident İlham Əliyevin göstərişi ilə bu durumun tez bir zamanda aradan qaldırılması üçün vəsait ayrıldı və "Azərsu" ASC ləngimədən şəhərin su təminatını bərpa etdi", - deyən Oqtay Həziyev bildirdi ki, hazırda Şuşa şəhəri iki istiqamət üzrə su ilə təmin edilir. Bunlar Kiçik Kirs dağlarından, və Zarıslı istiqamətindən gələn xətlərdir.

Ümumiyyətlə, bu cür çətin relyeflərdə belə qurğuların qurulması insana möcüzə kimi gəlir. Hərəkət etmək belə çətin olan ərazilərdə Azərbaycan oğulları xariqələr yaradırlar. Qayalıq ərazidə əvvəlcə xüsusi texnikanın sərbəst hərəkəti üçün trass salınır ki, buradan həm də gələcəkdə istismar yolu kimi istifadə olunacaq. Su kəmərlərinin keçəcəyi ərazilərdə xüsusi texnikalardan istifadə olunmaqla qayalıqlar yarılaraq xəndəklər qazılır və tikinti normalarına uyğun olaraq qumla doldurulub hazır vəziyyətə gətirilir. Sonra borular qaynaq edilərək xəndəklərə yerləşdirilir. Texniki tələblərə uyğun olaraq hər bir qaynaq tikişi yoxlanılır, korroziyadan qorumaq üçün həmin hissələr izolyasiya olunur. Gələcəkdə ərazidə qazıntı aparılacağı təqdirdə kəmərin zədələnmə risklərini nəzərə alaraq bütün marşrut boyu borunun üzərinə xəbərdaredici lentlər çəkilir.

Bütün bunların soyuq-şaxtalı havalarda həyata keçirilməsini nəzərə alsaq onda deyə bilərik ki, Azərbaycanın qəhrəmanları Vətən müharibəsində sıldırım qayalara dırmaşıb Şuşanı işğaldan necə azad ediblərsə, indi burada çalışanlar o igidlərdən örnək götürüb gecə-gündüz yorulmadan çalışırlar.

### Daşaltıda tutumu 25 min kubmetr olan yeni bənd tikilib

Buradakı vəziyyətlə tanış olduqdan sonra Şuşa şəhərinin daim içməli su təminatını həyata keçirmək üçün yaradılan bəndə üz tuturuq.

Qeyd edək ki, Daşaltı kəndinin yaxınlığında, Zarıslı çayının məcrasında sutoplayıcı bənd də tikilib. Bəndin tikintisini həyata keçirən, infrastruktur layihələrinin icrasında böyük təcrübəyə və müasir maddi-texniki bazaya malik "Protean Construction" ASC şirkətinin rəisi Rasim Yaqubovla söhbətləşirik. Bəlli olur ki, mürəkkəb relyefdə çayın qarşısında bəndin inşası ilə paralel burada toplanan suyun şəhərə nəqli məqsədilə yüksək təzyiqə hesablanmış müasir nasos stansiyası və polad borularla 2,6 km uzunluğunda kəmərin tikintisi işləri aparılıb. Hazırda layihə üzrə son tamamlama işləri həyata keçirilir: "Şuşa şəhərinin su sisteminin yenidən qurulması layihəsi çərçivəsində nəzərdə tutulmuş işlərin böyük hissəsi yerinə yetirilib. Yerinə yetirilmiş işlərdən ilk növbədə Kiçik Kirs mənbəyindən Şuşa şəhərinə gələn polad borunun çəkilişi başa çatdırılıb. Hazırda Şuşaya su yeni boru xətti ilə verilir. Layihə çərçivəsində ikinci mühüm işlərdən biri Kirs dağından gələn suların toplanması üçün böyük sutoplayıcı bəndin tikilməsidir. Məqsəd mövsümi olaraq suların bulaqlarda azaldığı vaxtda bənddə toplanan istənilən qədər suyun Şuşa şəhərinə nəql edilməsidir. Bənddən suyun Şuşa şəhərinin yeni tikilmiş nasosxanasına nəql olunması üçün metal borular çəkilib və montaj işləri yerinə yetirilib. Nasosxanada 4 ədəd nasos var. İstənilən vaxt istifadəsi mümkündür. Əgər elektrik enerjisi kəsilərsə, generatorlar işə düşür və su təminatında problem yaranmır".

Uzunluğu 200 metr, eni 25 metr, dərinliyi 7 metr 30 sm olan bəndin ümumi su tutumu 25 min kubmetr təşkil edir.

Maraqlıdır ki, dağların zirvələrində bu cür su bəndi necə yaradılıb?

Rasim Yaqubov deyir ki, bənd salınan ərazi əvvəlcə meşə sahəsi olub. Əvvəlcə Daşaltı çayının məcrası dəyişdirilib ki, işlərə maneçilək yaratmasın. Sonra ərazidən 50 metr eni, 60 metr uzunu və 12 metr dərinlikdə olan quyunun qaya suxurları tamamilə çıxarılıb. Torpağın üzərinə 6 metrdən çox hündürlüyündə gil qatı verilib. Onun da hər 30 sm hündürlüyünün üzərinə su tökülərək yoxlanılıb. Yəni suyun sızıb-sızmaması prosesinin öyrənilməsi hər 30 santimetrdən bir təkrarlanıb. Gil qatı tam kipləşdikdən sonra armaturlarla ikiqat lövhə toxunub və onun üzərinə 420 kubmetr həcmində B25 markalı, suyadavamlı, xüsusi maddə qatılmış beton tökülüb. Bununla da bənd hazır vəziyyətə gətirilib.

### Yeni anbarlar tikiləndən sonra şəhərdaxili şəbəkə yenidən qurulacaq

Su bəndi ilə tanışlqdan sonra Şuşa şəhərində görülən işlərlə tanış olmaq üçün Qalaya üz tuturuq.

Yeni layihələr barədə məlumat verən Oqtay Həziyev bildirir ki, Şuşa şəhərinin içməli və tullantı su təchizatı sistemlərinin yenidən qurulmasının növbəti mərhələsində şəhərdaxili şəbəkələrin tamamilə yenidən qurulması, içməli və çirkab sutəmizləyici qurğuların inşası nəzərdə tutulur. Hazırda "Azərsu" ASC-nin və məsləhətçi şirkətlərin mütəxəssisləri bu istiqamətdə axtarış və tədqiqat işlərini davam etdirirlər.

Təsdiqlənmiş layihəyə uyğun olaraq Şuşa şəhərinin relyef baxımından hündür nöqtələrində 2 mərkəzi anbarın tikintisinə də başlanılıb. Layihələndirmə zamanı əhalinin dayanıqlı içməli su təchizatının aparılması üçün şəhər 8 müxtəlif təzyiq zonasına bölünüb. Bu zonalardan 6-sı özüaxımlı rejimdə, 2-si isə hidrofor nasoslarla su ilə təmin olunacaq.

"Şuşanın dayanıqlı içməli su ilə təmin olunmasında əsas amillərdən biri su anbarlarının yaradılmasıdır. Hazırda şəhərdə anbar sahəsində qazıntı işləri aparılır. Bu anbarlar tam hazır olduqdan sonra Şuşanın bütün su sistemi yenilənəcək. Hazırda isə burada olan Azərbaycan Ordusunun şəxsi heyəti, Şuşanın yenidən qurulmasında iştirak edən hər kəsin içməli su təchzatı 1000 və 800 kubmetr həcmində olan 2 su anbarı vasitəsi ilə həll edilir. Gələcəkdə bu imkanlar xeyli artırılacaq".

Göründüyü kimi, Prezidentin tapşırıqlarına uyğun olaraq şəhərin dayanıqlı və keyfiyyətli içməli su ilə təmin olunması məqsədilə alternativ su mənbəyinin yaradılması layihəsi üzrə mühüm işlər görülür. Bütün bunlar Şuşanın fasiləsiz su təminatının reallaşması üçün həyata keçirilir. Gördüklərimizə, eşitdiklərimizə əsasən deyə bilərik ki, tezliklə şəhərin su təchizatı daha mükəmməl şəkildə qurulacaq.

Elə bu xoş təəssüratlarla Şuşanın yenidən qurulmasında tarix yazan "Azərsu" ASC-nin əməkdaşlarına işlərində uğurlar arzulayıb onlarla sağollaşırıq.

Onu da vurğulayaq ki, hazırda təkcə Şuşada deyil, Şərqi Zəngəzurda da "Azərsu" ASC tərəfindən mühüm işlər həyata keçirilməkdədir. 2022-ci il avqustın 26-dan Azərbaycanın tam nəzarətinə keçmiş Laçın şəhərində qısa müddətdə xeyli iş görülüb. Ermənilər tərəfindən dağıdılmış mənbələr və şəbəkələr bərpa edilib, hazırda Laçında xidmət aparan hərbçilər, abadlıq-quruculuq işləri görən mülki vətəndaşların hamısı dayanıqlı içməli su ilə təmin ediliblər.

*Azərbaycanın zəfərinə güc qatan su təsərrüfatı işçilərini qarşıda daha böyük işlər gözləyir. İşğaldan azad olunmuş ərazilərdə "ağıllı su" layihələrinin icrasını hədəfləyən "Azərsu" ASC-nin mütəxəssisləri Qarabağın və Şərqi Zəngəzurun içməli su ehtiyatlarının və mənbələrinin müəyyən edilməsi, hər bir şəhər, qəsəbə və kənd üçün müfəssəl layihələrin hazırlanması məqsədilə mühəndis axtarış işlərini davam etdirirlər.*

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

*Bakı-Şuşa-Bakı*














# Müzəffər ordumuzun tarixi Zəfəri

**Azərbaycanın şanlı tarix səhifəsinə yazılan misilsiz qələbənin - Zəfər Gününün ikinci ildönümünü, Şuşanın 2020-ci il 8 noyabr tarixində işğaldan azad olunması gününü xalqımız təntənə ilə bayram edir. Həmin gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli Ordusunun 44 günlük Vətən müharibəsində möhtəşəm qələbəsi təmin olundu. Şanlı Ordumuz, Azərbaycanın əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.**



Beləliklə, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzunu yüksəldən və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbə əbədiləşdirildi. 2020-ci il noyabrın 9-dan 10-a keçən gecə Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın baş naziri Nikol Paşinyan və Rusiyanın dövlət başçısı Vladimir Putin arasında münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə üçtərəfli Bəyanat imzalandı. Ermənistan həmin gün kapitulyasiya aktına imza atdı. Bununla da Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi. Eyni zamanda Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi. Tarixi ədalət bərpa olundu. İşğaldan, əsirlikdən azad edilən digər torpaqlarımız kimi, ölkəmiz üçün strateji əhəmiyyət daşıyan Laçın rayonu da 28 ildən sonra əsl sahiblərinə qaytarıldı. Laçının erməni vandallarından xilası Böyük Qələbənin davamı olaraq qondarma Dağlıq Qarabağ iddiasına son qoydu. Bununla da mənfur düşmənlərimizin işğalı ilə öz doğma yurdlarından uzaq düşən qarabağlıların yurd həsrəti bitdi. Şuşada, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Ağdamda, Kəlbəcərdə, nəhayət, Azərbaycanın dilbər guşələrindən biri olan Laçında üçrəngli bayrağımızın dalğalanması Azərbaycan tarixinin ən parlaq səhifələrinini yazdı.

Ali Baş Komandan vədinə sadiq qalaraq qədim Şuşamızın işğaldan azad edilməsini təmin etdi. 8 noyabrda ordumuzun qəhrəman hərbçiləri alınmaz qala hesab edilən Şuşanı böyük fədakarlıqla azad etdilər. Hətta bu döyüşləri xarici hərbi ekspertlər, o cümlədən erməni generalları əfsanə adlandırdılar. Sıldırım qayaları dırmaşaraq əlbəyaxa döyüşlər həyata keçirən Azərbaycan əsgərləri Şuşada Ermənistan hərbi birləşmələrini bir gün ərzində məhv etdilər.

Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu rəşadətli döyüşlərdə düşməni diz çökdürdü, torpaqlarımızı işğalçılardan təmizlədi, ərazi bütövlüyümüzü bərpa etdi. Mədəniyyət beşiyi olan füsunkar Şuşamız 28 il 6 aydan sonra düşmən işğalından azad edildi. Bu zəfəri Azərbaycan və türk dünyası sevinclə qarşıladı. Xalqımızın 30 illik gözləntiləri, arzu və istəkləri reallığa çevrildi. O gün Şuşa yenidən əsl sahibinə, Azərbaycanına qovuşdu. Əlbəttə, Azərbaycanın hər qarışı bizə doğmadır, əzizdir, amma Ali Baş Komandanın dediyi kimi: "İşğal edilmiş torpaqların hər bir qarışı bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlərlə müqayisədə eynidir, bərabərdir. Amma Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimzdir, qədim mədəniyyət ocağımızdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edib. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Laçının işğaldan azad olunması münasibəti ilə xalqa müraciətində qeyd edirdi ki, artıq Ermənistanın məğlubiyyətindən sonra bölgəmizdə yeni reallıq yarandı: "Bu reallığı biz yaratdıq. Azərbaycan yaratdı bu reallığı. Biz düşməni torpaqlarımızdan qovduq. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirdik. Bu qətnamələr 27 il idi ki, kağız üzərində qalırdı. Bu qətnamələr 27 il idi ki, sadəcə olaraq, bir çoxları üçün kağız parçası idi, təkcə Ermənistan üçün yox, başqaları üçün də. Biz deyirdik ki, beynəlxalq hüquq bizim tərəfimizdədir, BMT Təhlükəsizlik Şurasının qətnamələri tələb edir ki, işğalçı qüvvələr torpaqlarımızdan çıxsın. Amma bunun nəticəsi olmadı. Biz beynəlxalq hüquq praktikasında və bölgəmizdə yeni reallıq yaratdıq. Biz BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etdik. Biz ərazi bütövlüyümüzü bərpa etdik. Biz işğala son qoyduq".

Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində dövlətimizin başçısı bütün diplomatik təzyiqlərə sinə gərərək, mürəkkəb məsələlərin öhdəsindən uğurla, ləyaqətlə gəlməyi bacardı. Azərbaycan bütün dünyaya həm döyüş, həm də diplomatiya meydanında münaqişənin hərb yolu ilə həllinin mümkünlüyünü sübut etdi. Döyüş meydanında Azərbaycan əsgərlərinin qazandığı zəfər diplomatiya meydanında da uğurlara çevrildi və sonda danışıqların şərtlərini Azərbaycan tərəfi diktə etdi. Vətən müharibəsi dövründə dünyanın nüfuzlu televiziya kanallarına və informasiya agentliklərinə müsahibə verən Prezident İlham Əliyev Azərbaycana qarşı irəli sürülən bütün yalan informasiyaları ifşa etdi. Ölkə rəhbərimiz öz qətiyyətli siyasəti ilə nəinki cəbhədə, hətta informasiya sahəsində də ən məşhur xarici jurnalistlərin suallarını tutarlı tarixi faktlarla cavablandıraraq bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır!

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Artıq 30 illik həsrətə, nisgilə son qoyuldu, Qarabağın tutqun üzü açıldı, başındakı duman, çən dağıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli ordumuz, qəhrəman əsgərlərimiz müqəddəs torpaqlarımızdan düşmənin murdar ayağını kəsdi. Bütün elimizə, obamıza qələbə ərməğan etdi, yurdundan didərgin düşən yüz minlərlə vətəndaşımızın Vətən yarasına məlhəm çəkdi, yurda qayıdış ümidlərini dirçəltdi. Qalib Sərkərdəmiz işğaldan azad edilən Vətən torpaqlarına başı dik, üzüağ, qürurlu bir qəhrəman kimi qədəm qoydu...

Barbar Ermənistan son 30 ildə elə məkrli planlar qurmuşdu ki, onlar güman edirdilər ki, daha Azərbaycan xalqı bu torpaqlara qayıtmayacaqdır. Elə bilirdilər ki, Şuşanı, Laçını, Kəlbəcəri, Ağdamı, ümumiyyətlə, Qarabağı xalqımızın qəlbindən çıxarıb ata biləcəklər. Buna görə də işğal etdiyi bütün yurdlarımızı viran etmiş, daşı daş üstündə qoymamışlar. Təbiətimizə qənim kəsilmiş, çaylarımızı qurutmuş, meşələrimizi yandırmış, qiymətli ağaclarımızı kəsib məhv etmişdilər. Bu illər ərzində yeraltı-yerüstü bütün sərvətlərimizi talayaraq qəsb etmiş, maddi-mədəni abidələrimizə sahib olmağa çalışmışdılar. Doğma torpaqlarımızda Azərbaycan xalqından heç bir nişanə qalmaması üçün ağlagəlməz vəhşiliklərə əl atmışdılar. Amma yanılmışdılar, cılız ağılları ilə anlaya bilməmişdilər ki, Qarabağ Azərbaycandır! Azərbaycan Ordusunun bir-birinin ardınca azad etdiyi yurdlarımızın çəkiliş kadrlarına baxdıqca, o viranə qalan yurdlarımızı gördükcə insanlar dəhşətə gəlirlər. Ancaq bu gün dağılan məscidlərimizdən ucalan azan səslərini eşitdikcə ruhumuz dincəlir, ümidlərimiz dirçəlir, güvənimiz artır.

Bəli, məhz 44 günlük savaşın nəticəsi olaraq 30 ildir danışıqlar prosesində Ermənistan nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi. Bu mənada danışıqlar prosesinin müxtəlif mərhələlərində müzakirə olunan razılaşma variantlarının Azərbaycan üçün ən sərfəli variantı belə hazırda ölkəmizin əldə etdiyi üstünlüklə müqayisə edilə bilməz. Prezident İlham Əliyev Füzuli şəhərindən bir daha bəyan etdi ki, ərazi bütövlüyümüzü bərpa etmişik, təcavüzkarları işğal edilmiş torpaqlardan qovmuşuq: "Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var".

Artıq Dağlıq Qarabağla bağlı tamamilə yeni reallıq yaranıb. Müzəffər ordumuzun yaratdığı bu reallıq ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü təmin olundu, Dağlıq Qarabağın statusunun müəyyən edilməsi məsələsi arxivə gömüldü, tarixi Azərbaycan torpaqlarında yeni erməni dövlətinin yaradılması planlarının üstündən həmişəlik xətt çəkildi. Ali Baş Komandanımız Ermənistana və onun himayədarlarına sübut etdi ki, Qarabağ Azərbaycandır!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi tarixi qələbədə ordumuzun müasir döyüş texnikası və silah-sursatla təmin edilməsində Müdafiə Sənayesi Nazirliyiinin Elmi-Tədqiqt İnstitutunun fəaliyyəti də təqdirəlayiq olmuşdur. Nazirliyin xətti ilə hərbi təyinatlı məhsulların buraxılması prosesi uğurla gedir və biz bu sahədə böyük nailiyyətlərə çata bilmişik.

44 gün davam edən haqq mübarizəmiz sayəsində bütün dünya gördü ki, Azərbaycan xalqı yumruq kimi birdir. İnanırıq ki, tarixin bu keşməkeşli sınağından üzüağ, alnıaçıq, şərəflə və qürurla çıxan Azərbaycan qələbəmizin rəmzinə çevrilən dəyərlərimizi daha da möhkəmləndirəcək və dünyanın formalaşmaqda olan yeni strateji mənzərəsində öz mövqeyini daha da gücləndirəcəkdir.

Bu Qələbəni, Zəfəri bizlərə yaşadan Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, güclü ordumuz, rəşadətli əsgər və zabitlərimizdir. Qələbəmizin zirvəsi noyabrın 8-də Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi oldu. Yolsuzluq şəraitində, yüngül silahlarla günlərlə yorulmadan uzun məsafə qət etmək, keçilməz sayılan yolları keçərək Şuşanı azad etmək misli görünməmiş igidlik, qəhrəmanlıq nümunəsi kimi dəyərləndirilir. Böyük Zəfərin tariximizin qəhrəmanlıq səhifəsinə yazıldığını, qələbəmizin sonsuz qürur hissi doğurduğunu gördükcə fərəh hisslərini yaşayırıq.

Zəfər Günü parlaq qələbəmiz, şanlı tariximizin qızıl səhifəsini təşkil edir. Əbədi torpaqlarımızın azad edilməsi uğrunda canlarını qurban verən şəhidlərimiz yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının əbədi qəhrəmanlarıdır. Xalqımızın müzəffər qələbəsinin təməlində Ulu Öndər Heydər Əliyev strategiyası, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin güclü iradəsi, müstəqil və düşünülmüş siyasəti, dövlət-xalq-ordu birliyi dayanır. Azərbaycanda başlanan yeni quruculuq-bərpa mərhələsi geniş vüsət almışdır. İşğaldan azad edilmiş ərazilərimizin dirçəlişi istiqamətində nəhəng quruculuq və bərpa işləri aparılır: yaşayış məntəqələri müasir konsepsiyalar əsasında qurulur, modern beynəlxalq hava limanları inşa edilir, nəhəng infrastruktur yaradılır və yeni tərəfdaşlıq əlaqələri formalaşdırılır. Bütün bunlar ölkəmizin həm sosial-iqtisadi inkişafına, həm də regionda mövqelərinin möhkəmlənməsinə xidmət edir.

Biz Ümummilli Lider Heydər Əliyevin zəngin irsindən, xalqın dəstəyindən güc alan dövlətimizin başçısı cənab İlham Əliyevin ətrafında daha da sıx birləşərək mütəşəkkil siyasi qüvvə kimi Azərbaycanın çiçəklənməsinə yeni-yeni töhfələr verəcəyik. Əminik ki, xalqımız Qarabağ Zəfərindən sonra yaranmış yeni reallıqlar fonunda Yeni Azərbaycan Partiyasının Sədri, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə parlaq gələcəyə doğru daha inamla irəliləyəcək.

*Mürsəl ƏLİYEV,*
*Müdafiə Sənayesi Nazirliyinin Elmi-Tədqiqat İnstitutunun direktoru, YAP Xətai Rayon Təşkilatının ərazi partiya təşkilatının sədri, texnika elmləri doktoru, professor*

# İqtisadiyyatımız Qələbəyə dəstək verirdi

## *Əməkçi insanlar əməlləri ilə Prezidentin və ordunun yanında idilər*

**Xalq öz Prezidenti ətrafında sıx birləşmiş, bir yumruğa dönmüşdü. Hamı qəlbən döyüşən, düşmənə ağır zərbələr endirən oğulların yanında idi. Qələbələrin sevincini də birlikdə yaşayırdıq, şəhadətə qovuşan igidlərimizin itkisini də...**

O günlərdə Azərbaycan daha bir düşmənlə - koronavirusla mübarizə aparırdı. Bununla belə, hamı çox yaxşı dərk edirdi ki, döyüşən ordumuzun gücü həm də ölkənin iqtisadi qüdrətindən asılıdır. İş yerlərində karantin qaydaları gözlənilməklə əmək ahəngi davam edirdi. Buna görə də o çətin günlərdə bir dəfə də olsun işığımız sönmədi, mavi yanacağımız kəsilmədi. Bir nəfər də çörək növbəsinə dayanmalı olmadı. (Hərçənd ki, bunlar müharibə gedən istənilən ölkədə baş verən hallardır). Bir sözlə, hər kəs öz işi ilə məşğul idi, hərə qələbə üçün əlindən gələni əsirgəmirdi.

Azərbaycanın qəhrəman neftçilər ordusu da əmək növbəsində idi. Neftçilərimiz yerin təkindəki və dənizin dibindəki sərvətləri üzə çıxarır, bununla zəngin ənənələrini davam etdirir, ölkənin iqtisadi qüdrətini artırır, xalqımıza, döyüşən ordumuza dəstək olurdular. SOCAR-ın (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) baş ofisində keçirilən onlayn müşavirədə onlar ölkənin Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə müraciət qəbul etdilər.

Müraciətdə bildirilirdi ki, neftçilər sırasından da könüllü olaraq ön cəbhəyə gedənlər var. Qalanları arxa cəbhədə Vətənin qüdrətini artırmaq uğrunda səylə çalışırlar. Bununla yanaşı, onlar da döyüşlərə qatılmaq şövqü ilə yaşayır, hər an intizarla əmr gözləyirlər: "Cənab Ali Baş Komandan, biz neftçilər Azərbaycanın ərazi bütövlüyünün bərpası, uzun illərdən bəri haqqı tapdanmış soydaşlarımızın öz doğma ocaqlarına qayıtması, Vətənimizin və xalqımızın əbədi azadlığı və xoşbəxtliyi naminə başladığınız bu haqq işinizə sona qədər sadiqik və əmrinizi gözləyirik. Bu gün hamımız şanlı Azərbaycan əsgəriyik. Vətənimizin işğaldan tamamilə azad olunacağı anı günbəgün, saatbasaat yaxınlaşdırmaq üçün hamımız əlimizdən gələni etməli, gecə-gündüz çalışaraq, Azərbaycanın haqq işinə - ədalətin təntənəsinə töhfəmizi verməliyik".

Neftçilər döyüşən ordunu, şəhid ailələrini və qaziləri unutmurdular.

SOCAR-da Silahlı Qüvvələrə yardım kampaniyası təşkil olunmuşdu.

Dövlət bu çətin məqamlarda da əhalinin qayğılarını diqqət mərkəzində saxlayırdı. "Azəriqaz" İstehsalat Birliyi müharibənin davam etdiyi dövrün tək bircə həftəsi ərzində 700-dən çox fərdi yaşayış evinə qaz çəkilişini yekunlaşdırmış, onları mavi yanacaqla təmin etmişdi. Birlik payız-qış mövsümünə hazırlıqla bağlı qazlaşma işləri aparılan yaşayış məntəqələrində fəaliyyətini bir qədər də sürətləndirmişdi.

Kəndlinin də əli işdən-gücdən soyumurdu. İnsanlar çalışır, işləyir, payızın bol nemətlərini toplayır, qışa tədarük edir, qurub-yaradırdılar. Hər gün ölkənin müxtəlif bölgələrindən onlarca xoş xəbər gəlirdi. Pambıqçılar yüksək məhsuldarlıq göstəriciləri əldə edirdilər. Əgər 2019-cu ildə sahələrdən ümumilikdə 295 min ton pambıq yığılmışdısa, 2020-ci ildə Zəfər gününədək bu qədər məhsul toplanmış, noyabrın ortasında isə məntəqələrə təhvil verilən "ağ qızıl"ın həcmi 300 min tonu ötüb keçmişdi.

Ümumilikdə isə həmin il pambıqçılıqda yüksək nəticə əldə olundu. 100 min hektar pambıq sahəsindən 335 min tondan çox məhsul toplandı və orta məhsuldarlıq əvvəlki illə müqayisədə 4 sentner artdı. Orta məhsuldarlıq 33,5 sentner təşkil etdi ki, bu da Azərbaycanın pambıqçılıq tarixində qeydə alınan ən yüksək göstəricilərdən biri idi.

2020-ci ildə üzüm bağlarından öncəki ildə olduğundan çox məhsul yığıldı. Ən yaxşı göstəricilərə Şəmkir, Cəlilabad, Tovuz rayonları nail oldu.

Xatırladaq ki, Vətən müharibəsi başlananda tarlalarda, bağ və bostanlarda məhsul yığımı davam edirdi. Bu məsul dövrdə heç bir gənginliyə baxmayaraq, Azərbaycan kəndlisi öz təmkinini göstərdi. Bitkiçilik məhsulları istehsalında artım dinamikası müşahidə olundu. Əvvəlki illə müqayisədə daha çox tərəvəz, meyvə və giləmeyvə, tütün, kartof, digər məhsullar istehsal edildi. Heyvandarlıq sahəsində də müsbət dinamika saxlanıldı.

Erməni faşizmi isə özünün bəd, insanlığa sığmayan cinayət əməllərindən əl çəkmirdi. Dinc əməklə məşğul olan əhaliyə rahatlıq vermirdi. Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, dinc əhaliyə qarşı dönə-dönə terror törədirdi. Təkcə cəbhəyə yaxın əraziləri deyil, oradan uzaq yaşayış məntəqələrini də raket atəşinə tuturdu. Bununla belə, düşmənin bombaladığı, dinc sakinlərin yaralandığı və həlak olduğu bölgələrdə də insanlar işdən-gücdən ayrılmırdılar. Dəfələrlə atəşlərə məruz qalan Tərtərdə də belə idi.

Tərtərlilər böyük zəhmət bahasına yetişdirdikləri pambığın yığımını davam etdirirdilər. Şiddətli döyüşlər məhsul yığımının sürətinə təsir göstərsə də, fermerlər nisbətən təhlükəsiz ərazilərdə məhsulu tez və itkisiz yığıb tədarük etməyə çalışırdılar. Qabaqcıl fermer Habil İbrahimov deyirdi ki, tarla da bir cəbhədir, ona görə də yüksək nəticələr qazanmağa çalışırıq.

Tərtərlilər heyvandarlıq məhsullarını da artırmağı qarşıya məqsəd qoymuşdular. Suqovuşanın işğaldan azad edilməsi böyük əhvali-ruhiyyə yaratmışdı. 30 ildir Tərtər çayının qabağını kəsən, on minlərlə hektar ərazini suya həsrət qoyan erməni vandalları cəzalarını almışdılar. İndi çat-çat olmuş torpaq sudan doyacaqdı…

Pespublikanın rayonlarında payızlıq əkinlərin bəyanı prosesi davam edirdi. Kənd Təsərrüfatı Nazirliyinin müasir texnoloji avadanlıqlarla təchiz edilmiş mikroavtobusları bölgələrdə vətəndaşlara səyyar xidmət göstərirdi. Növbəti aqrar səyyar xidmət Bərdə rayonunun Güloğlular və Şörəlli kəndlərində təşkil olunmuşdu. Baxmayaraq ki, o günlərdə bu bölgə də mənfur düşmənin hədəfində idi. Erməni vandalları dinc sakinlərə, döyüş getməyən bu yerlərə də qənim kəsilmişdilər.

Səyyar xidmətlər bölgələr üzrə qrafik əsasında təşkil olunurdu. Bərdədən əvvəl payızlıq əkinlərin bəyanı ilə əlaqədar Xaçmaz, Masallı, Kürdəmir rayonlarında müvafiq xidmətlər göstərilmişdi.

Cəbhəyanı bölgələrin sahibkarlarına dəstək davam edirdi. İqtisadiyyat Nazirliyi bildirirdi ki, həmin bölgələrdə yerləşən mülki obyektlərlə yanaşı, çoxsaylı sahibkarlıq obyektləri də düşmən zərbələrinə məruz qalıb. Orada qeydiyyatda olan bir sıra vergi ödəyicilərinin təsərrüfat subyektlərinə, əmlaklarına külli miqdarda zərər dəyib, onların sahibkarlıq fəaliyyəti tamamilə dayanıb və ya əhəmiyyətli dərəcədə maliyyə itkiləri ilə üzləşib. İşğal altındakı rayonlarda və cəbhəyanı ərazilərdə qeydiyyatda olan mikro və kiçik sahibkarlıq subyektlərinə baş vermiş hadisələr nəticəsində dəymiş maddi zərərin təsirinin azaldılması, sahibkarlıq fəaliyyətinin davamlılığının təmin edilməsi məqsədilə həmin subyektlərə münasibətdə Dövlət Vergi Xidməti tərəfindən "İnzibati icraat haqqında" qanunun müddəalarına uyğun olaraq müvafiq qərar qəbul edilib.

Bir sözlə, Qələbəyə inam hər yanda böyük ruh yüksəkliyi yaratmışdı.Və sevindirici, təqdirəlayiq hal idi ki, hələ müharibə sona çatmamış artıq bərpa-quruculuq işlərinə start vermişdik. Prezident İlham Əliyevin tapşırığı ilə Suqovuşan-Tərtər yolunun təmirinə başlanmışdı. Bu, qarşıdakı böyük Zəfərdən sonrakı geniş miqyas alacaq quruculuq işlərinin başlanğıcı idi!..

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# 9 Noyabr Dövlət Bayrağı Günüdür

## Zəfər yürüşünün bayraq zirvəsi

**Uludan ulu, cəng meydanlarının yaraşığı, Zəfər qürurlu bayrağım!**
**Mavin ənginliyi andırır, al rəngin qəlblərdə atəş yandırır, ölməyən ümidimizdir zümrüdün.**
**Sən göylərdə qartaltək süzəndə, coşqun sular kimi çalxalananda, dəli rüzgar olub əsəndə ay-ulduzun kainata meydan oxuyur.**
**Sən ey uca Azərbaycan bayrağı!..**
**Vətənimin ən hündür zirvələrində məğrur-məğrur dalğalandıqca, sabahlarımızı Qarabağın baş tacı Şuşadan salamladıqca qürurdan, fəxarətdən, xoşbəxtlikdən ürəyimiz dağa dönür...**

### Gün o böyük gün oldu

**Bu, İlahi ədalət idi ki, 2020-ci ilin 9 Noyabr - Dövlət Bayrağı Gününü Vətən qibləmiz Şuşanın azadlığının təsvirəgəlməz qürur hissi ilə qeyd etdik. Bu, haqqın nahaqqa qalib gəlməsinin təntənəsi idi. 27 sentyabr 2020-ci ildə çıxdığımız haqq savaşının məhz 9 noyabra təsadüf edən 44-cü günündə düşmənin belini birdəfəlik qırdıq.**
**Rəşadətli ordumuz həmin gün daha 72 yaşayış məntəqəsini işğalçılardan azad edərək xalqımızın Bayraq Gününə misilsiz töhfə verdi, bayram bayrama qarışdı. Çox keçmədən düşməni kapitulyasiya aktını imzalamağa məcbur etdi.**
**İgid oğullarımız xalqımızın 30 illik arzularını reallığa çevirdilər, müqəddəs bayrağımızı canları, qanları ilə azad etdikləri Vətən torpaqlarına sancdılar.**



**Vətən savaşının 44-cü günündə düşmənin belini qıran qəhrəman oğullarımız üçrəngli bayrağımızı Qarabağda əbədi dalğalandırdılar**

2018-ci il iyunun 26-da Prezident İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin 100 illiyi münasibətilə keçirilən təntənəli hərbi paraddakı nitqini bu fikirlərlə yekunlaşdırmışdı: "2016-cı ilin Aprel döyüşlərində, 2018-ci ilin Naxçıvan əməliyyatında işğalçılardan azad edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırıldı. Bunun çox böyük mənəvi əhəmiyyəti var. Həmin o bayraqlar bu gün bu paradda, Azadlıq meydanında nümayiş etdiriləcək. Bu bayraqlar hərbçilərimizi qabağa aparırdı. Bu bayraqlar döyüşdə olan bayraqlardır. Bu gün bu bayraqlar Azərbaycanın işğaldan azad edilmiş torpaqlarında dalğalanır və bu parad üçün buraya gətirilib. Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək".

Ali Baş Komandanın həmin nitqindən cəmi iki il yarım keçəndən sonra, 2020-ci il dekabrın 10-da Azadlıq meydanında baş tutan Zəfər paradında o böyük hadisəyə, Vətən andının yerinə yetməsinə şahidlik etdik. Silahlı Qüvvələrimizin şəxsi heyəti dövlət bayrağımız və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin zəfər bayrağı altında fəxrlə ötüb keçdi. Şanlı Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqları Azadlıq meydanında vüqarla dalğalandırıldı.

### Bayrağımın izi ilə

Azərbaycan bayrağının qədim tarixi var. Qurd başı, ağ, qara qoç, şir, günəş təsvir edilən qədim bayraqlarımız tarixdə şanlı qələbələr zamanı qürurla dalğalandırılıb. Tarixin müxtəlif dövrlərində Azərbaycan ərazisində mövcud olan Şirvanşahlar, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər kimi güclü dövlətlərimizin hər birinin müstəqillik rəmzi olan bayraqları olub. Eləcə də Qarabağ, Şəki, Bakı, İrəvan xanlıqlarının özlərinə məxsus bayraqları olub. Həmin bayraqların nümunələri bu gün də muzeylərdə qorunub saxlanır.

Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, hökumətin iclasında qəbul edilib və iclasın keçirildiyi Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının binası üzərində qaldırılıb. 1920-ci il aprelin 27-nə - Azərbaycan Xalq Cümhuriyyətinin süqutuna qədər dövlət statusuna malik olan bu bayraq sovet Rusiyasının qoşunlarının Azərbaycanı işğal etməsi nəticəsində 1920-ci il mayın 3-də Azərbaycan parlamentinin binası üzərindən endirilib.

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan həmin bayraq 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi təsdiq edilib. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Ali Məclisi bu bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması barədə Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırıb. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti həmin vəsatətə baxıb və bu bayrağın yenidən Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar qəbul edib.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı sərəncamla hər il noyabrın 9-u ölkədə Dövlət Bayrağı Günü kimi qeyd edilir.

2010-cu il sentyabrın 1-də Prezidentin iştirakı ilə Dövlət Bayrağı meydanının - Bakı şəhərinin Bayıl sahəsində yerləşən memorial abidə-istirahət parkının təntənəli açılışı olub. Meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb.

Azərbaycan bayrağı 2016-cı ildə işğaldan azad edilən Lələtəpə yüksəkliyinə sancılaraq çox tezliklə bütün işğal altında olan torpaqlarımızın da azad ediləcəyinin müjdəçisinə çevrilib.

### Ürəklərinin üstündə üçrəngli bayrağımızı daşıyan ərənlərimiz

Xalqımızın bayraq sevgisi həmişə böyük olub, bu gün də üçrəngli, ay-ulduzlu müqəddəs bayrağımız uğrunda canını qurban verməyə milyonlar hazırdır.

Bizim üçün bayraq sadəcə ölkəmizin rəsmi atributu yox, millətimizin qüruru, dövlətimizin gücü, vətənimizin azadlıq rəmzidir.

Buna görədir ki, düşmən tapdağı altında inləyən torpaqlarımızı azad etmək üçün 2020-ci ilin 27 sentyabrında haqq yürüşünə çıxan ərənlərimizin hər biri ürəyinin üstündə üçrəngli bayrağımızı daşıyırdı. Həmin bayrağı "azad yurdlarımızda dalğalandırmadan çıxdığımız bu yolda öldü var, döndü yox", - deyirdilər.

Azman oğullarımız irəli şığıyaraq mənfur düşməni məhv edir, Azərbaycan bayrağını əzəli yurd yerlərimizdə əbədi dalğalandırırdılar.

Vətən uğrunda gözlərini qırpmadan canlarından keçəndə Azərbaycan bayrağına bükülərək son mənzilə yola salınmağı özlərinə şərəf bilirdilər.

Bayrağa bükülü tabutları qəbul edən şəhid valideynləri də o anlarda gözyaşlarını ürəklərinə axıdıb, başlarını dik tutaraq "təki bayrağımız ucalarda dalğalansın, təki Vətən sağ olsun" deyirdilər.

### Torpaqlarımızın azadlığa qovuşması Müzəffər Komandana bayrağımızın möhtəşəm fonunda məruzə edilirdi

2020-ci il sentyabrın 27-dən noyabrın 9-dək olan 44 günün hər birində igid döyüşçülərimiz qarış-qarış işğaldan azad etdikləri yurdlarımızda bayrağımızı qürurla dalğalandırdılar. Cəsur oğullarımız Müzəffər Ali Baş Komandana torpaqlarımızın azadlığını üçrəngli bayrağımızın möhtəşəm fonunda fəxarətlə məruzə edirdilər.

Vətən müharibəsinin o 44 günündə Baş sərkərdəmizin ön cəbhədəki qələbə müjdələrini Azərbaycan xalqına çatdırması arxa cəbhədə bir başqa coşqu, ovqat, təntənə yaradırdı...

Bir andaca Azərbaycan başdan-başa bayraqlarımızla bəzəndi. Əlləri üçrəngli bayraqlı, ürəyi vətən sevdalı insanlar küçələrdə selə döndü, ölkəmizdə sevinc, şadlıq coşqusu yaşandı. Yurdumuzun dörd bir yanında Şəhidlər xiyabanlarına axışan insanlarımız bayraqlarla bəzənmiş məzarların başında qələbə gözyaşları tökdülər.

O anlarda ürəklərimiz tarixi yurdlarımızda qələbə əhvalı ilə dalğalanmağa başlayan bayraqlarımıza qoşularaq azad quş kimi sevinclə çırpınmağa, Qarabağın, Şuşanın səmalarında süzməyə başladı. Şərqilər səsləndirdi, Zəfər nəğmələri oxudu, "Qarabağ Azərbaycandır" haqq nidasını hayqırdı dünyaya...

Müzəffər Ali Baş Komandan İlham Əliyevin 10 dekabr 2020-ci ildə Azadlıq meydanında keçirilən təntənəli Zəfər paradında bəyan etdiyi kimi: "Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik".

### Şah zirvələrimizin bəzəyi

*Könüllərimizin sevgisi,*
*Vətənimizin azadlıq rəmzi...*
*Şah zirvələrimizə bəzək,*
*parlaq qələbəmizə yaraşıq...*
*Uca Azərbaycan bayrağım!..*
*Əbədiyyətə qədər var ol,*
*daim məğrur-məğrur dalğalan...*
*Dalğalan ki, uğrunda canını qurban verərək qanları ilə al rəngini boyayan şəhidlərimizin də ruhu şad olsun!..*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Milli simvol



**Mavi səmaların ucalığında dalğalandıqca ruhumuz pərvaz edir. Çünki bu mənzərə azadlığımızın, dövlətimizin müstəqilliyinin, suverenliyinin rəmzidir. Üçrəngli, ay-ulduzlu bayrağımız yüksəkliklərdə qərar tutsun, dalğalansın deyə neçə-neçə sınaqlardan keçib Azərbaycan, mücadilələr edib Vətən övladları.**

1918-ci il mayın 28-də müsəlman Şərqində ilk müstəqil, demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Azərbaycanda dövlətçilik ənənələrinin bərpası reallaşanda əhəmiyyətli məsələlərdən biri də əsas dövlət atributlarından, simvollarından birinin - bayrağın hazırlanması oldu. Bayraq haqqında Cümhuriyyət hökuməti ilk qərarı 1918-ci il iyunun 21-də verdi. Qərarda Azərbaycanın dövlət bayrağı qırmızı rəngdə, orta hissəsində ağ aypara və səkkizguşəli ulduz təsvirli qəbul edildi.

XX əsrin əvvəllərindəki milli istiqlal ideologiyamızın üç təməl prinsipi - "Türkçülük, müasirlik və islamçılıq" dövlət bayrağındakı üç rəngdə ifadə olundu. Bayrağın müəllifi görkəmli mütəfəkkir Əli bəy Hüseynzadə idi.

1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin başçısı Fətəli xan Xoyskinin hesabatı əsasında milli bayraq haqqında qərar qəbul olundu. Azərbaycanın üçrəngli, ay-ulduzlu dövlət bayrağı 1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin açılışı zamanı binanın üzərində dalğalanmağa başladı.

1919-cu ilin mayında Azərbaycan Xalq Cümhuriyyətinin birilliyinə həsr olunmuş "Bir yaş" adlı məqaləsində Üzeyir bəy Hacıbəyli dövlət bayrağımızdakı rənglər barədə yazırdı: "Mavi rəngi türklüyə, yaşıl rəngi islamlığa və al rəngi mədəniyyətə işarə olan bayrağımızın mənayi-mənəviyyəsi də budur".

Azərbaycan bayrağında əks olunan rənglərin mənasını Cəfər Cabbarlı "Azərbaycan bayrağına" şeirində obrazlı şəkildə belə ifadə edirdi:

*Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,*
*Bir türk oğlu olmalı!*
*Yaşıl boya islamlığın sarsılmayan imanı,*
*Ürəklərə dolmalı!*
*Şu al boya azadlığın, təcəddüdün fərmanı,*
*Mədəniyyət bulmalı.*
*Səkkiz uclu şu yulduz da səkkiz hərfli OD YURDU*
*Əsarətin gecəsindən firsət bulmuş quş kibi,*
*Səhərlərə uçmuşdur*
*Şu hilal da türk bilgisi, düzgün sevgi nişanı,*
*Yurdumuzu qucmuşdur!*

Üçrəngli, ay-ulduzlu bayrağımız 1920-ci ilin aprelində Azərbaycan Xalq Cümhuriyyətinin süqutunadək dövlət statusuna malik oldu. 1920-ci il aprelin 28-də bolşeviklər Azərbaycanda hakimiyyəti ələ keçirdi. Müstəqil ölkənin üçrəngli bayrağı endirildi. Bu sonsuz kədəri, qüssəni şairə Ümgülsüm Sadıqzadə belə ifadə etdi:

*Yazıq səni Bayrağım, endirdilər, öyləmi?*
*Səni yıxıb devirən o zəhərli ruzigar,*
*O haqq yeyən haqsızlar, vəhşilər, tanrısızlar*
*Yanar ocağımı da söndürdülər, öyləmi?*
*Bir röyamı oldu o, gördüklərim, həpisi?*
*Bağlandımı üzümə türk elinin qapısı?*

Sovet hakimiyyətinin ilk illərində Azərbaycan dövlət atributlarını sovet Rusiyasının atributlarına uyğunlaşdırmaq məcburiyyətində qaldı. Yetmiş il Azərbaycan dövlətinin müstəqilliyinin rəmzi olan üçrəngli, ay-ulduzlu bayrağımızı yenidən yüksəkliklərdə dalğalanan görmək arzusu vətənsevərlərimizin könlündə qubar bağladı. Aradan uzun illər ötsə də, bu bayraq Azərbaycanın müstəqilliyinin rəmzi kimi yaddan çıxmadı. 1980-cı illərin sonlarında meydan hərəkatında üçrəngli, ay-ulduzlu bayrağımız qaldırıldı. 1990-cı il noyabrın 17-də isə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olaraq təsdiq edildi. Amma bu da hamısı deyildi. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı. 1991-ci il fevral ayının 5-də həmin vəsatətə baxıldı və Azərbaycan Respublikasının Ali Soveti "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında" qanun qəbul edərək onu yenidən dövlət bayrağı elan etdi.

Dövlət bayrağımız haqqında Ümummilli Lider Heydər Əliyev deyib: "Biz öz himnimizi, bayrağımızı özümüz qədər sevməliyik. Çünki bu, bizim vətənimizə, millətimizə, dövlətimizə olan sədaqət, sevgi və məhəbbətin rəmzidir".

1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, həmçinin dövlət bayrağını bərpa etdi. 2004-cü il iyunun 8-də "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının qanunu ilə bu sahədə qanunvericilik bazası təkmilləşdirildi.

Dövlətimizin rəsmi simvollarından biri olan üçrəngli, ay-ulduzlu bayrağımız yenidən müstəqil ölkəmizin başı üzərinə qaldırıldı. Dalğalandıqca 1919-cu ildə Cəfər Cabbarlının "Sevdiyim (Azərbaycanın bayrağına)" adlı şeirində vəsf etdiyi kimi dünyaya azadlığımızı, müstəqilliyimizi bəyan etdi:

*Altun köksün hilal-yıldız, işıqları öpüncə,*
*Zirvəsindən Şah dağının gündoğuşu dinilür.*
*Rəhm Allahi gözəlliklər tanrısı tək pək incə,*
*Bir siyaqla könüllərə hey salamlar söylüyür.*
*O yerlərdə qardaşları, dostları var, pək sevir,*
*Yaşıl donlu, mavi gözlü, al yanaqlı sevdiyim.*

Dövlət bayrağının təsviri Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsi, o cümlədən "Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli Konstitusiya qanunu ilə tənzimlənir. Azərbaycan Respublikası Konstitusiyasının 75-ci maddəsinə əsasən, hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə - bayrağına, gerbinə və himninə hörmət etməlidir. Dövlət rəmzlərinə hörmətsizliyin nümayiş etdirilməsi qanunla müəyyən edilmiş məsuliyyətə səbəb olur.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı sərəncamla hər il noyabrın 9-u ölkədə Dövlət Bayrağı Günü kimi qeyd edilir. Dövlət başçısı bildirib: "Bayrağımız eşidilən səsimiz, duyulan nəfəsimizdir. Bizim bayrağımız qürur mənbəyimizdir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət bayrağı milli suverenliyin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəsinə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir".

İki il öncə Müzəffər Azərbaycan Ordusu Qarabağ və Şərqi Zəngəzuru Ermənistanın işğalından azad etdi. O günlər bütün Azərbaycan xalqını ən çox qürurlandıran anlardan biri də döyüşçülərimizin işğaldan azad etdikləri Vətən torpaqlarında dövlət bayrağımızı ucaltmaları və bu barədə Ali Baş Komandan İlham Əliyevə raport vermələrini əks etdirən videogörüntülər oldu.

Düşmənin 30 ilə yaxın davam edən işğalına İkinci Qarabağ müharibəsində son qoyuldu. Qəhrəman Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini darmadağın etdi. Düşməndən geri aldığımız ərazilərimizdə - Füzulidə, Qubadlıda, Cəbrayılda, Zəngilanda, Laçında, Şuşada, Ağdamda, Kəlbəcərdə... Azərbaycan bayrağı ucaldıldı. O işğaldan qurtulmuş əzəli torpaqlarımızda üçrəngli, ay-ulduzlu bayrağımız yenidən dalğalandıqca dünyaya dövlətimizin gücünü, qüdrətini, xalqımızın birliyini, yenilməzliyini bəyan edir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***







# "Dəmir yumruğ"un poladiradəli savaşçıları

Vətən müharibəsində qazanılan böyük qələbənin səbəbkarları olan qəhrəmanlarımıza dövlət tərəfindən daim diqqət və qayğı, hərtərəfli dəstək göstərilir. Bu istiqamətdə onların məşğulluğunun təmin edilməsi, şəhid ailələrinə ev, birdəfəlik yardımlar və avtomobillərin verilməsi bu qəbildəndir.

Müharibədən dərhal sonra yaralıların müalicə və reabilitasiyası məsələsi Birinci vitse-prezident Mehriban Əliyevanın diqqət mərkəzindədir. Bununla yanaşı, Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı şəhid olan hərbçilərin ailələrinin daim qayğısına qalır. Döyüşlərdə yaralanıb xaricdə müalicəyə ehtiyacı olan hərbçilərimiz Türkiyəyə göndərilib, onların müalicəsi üçün digər ölkələrdən mütəxəssislər dəvət olunub, həmçinin sağlamlıqlarını itirmiş bir qrup əsgər və zabit yüksək texnologiyalı protezlərlə təmin edilib. Hazırda da bu proses davam etməkdədir.

Vətən müharibəsindən keçən iki il qazilərin protezlərlə təminatının hansı səviyyədə olduğunu, işlərin necə getdiyini öyrənmək üçün Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinə baş çəkdik.

## Heç kimin köməyi olmadan sərbəst gəzən igidlər

Mərkəz əlilliyi olan şəxslərə protez-ortopedik bərpa xidməti göstərən istehsalat müəssisəsidir. Müasir texnologiya əsasında əlilliyi olan şəxslər üçün protez-ortopedik məhsulların və digər reabilitasiya məmulatlarının istehsalı, əlillərin xəstəliklərinin diaqnostikası və stasionar müalicəsi istiqamətində fəaliyyət göstərir. Müəssisə istehsalat sahəsindən və stasionar şöbədən ibarətdir.

Təməli möhkəm olan hər hansı bir iş daha dözümlü, uğurlu və faydalıdır. 44 günlük Vətən müharibəsi də göstərdi ki, möhkəm təməllər üzərində dayanan xalq və ordu istənilən zirvəni fəth edə bilər. Elə mərkəzin istehsalat birliyi ilə ilk tanışlığımda ağlımda bu fikirlər dolaşırdı. Hər halda qazilərə "qol-qanad" bəxş edən, kimisi üçün ayaq açıb yeriyən bu protezlərin də təməli burada qoyulur. Mərkəz protezlərin hazırlanması ilə yanaşı, qazilərin təkrar müayinəsi və protezlərin dəyişdirilməsi xidmətini də göstərir.

Giriş qapısının yaxınlığındakı otaqda həkimlərin əlillərə protez taxmağa hazırlaşdığını müşahidə etdik. Öyrəndik ki, müayinə otağında olan iki pasiyent Vətən müharibəsi iştirakçısıdır. Həm prosesi izləmək, həm də ilk olaraq onlarla həmsöhbət olmaq üçün otağa daxil olduq.

Yüksək texnologiyalı protezlə təmin olunan mayor Vurğun Əbilov protezin yoxlanışı üçün mərkəzə gəlmişdi. 17 ildir hərbi sahədə çalışan zabit sağ ayağının dizdən aşağı hissəsini itirsə də, protezlə təminatı sayəsində sevdiyi sahədən belə ayrı düşməyib.

Hərbi xidmət dövrünü əsasən ön xətdə çəkən mayor deyir ki, Füzuli rayonunda leytenant, baş leytenant rütbələrində xidmət edib. Taqım və bölük komandiri, taborun qərargah rəisi vəzifələrində çalışıb. 44 günlük Vətən müharibəsində Horadiz uğrunda gedən döyüşlərdə düşmənin atdığı minaatan nəticəsində qəlpə yaraları alıb, amma döyüşü davam etdirib.

## Cəmi 6 ayda protezə uyğunlaşan qazi avtomobili də rahat idarə edir

Daha sonra xidmətini 2021-ci ilin fevral ayından Dövlət Sərhəd Xidmətində davam etdirməyə başlayıb. Zəngilanın Vejnəli, Ağbənd kəndlərində xidmət keçən mayor 2022-ci ilin aprel ayında Vejnəli kəndində döyüş tapşırığını yerinə yetirərkən minaya düşüb.

45 gün Dövlət Sərhəd Xidmətinin Hospitalında müalicə aldıqdan sonra əlillik qrupu təyin olunan hərbçi bu mərkəzə müraciət edib: "On gün müayinələrdən sonra protezlə təmin olundum. Hazırda normal hərəkət edirəm, heç bir problem yoxdur. Uyğunlaşmaq üçün məzuniyyətdəyəm, yenidən xidmətimə qayıdacam. Protez fəaliyyətimə mane olmur. Həkimlər daim nəzarətdə saxlayır, lazım olduqda müayinədən keçirirlər".

Vurğunun dik duruşu, məğrurluğu, cəmi 6 ayda protezə uyğunlaşması, xidmətinə tez qayıtmaq istəyi açıq aydın sezilirdi. Fiziki fəaliyyəti yüksək səviyyədə bərpa olunan cəsur hərbçi hətta avtomobili də rahatlıqla idarə edir. Bu, qazimizin şəxsi əzmi və iradəsinin, fiziki gücünün göstəricisi olmaqla bərabər, həm də Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinin qazilərimizə göstərdiyi yüksək xidmətin nümunəsidir. Vurğun düşünür ki, adaptasiya mərhələsi insanın özündən asılıdır və istədiyi halda daha tez ayağa qalxa bilir.

## "Protez normal fəaliyyətimə imkan verir"

Digər hərbçimizin ayağına isə əməliyyatından 4 ay keçdikdən sonra yeni protez salınırdı. 8 ilə yaxın hərbi sahədə çalışan Məhəmməd Yusifzadə əsasən Tərtər, Ağdam istiqamətində xidmət edib.

44 günlük müharibədə bölüyün həkimi, tibb işçisi olaraq Talış kəndində yaralıları ərazidən çıxararkən minaya düşərək sol ayağını itirib. Daha sonra Naftalanda əməliyyat olunub Bakıya Hərbi Hospitala göndərilib. Bir neçə dəfə əməliyyat olunduğunu deyən hərbi həkim bildirir ki, bu, Məhəmmədin ayağına taxılacaq ikinci protezdir: "İlk protezdən sonra ayağımda problem olduğu üçün əməliyyata ehtiyac yarandı. İndi yenisi ilə təmin olunacam. Protezə uyğunlaşmam 3-4 gün çəkir. İlk protezdə çətin olsa da, tez uyğunlaşdım. Protez normal fəaliyyətimə imkan verir".

Daha sonra qazimizin ayağına protez salınması prosesini izlədik. Məhəmməd hazırda mərkəzin stasionar şöbəsində müalicə alır.

## Müasir protezlər itirilən orqanların funksiyasını 70-90 faiz təmin edir

Sonra mərkəzin ikinci mərtəbəsində fəaliyyət göstərən protezlərin hazırlandığı sexə baş çəkib buradakı avadanlıqlarla tanış olduq. İndiyədək görülən işlər barəsində məlumat verən Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinin direktoru Asif Məcidov dedi ki, hazırda mərkəzdə yüksək texnologiyalı protezlər dünyada məşhur protez istehsalçılarından olan Almaniyanın "OTTO BOKK" və İslandiyanın "ÖSSUR" firmasının komplektləşdiriciləri əsasında hazırlanır.

Hazırlanan hər bir protez fərdi olduğu üçün istifadəçinin çəkisi, ölçüsü, aktivlik dərəcəsinə və bədən quruluşuna görə müəyyənləşdirilir. Son nəsil protezlər amputasiyanın səviyyəsindən asılı olaraq itirilən orqanların funksiyasını 70-90 faiz aralığında təmin edir.







Asif Məcidov qeyd etdi ki, Vətən müharibəsi və ondan sonrakı dövrdə yaralanaraq ətrafları amputasiya olunmuş 214 nəfərin 223-nün protezə ehtiyacı olduğu müəyyənləşdirilib. Həmin şəxslərdən 199 nəfəri 208 ədəd protezlə təmin olunub. Onlardan 34 nəfərində yuxarı ətraf, 181 nəfərində isə aşağı ətraf protezləridir.

Protezlərin sayları arasında fərq bir şəxsin bir neçə protezə ehtiyacı ilə əlaqədardır. Vətən müharibəsindən sonrakı dövrdə mina partlayışı nəticəsində xəsarət almış, həmçinin sentyabr döyüşlərində yaralanmış, ümumilikdə 15 nəfərin protezləşdirilməsi istiqamətində isə işlər gedir. İlin sonuna kimi onların protezlə təminatı başa çatdırılacaq.

Direktor dedi ki, onların güdülləri (amputasiya edilmiş, travmatik qopan hissə) formalaşmadığından proses ilin sonuna kimi çəkir, çünki amputasiyadan sonra protezin salınmasına qədər 2 aydan 6 aya kimi vaxt tələb olunur. Bu, gənclərdə daha az çəkir.

Asif Məcidov Birinci Qarabağ müharibəsində yaralanaraq ətrafları amputasiya olunmuş şəxslərin müasir protezlərlə təminatı barədə də məlumat verdi. Onun sözlərinə görə, müharibə iştirakçısı olmuş bu cür yaralıların 168 nəfəri 174 protezlə təmin olunub.

## Protezlərin hazırlanma prosesi və istifadə müddəti...

Protezlər xaricdən gətirilən komplektləşdiricilər ilə mərkəzin mütəxəssisləri tərəfindən hazırlanır. Hər hansı müasir protezlərin hazırlanmasında ilkin olaraq istehsalçı xarici şirkətin nümayəndələri tərəfindən azərbaycanlı mütəxəssislərə təlimlər keçirilir, onlara prosedur qaydaları izah olunur. Onlar sertifikat aldıqdan sonra isə həmin protezlərin hazırlanması işinə icazə verilir. Protezlərin istifadə müddəti hazırlanmasında istifadə edilən komplektləşdiricilərdən asılı olaraq 2 -5 il arasında dəyişir.

Sexdə olduğumuz zaman gənc mütəxəssislərin məşğul olduqları prosesi izlədik. Onlar işlərindən ayrılmayaraq verdiyimiz sualı ümumi cavablandırdılar. Bildirdilər ki, ölçülər müəyyən olunduqdan, sifariş götürüldükdən sonra bir protezin hazırlanması bir həftəyə qədər çəkir. Hər protezin üzərində isə bir mütəxəssis çalışır.

İş prosesinə mane olmamaq üçün suallarımızı yenidən mərkəzin direktoruna ünvanladıq. Bəlli oldu ki, yüksək texnologiyalı protezlər aktivlik dərəcəsinə görə fərqlənir. Yuxarı ətraf protezləri aşağı ətraf protezlərindən daha mürəkkəb və funksionallıq tələb edən vasitədir. Ona görə də həmin protezlərin hazırlanması daha çox vaxt tələb edir. Eyni zamanda yuxarı ətraf protezlərində elektron dirsək mexanizmi olur ki, bu da tam yüksək texnologiya sayılır. Yuxarı ətraf protezlə təminat zamanı istifadəçilərə "iPod" verilir. Onlar bunun vasitəsilə müəyyən funksiyalarda yenilənmə edə, əzələ impulslarını hərəkətə gətirə bilirlər. Digərləri isə aktiv müasir protezlərdir.

Asif Məcidov dedi ki, protezin yüksək texnologiyalı olması elektron demək deyil: "Aşağı ətrafların protezlərində elektron hissə olmasa belə onlar yüksək texnologiyalı sayılır. Protezdəki nasos vasitəsilə güdüldəki hava xaric edilir və onun ayaqda qalmasını təmin edir".

Protezlə təminatdan sonra qazilərin daim nəzarətdə saxlanıldığını deyən direktor bildirir ki, ilkin protezləşmədən sonra güdüldə müəyyən dəyişikliklər baş verdiyi üçün korreksiyaya ehtiyac yaranır.

## "Protez taxan kimi ayağa qalxan iki qazidən biri mən oldum"

İstehsal sexi ilə tanışlıqdan sonra Bakı Reabilitasiya Mərkəzinə, stasionarda qalan qazilərə baş çəkdik. Öyrəndik ki, postmüharibə dövründə mərkəz tərəfindən 1630 müharibə əlilinə 25 mindən çox reabilitasiya vasitəsi verilib. Burada qazilər reabilitasiyaya cəlb olunur, eyni zamanda onlar protezlə təmin olunduqdan sonra uyğunlaşma üçün bir müddət mərkəzdə qalırlar.

Adaptasiya müddəti pasiyentin fiziki durumundan və güdülün formalaşmasından asılı olaraq dəyişir. İki ayağı amputasiya olunanlarda bu prosesin daha uzun çəkdiyi qeyd edilir. Amma elə qazilər var ki, əsadan belə istifadə etmədən protez taxılan kimi ayağa qalxaraq yeriyə bilirlər.

Onlardan biri də Vətən müharibəsi iştirakçısı Kənan Musayevdir. O, sentyabrın 27-dən Talışkənd, Ağdərə, Suqovuşan istiqamətlərində döyüşlərdə iştirak edib. Ayın 29-da hərbçi yoldaşını ərazidən təxliyə etmək istəyərkən minaya düşərək sol ayağını dizdən aşağı itirib. Kənan deyir ki, hərbidən tərxis olunandan, ona əlillik qrupu müəyyənləşdikdən sonra mərkəzə gəlib. Artıq iki ildir ki, protezlə təmin olunan qazimiz heç bir problemi olmadığını bildirir: "Mərkəzdə 25 günlük müalicə müddətindən sonra protezlə təmin olundum. Bir neçə gün uyğunlaşma müddəti təyin olunsa da, protez taxılan kimi ayağa qalxan iki qazidən biri idim". Adaptasiyaya belə ehtiyacı olmayan döyüşçümüz hər üç aydan bir mərkəzə gələrək 15 gün müddətinə reabilitasiyaya cəlb olunur. Müalicənin sonunda protezinin dəyişdiriləcəyini deyən qazi qeyd edir ki, hər hansı problem yarananda əlaqə saxlayıb dərhal müayinəyə gəlirlər. Mərkəzdə qazilərə bütün xidmətlər dövlət hesabına həyata keçirilir.

Məlumat üçün qeyd edək ki, protezlə təmin olunan hər bir qaziyə istifadə qaydaları barədə təlimat verilir. Onlar daim nəzarətdə saxlanılır, vaxt təyin olunaraq müayinəyə çağırılırlar.

2020-ci ilin dekabrından etibarən müharibə əlillərinin son nəsil protezlərlə təminatı, iki ilə yaxın müddətdə bu istiqamətdə görülən bütün işlər Vətən müharibəsindən sonra qazilərimizlə bağlı həyata keçirilən genişmiqyaslı dəstək tədbirləridir. Şəhid ailələrinə, qazilərə göstərilən diqqət və qayğı ölkədə həyata keçirilən sosial siyasətin prioritet istiqamətini təşkil edir. Müharibə əlillərinin və şəhid ailələrinin sosial şəraitinin yaxşılaşdırılması, onlara fərdi evlərin, mənzillərin verilməsi üçün mühüm addımlar atılır. Eyni zamanda qazilərin sağlamlığının qorunması, onların müasir protezlərlə təminatı, reabilitasiya kursu keçmələri işləri davam edir. Əlbəttə ki, bizə zəfəri bəxş edən, 30 illik erməni işğalına son qoyan, yurdlarından didərgin düşmüş vətən həsrətlilərini vüsala çatdıran qəhrəmanlarımızın sağlamlıqlarının bərpası və cəmiyyətə inteqrasiyası hər şeydən öndə gəlir.

***Əsmər QARDAŞXANOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***







# Şəhid ailələrindən minnətdarlıq: "Prezident İlham Əliyev ən böyük qayğıkeşimiz, ən doğma himayədarımızdır"

Şəhidlərin özü kimi, elə ailələri də sanki bir-birilərinə bənzəyirlər. Necə ki, onlardan şəhid oğlunu, ərini, atasını xəbər tutursan, səsləri qürurlu və məğrur çıxır! Şəhid həsrəti onların çöhrələrinin qırışına, əllərinin qabarına çevrilsə də, qamətlərini bükməyə imkan verməyib.

Şəhidlərin adı bəs edir ki, qamətlər şux dayansın. Vətən müharibəsi şəhidi Xudayar Yusifzadənin zümzümə etdiyi, xalqın əzbərinə çevrilən mahnıda da deyilir axı: "Şair, sorma Vətən nədən yaxşıdır, adı gəlcək könlüm xəndana döndü". İndi aydın olur ki, Vətənə dönən oğulların adı gəlcək, xalqımız nəyə görə alnıaçıq-üzüağ dayanır, qamətimiz niyə şuxlaşır.

## Şəhid ailələri və qazilər ən böyük diqqətə layiqdirlər

Bəli, şəhid ailələrinin həsrəti, şux qamətləri və səsləri kimi, onların evlərinə gedən yollar da, ocaqlarının istisi də eynidir. Şəhidlərin izi ilə yola düşüb çatdığımız Ramana qəsəbəsində yerləşən, ötən ilin fevralında şəhid ailələri və müharibə əlillərinə təqdim edilən mənzillərdə bütün bunların bir daha şahidi olduq. Sən demə, qəsəbənin həmin hissəsində Vətən qoxusu daha kəskin hiss edilir. Vətən müharibəsinin başa çatmasından cəmi iki il keçməsinə baxmayaraq, bir qrup şəhid ailəsi mənzil və ya fərdi evlərlə təmin edilib, onların isti nəfəsi quru divarlara həyat verib.



Prezident İlham Əliyev də ötən ilin fevralın 25-də Bakının Ramana qəsəbəsindəki həmin yaşayış kompleksində şəhid ailələri və müharibə əlillərinə mənzillərin təqdim olunması mərasimində iştirak edib. Prezident çıxışı zamanı bildirib ki, dövlət şəhid ailələri, müharibə əlilləri üçün əlindən gələni edir: "Bildirmək istəyirəm ki, Azərbaycan bu sahədə də dünya miqyasında ən qabaqcıl yerlərdədir. Dünyada müharibələr çox olub, itkilər çox olub. O qədər də uzaq olmayan tarixə nəzər salsaq, görərik ki, müxtəlif ölkələrdə müharibələrdə həlak olmuş insanların yaxınlarına heç vaxt bizdəki qədər qayğı, diqqət göstərilməyib".

Ali Baş Komandanın "Qəhrəman Azərbaycan əsgəri öz gücünü bütün dünyaya göstərəcək" sitatını təsdiqləyən bütün Vətən müharibəsi iştirakçıları, şəhidlərimizin ailələri və qazilərimiz ən böyük diqqətə və qayğıya layiqdirlər.

Azərbaycanın ərazi bütövlüyü uğrunda silaha sarılan, öz canı-qanı bahasına Vətən torpaqlarını işğaldan azad edən şəhidlərin ailələrinə, həmçinin müharibə ilə əlaqədar əlilliyi olan vətəndaşlara dövlət tərəfindən daim diqqət və qayğı göstərilir. Bunun nəticəsidir ki, şəhid ailələrinə və müharibə əlillərinə indiyədək təxminən 13 min, postmüharibə dövründə isə 4 min mənzil və fərdi ev təqdim edilib. 2020-ci ilin sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi şəhidlərinin ailələrinin mənzillə təminatına 2021-ci ilin əvvəlindən başlanılıb. Cari ildə bu kateqoriyaya aid olan vətəndaşlara ümumilikdə 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub.

Ümumiyyətlə, dövlət başçısının 2021-ci ilin yanvarında imzaladığı sərəncamla təsdiq olunmuş proqramlara əsasən, 2021-2025-ci illərdə ev şəraitinin yaxşılaşdırılmasına ehtiyacı olan 11 mindən çox şəhid ailəsi və müharibə əlilinin mənzil və ya fərdi evlə təmin edilməsi planlaşdırılıb.

## Mübariz İbrahimovun döyüş yolunu tamamlayanlar

Həmin qəsəbədə mənzillə təmin edilmiş ailələrdən biri də şəhid Elvin Məlikovun ailəsidir. Elvin özündən geridə anasını, iki bacısını qoyub. 2001-ci ildə Bakıda anadan olan Elvin orta təhsilini Xətai rayonu 24 saylı tam orta məktəbdə alıb.

Elvinin ailəsi artıq bir aydan çoxdur ki, Ramanadakı mənzildə yaşayır. Anası İlhamə Məlikova dövlət qayğısından razılığını ifadə edir, Prezidentə təşəkkürünü bildirir. Məğrur dayanmağa çalışır. Deyir ki, oğlu müharibə dövründə onunla telefonda danışarkən deyib ki, "ana, mənə söz ver, nə olursa-olsun, hər zaman güclü olacaqsan". İlhamə xanım da indi oğluna verdiyi sözünü tutmağa, qızlarına həm ata-ana, həm də qardaş olmağa çalışır. Anasının dediyinə görə, Elvin ta uşaqlıqdan bəri çox mərd və qoçaq olub. Milli Qəhrəmanımız Mübariz İbrahimovun qeyrətinə, onun təkbaşına o qədər ermənini öldürməsinə heyrətini heç vaxt gizlətməyib.

"Həmişə Qarabağdan odlu-alovlu danışırdı, deyirdi ki, şəhidlərimizin qanını yerdə qoymayacağıq. Xocalı faciəsi ilə bağlı nəsə oxusa, izləsə, dəhşətə gəlirdi. Döyüş yoldaşları danışırlar ki, heç nədən qorxmur, döyüşdə irəli atılırdı, düşməndən qisas almaq onun sanki başlıca amalına çevrilmişdi. Elə bil ona hər şey agah imiş: hələ 2018-ci ildə atası rəhmətə gedəndən sonra mənim ağladığımı görüb narahat olurdu. Deyirdi, ağlama, mən şəhid olsam, ağlayarsan. Dediyi kimi də oldu... Əllərini göstərirdi ki, bax, ay ana, atamın əllərinə necə oxşayır, mən elə qapını da atam kimi döyürəm...", - deyə şəhid anası bildirib.

Elvin Məlikov oktyabrın 3-də Füzuli uğrunda gedən döyüşlərdə snayper gülləsinə tuş gələrək şəhadətə ucalıb. Prezident İlham Əliyev demişdi ki, Füzulidə düşmənin qurduğu istehkamları dağıtmaq üçün, doğrudan da, həm peşəkarlıq, həm də milli ruha böyük ehtiyac var idi. Elvin də Prezidentin sözləri ilə desək "dərsliklərə salınası" Füzuli döyüşlərində öz şücaəti və döyüş ruhu ilə Zəfərə imza atanlardan, alnımızı açıq edən oğullardan olub. O, döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdiyi igidliyə görə, ölümündən sonra "Füzulinin azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib.




## "Vətəni mən qorumasam, bəs kim qoruyacaq?!"

Abbas Əliyev də İkinci Qarabağ savaşında Vətən uğrunda könüllü olaraq döyüşlərə qatılan igidlərimizdəndir. O, 1988-ci ildə Bakıda anadan olub, Ramana qəsəbəsində yerləşən 90 saylı orta məktəbdə təhsil alıb. Hələ iyul hadisələrində Milli Qəhrəman, general Polad Həşimov şəhid olduqdan sonra hərbi səfərbərliyə gedərək könüllü kimi adını siyahıya yazdırıb. Vətən müharibəsində Cəbrayıl, Füzuli və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə savaşıb, noyabrın 2-də elə Xocavənddə şəhid olub.

Dövlət digər şəhid ailələri kimi, Abbasın da ailəsini diqqətdən kənarda saxlamayıb. Sosial vəziyyətlərinin yaxşılaşdırılması üçün onlara ötən il Ramanada mənzil təqdim edilib.

Abbasın anası Təranə Əliyeva deyir ki, ailəsi onun orduya könüllü yazılmasından xəbərsiz olub: "Bu barədə səfərbərikdən çağırış gələndə xəbər tutdum. Dedi, gedirəm döyüşməyə, Vətən torpaqlarını işğaldan azad etməyə... Ürəyim çox narahat idi. Vətən üçün böyütdüyüm oğulu sanki elə özüm şəhidlik məqamına yola saldım. Deyirdi, ana, gərək biz güclü olaq, Vətəni mən qorumasam, kim qoruyacaq?!"

Onun ailəsi - həyat yoldaşı Əfsanə xanım və 11 yaşlı oğlu İsmayıl indi Təranə xanıma oğlundan qalan yeganə yadigarlardır. Nənəsi deyir ki, İsmayıl atasına çox oxşayır, tez-tez onu soruşur.

"Arada düşünürəm ki, o, şəhidliyi ilə oğluna ən böyük dərsi verib, ona ömürlük örnək olub. İndi bizim başımız hər zaman uca, alnımız açıq, gözümüz toxdur. Dövlətin də qayğısını hər zaman üzərimizdə hiss edir, Prezident İlham Əliyevə və əziyyəti keçən hər kəsə minnətdarlığımızı bildiririk. Ötən il ailəmizə təqdim edilmiş mənzil də sanki oğlum Abbasın bizə ölümündən sonrakı hədiyyəsi idi. Gərək şəhidlərimizin qanı bahasına alınmış torpaqlarımızı, elə onların əmanətlərinin sosial vəziyyətinin yaxşılaşdırılması üçün təqdim edilmiş həmin mənzilləri də göz bəbəyimiz kimi qoruyub saxlayaq", - deyə şəhid anası bildirib.

Hələ uşaqlıqdan yatanda belə yanından ayırmadığı oyuncaq avtomatı ilə ermənilərdən qisas almağın xəyalını quran Abbas nə bilərdi ki, gün gələcək torpaqlarımızı azad etmək üçün, həqiqətən, silaha sarılıb döyüş meydanına atılacaq.

Abbas Əliyev torpaqlarımızın işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarını yerinə yetirərkən şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə, ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

## "Müsəlləh əsgərəm mən də bu gündən"

Vətən müharibəsində torpaqlarımızın azadlığı uğrunda silaha sarılan igidimiz Dostəli



Məmmədovun ailəsinə də Ramana qəsəbəsindəki binaların birində mənzil verilib. Hələ müharibəyə yollanmazdan əvvəl mənzil alıb, işlərini qaydasına saldıqdan sonra ailə qurmağı planlaşdıran Dostəliyə evlilik nəsib olmayıb. Anası deyir ki, Ataş ailənin yeganə övladı olub. Babasının adını daşıdığına görə onu adı ilə yox, elə daha çox "Ataş" deyə çağırıblar. Məktəbi bitirdikdən dərhal sonra işləməyə, ailəsinə kömək etməyə başlayıb. Anası Əzimə Məmmədovanın dediyinə görə, o, ailədə, məhəllədə, məktəbdə çoxunun sevimlisi olub. Hələ müharibə ərəfəsində onunla əlaqə saxlayanda deyirdi, narahat olmayın, hər şey yaxşıdır.

"Özü döyüş meydanının ortasında düşmənlə mübarizə aparırdı, bizi isə narahat olmağa qoymurdu. Atası ürək xəstəsi olduğu üçün ona deyirdi ki, hər şey yaxşıdır. Ataşın döyüş yoldaşları, komandirləri indi də bizimlə əlaqə saxlayır, oğlumun qəhrəmanlığından, qorxmazlığından danışırlar. Oğlum Bakıda doğulub, elə burada boya-başa çatıb. Düşünürəm ki, Allah mənə Ataşı elə Vətən üçün böyüdüb, Vətən üçün də şəhid vermək üçün bəxs edibmiş".

Şəhidin atası Seymur Məmmədov oğlunun uşaqlığından söz açır. Sən demə, elə bütün Azərbaycan oğulları kimi, Dostəli də Vətən üçün döyüşməyin xəyalını ta uşaqlıqdan bəri qururmuş. Vətən torpaqlarını azad görmək istəyən Ataş tez-tez bu mövzularda söhbətlər açar, 2016-cı ildə hərbi xidmətdə olduğu günlərdən danışarmış.

O, anasına görüb bəyəndiyi, sevdiyi qızın olduğunu desə də, hələ işlərindən razı qalmadığı üçün onun barəsində ətraflı danışmayıb, anasına kim olduğunu deməyib. Şəhid anası oğlu ilə bağlı tez-tez xəyallar qurur. Deyir ki, kaş oğlumun mənə yadigarı qalardı, onlar bu ocağı öz nəfəsləri ilə isidib, bizə də ümid olardılar: "Amma deyəcək başqa söz yoxdur. Biz elə oğullar böyütməmişik ki, düşməndə bir qarış torpaq buraxsınlar. Allah bütün şəhidlərimizə rəhmət, qazilərimizə şəfa versin. Dövlətimizin qayğısı üstümüzdən əskik olmasın. Vətən sağ olsun. Şükürlər olsun ki, biz indi azad Azərbaycanımızın azad xalqıyıq!"

Əzimə xanım deyir ki, bir ildən çoxdur ki, dövlətin təqdim etdiyi mənzildə yaşayırlar. Onlar Dostəlinin ailəsinə baş çəkmək üçün gələn dostlarını, döyüş yoldaşları və komandirlərini bu evdə qarşılayır, onun ruhunu şad etməyə çalışırlar. Valideynləri bildirirlər ki, Azərbaycanın işğaldan azad edilmiş torpaqlarının dirçəlməsi, dövlətin şəhid ailələri və qazilərə göstərdiyi diqqət və qayğı, şəhidlərin daim yad edilməsi onlar üçün yeganə təsəllidir.

Dostəli Məmmədov Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması uğrunda Hadrut qəsəbəsində və Füzulidə gedən döyüşlərdə savaşıb. O, Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

## Örnək ölkə, nümunəvi siyasət

Ötən 30 ildə olduğu kimi, İkinci Qarabağ müharibəsindən sonra da torpaqlarımızın azadlığı, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması uğrunda sinəsini düşmənə sipər edən, canını Vətənə fəda deyən şəhidlərimizin ailələrinə və müharibə iştirakçılarına daim diqqət və qayğı göstərilir. Prezident İlham Əliyevin göstərişlərinə əsasən, həmin kateqoriyaya aid vətəndaşların sosial vəziyyətinin yaxşılaşdırılması, onların problemlərinin həll edilməsi istiqamətində daim müvafiq tədbirlər həyata keçirilir. Şəhid ailələri və qazilər ən böyük diqqətə layiq olduqları üçün dövlətimiz də onların ən böyük himayəçisidir.

Birmənalı şəkildə demək olar ki, bu gün Azərbaycan dövləti şəhid ailələrinin və müharibə əlillərinin bütün problemlərinin həllinə həssas yanaşır, öz dəstəyini əsirgəmir və bunun üçün bütün gücünü səfərbər edir. Görüşdüyümüz şəhid ailələri də onlara göstərilən maddi və mənəvi dəstəyə görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə edir, dövlət başçısının onların ən böyük qayğıkeşi, ən doğma himayədarı olduğunu bildirirlər. Qeyd edirlər ki, dövlət başçısı və birinci xanım onlara hər zaman qayğı ilə yanaşırlar. Bu, bir daha təsdiq edir ki, Azərbaycan dövləti şəhid ailələrinə göstərilən diqqətə görə müharibə aparmış digər ölkələr arasında ön sırada dayanır.



***Nəzrin QARDAŞXANOVA, İlham BABAYEV (foto), "Azərbaycan"***

# Haqqın, ədalətin qələbəsi

**Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Vətən müharibəsində qazanılmış tarixi Zəfər haqqın, ədalətin qələbəsidir. Azərbaycanı bu böyük qələbəyə aparan təməllərin, habelə xalqın siyasi-psixoloji hazırlığının əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu strateji xətt Ulu Öndərin layiqli varisi Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilmişdir.**

Hələ 10 il öncə - 2012-ci ildə dövlət başçısı öz çıxışlarında keçmiş münaqişə ilə bağlı olaraq bildirmişdir: "Azərbaycanın mövqeyi tarixi ədalətə və beynəlxalq hüquq normalarına əsaslanır". Tarixi ədalət isə ondan ibarətdir ki, Ermənistan tərəfindən işğal edilmiş ərazilər Azərbaycanın əzəli dədə-baba torpaqları olmuş, xalqımız əsrlərboyu bu ərazilərdə yaşamışdır. Ötən əsrin əvvəllərində ermənilər bolşeviklərin dəstəyi ilə Azərbaycan torpaqlarını hissə-hissə zəbt etmişlər. 1980-1990-cı illərdə SSRİ-nin çöküşü başlayanda ermənilər daha da fəallaşaraq Qərbi Azərbaycandan azərbaycanlıyam deyəni son nəfərinədək qovmuş, ölkəmizin, Qarabağ da daxil olmaqla, 20 faiz ərazisini işğal edərək 1 milyona yaxın əhalini qaçqın və köçkün vəziyyətinə salmışlar. Bu illər ərzində sülhə və müxtəlif yönlü razılaşmalara yaxın durmayan, beynəlxalq təşkilatların qərar və qətnamələrinə məhəl qoymayan Ermənistan 30 ilə yaxın torpaqlarımızı işğal altında saxlamış, şəhər və kəndlərimizi yerləyeksan etmişdir...

Bu haqsızlığa son qoymaq üçün Ali Baş Komandan silahlı qüvvələrimizin inkişafına xüsusi diqqət göstərdi, əsaslı islahatlar apardı, dövlət büdcəsindən işğalçı Ermənistanın az qala dövlət büdcəsinə bərabər vəsait ayırmaqla Azərbaycan Ordusunu dünyanın ən modern və güclü ordusuna çevirdi.

Azərbaycan Ordusunda gözlənilməz təxribatın qarşısını almağa, tapşırıqları yüksək səviyyədə yerinə yetirməyə qadir, döyüş ruhu yüksək olan birləşmələr yaradıldı. Ordumuzun arsenalında ən müasir silah-sursatlar və zirehli texnikalar yer aldı. Azərbaycan Ordusu dünyanın çox az hərbi qüvvələrində olan - gecə şəraitində yüksək dağlıq ərazilərdə hərbi əməliyyatlar keçirmək üçün istifadə edilən cihazlarla təchiz olundu. Gecə şəraitində 3000 metr dağlıq ərazidə aviasiya cəlb olunmadan hərbi əməliyyatın aparılması kimi imkanlar əksər ölkələrdə yoxdur. Prezident İlham Əliyev müharibə vəziyyətində yaşayan respublikamızın Silahlı Qüvvələrinin maddi-texniki bazasını yerli istehsal hesabına daha da gücləndirmək məqsədilə 2005-ci ildə Müdafiə Sənayesi Nazirliyini yaratmışdır. Bu gün nazirliyin tərkibində müdafiə sənayesi müəssisələrinin sayı 58-ə, istehsal məmulatlarının çeşidi 1200-ə çatıb. Bu illər ərzində nazirliyin müəssisələrində ümumi məhsul istehsalının həcmi 6,7, müdafiə təyinatlı məmulatların həcmi 42 dəfə artıb. Azərbaycan istehsal etdiyi silahlarını artıq xaricə də ixrac edir. Hazırda 10-dan çox ölkə Azərbaycanda istehsal olunan məhsulları öz silahlı qüvvələrində istifadə etmək, hərbi güclərini artırmaq üçün alır. Təsadüfi deyil ki, son illər hərbi məhsullarımızın ixrac həcmi 2,7 dəfə artıb, 4 hərbi zavod istehsala başlayıb. Prezident İlham Əliyev bu barədə demişdir: "Bu gün biz hərbi texnikanın istehsalı işində uğurla inkişaf edirik. Azərbaycanda mindən çox adda hərbi təyinatlı məhsul istehsal olunur".

Azərbaycan xalqının və dövlətinin haqq işi, milli qürur savaşı olan Vətən müharibəsi həm də ədalət uğrunda mübarizə idi. Tarixi Qələbədən sonra Şuşadakı çıxışlarından birində Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev qeyd etmişdir: "Həyat göstərdi ki, ədalət var, sadəcə, dözümlü olmaq lazımdır, səbirli olmaq lazımdır, ədalətə inanmaq lazımdır və ədalətə nail olmaq üçün çalışmaq lazımdır, hədəfə doğru getmək lazımdır".

Bu ideya ətrafında birləşən xalq - prezident birliyi 44 günlük Vətən müharibəsində misli görünməmiş bir Zəfərin əsas güc mənbəyinə çevrildi. Azərbaycanın hər bir vətəndaşı "vətən daşı" olmaq üçün istəyini ortaya qoydu. Ordu bölmələrimiz və könüllülərimiz düşmənin müdafiə səddini darmadağın edərək döyüşə-döyüşə yaşayış məntəqələrini, strateji yüksəklikləri işğaldan azad etdilər. Vətəndaşlıq mövqeyindən şəhidlik zirvəsinə ucalan, sağlamlığını, gələcək həyatını Vətənə fəda edən oğullarımız Zəfərə gedən yolda yeni tarixin qəhrəmanlıq salnaməsinə, əsl vətənpərvərlik nümunəsinə çevrildilər.

Beləliklə, işğalçı Ermənistanın əsgərləri torpaqlarımızdan qovuldular, son 30 ilə yaxın müddətdə beyinlərə yeridilən "yenilməz erməni ordusu" tarixin zibilliklərinə atıldı. Erməni düşüncəsində mümkünsüz olanı Ali Baş Komandan və rəşadətli Azərbaycan Ordusu bacardı. Nəhayət, "əzabkeşliyə hazır olan, özünü fəda və qurban edən xalqın" xəyalları puç oldu, çünki 10 mindən artıq fərarisi olan millət işğal olunmuş torpaqları qorumağa qadir deyildi.

Ordumuz həm də BMT Təhlükəsizlik Şurasının, ATƏT-in Minsk qrupunun həmsədr dövlətlərinin 30 ilə həll edə bilmədiyi, ağrı-acıya çevrilmiş problemi 44 günə həll etdi. Dünya ictimaiyyəti bu döyüşlərə heyrətini gizlətmədi. Zəfərə gedən yolda qardaş Türkiyə, İsrail, İtaliya, Baltikyanı ölkələrdə, eləcə də Rusiya mətbuatında həqiqəti əks etdirən informasiyalar yer aldı. Moskvada çıxan "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenkonun təqdim etdiyi informasiya da bu qəbildəndir: "Azərbaycan Ordusu tərəfindən döyüş əməliyyatları zamanı müasir silahların, PUA-ların, yüksək dəqiqlikli texnologiyaların istifadəsi aparıcı ölkələrin baş qərargahları tərəfindən öyrənilir".

İctimai rəydə bu gün də böyük məmnuniyyət hissi ilə qarşılanan bir həqiqət var ki, Ermənistan rəhbərinin kapitulyasiya aktına imza atmasını ictimaiyyət işğala ölüm hökmü bilir. Bununla da dövlətimizin başçısı bizə qalib xalq kimi yaşamağı bəxş etdi, xalqımızın tapdalanmış hüquqlarını, şərəf və ləyaqətini özünə qaytardı. Bunlarla yanaşı, hərbi ekspertlər, təcrübəli dövlət başçıları, analitiklər, eləcə də sadə insanlar bu reallıqla birmənali şəkildə hesablaşırlar ki, bütün bunların əsas səbəblərindən birincisi Prezident İlham Əliyevin Ali Baş Komandan kimi yenilməz sərkərdə, məğlub olan ölkənin liderləri ilə müqayisədə intellektual üstünlüyü, cəsur və qətiyyətliliyi, xalqın əsl rəhbəri olmasıdır.

***Rəhman SALMANLI, "Azərbaycan"***

# Ali Baş Komandan Azərbaycan tarixinin ən şərəfli səhifəsinin müəllifidir




Bakı Şəhər İcra Hakimiyyətinin nəşr etdiyi "ZƏFƏR MEMUARLARI. Döyüşçülər sərkərdə və müharibə haqqında" kitabından istifadə olunub

**BAXŞƏLİYEV RƏŞAD FÜZULİ OĞLU**
**ehtiyatda olan baş leytenant**

*1978-ci il iyulun 28-də Yevlax rayonunda anadan olub. 1985-1995-ci illərdə Mingəçevir şəhər 11 nömrəli orta məktəbdə oxuyub. 1996-2000-ci illərdə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində ali təhsil alıb.*

*2001-2003-cü illərdə Azərbaycan Silahlı Qüvvələrində leytenant rütbəsində taqım komandiri vəzifəsində həqiqi hərbi xidmət keçib.*

*1999-2012-ci illərdə "Şərq" qəzetində müxbir, məsul katib vəzifələrində çalışıb. 2012-ci ildən fəaliyyətini rəsmi dövlət nəşri olan "Azərbaycan" qəzetində müxbir və şöbə redaktoru kimi davam etdirib.*

*Vətən müharibəsinin iştirakçısıdır.*

*"Qubadlının azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilib.*

*Ailəlidir, 2 övladı var.*



***Mən iki savaş gördüm. Daha doğrusu, Birinci Qarabağ müharibəsinin şahidi, İkinci Qarabağ müharibəsinin iştirakçısı oldum. Uşaq vaxtı oyuncağım məftildən düzəldilən tapança, taxtadan hazırlanan avtomat, güllə gilizləri oldusa, böyüyəndə onlar əsl silah-sursatla əvəzləndi.***

Döyüşçü kimi silaha sarılıb Vətən uğrunda savaşa qatıldım. Azərbaycanın hərb tarixinə yazılan şanlı Zəfərin bir parçasına çevrildim.

Xoşbəxtəm, ona görə ki, Ali Baş Komandan İlham Əliyevin Müzəffər Ordusunun 44 günə yazdığı Zəfər salnaməsində mənim də imzam var. Fəxarət hissiylə deyə bilərəm ki, ehtiyatda olan zabit kimi mən bu savaşı jurnalist kimi deyil, döyüşçü kimi yaşadım.

Vətən müharibəsində rəşadətlə, cəsarətlə döyüşən Azərbaycan Silahlı Qüvvələri qəhrəmanlıq simvoluna çevrildi. Əlinə silah alıb könüllü olaraq sa-



vaşa qoşulan hər bir vətən övladı igidliyin, cəsarətin, qorxmazlığın nümunəsini yaratdı.

Qürurluyam ki, İlham Əliyev kimi əsl sərkərdənin başçılıq etdiyi bugünkü Azərbaycanın vətəndaşı və döyüşçü-jurnalistiyəm.

## Savaş uşaqlarının qisas yanğısı

Mingəçevir şəhərində böyümüşəm. 1990-cı ildə 20 Yanvar faciəsinin, erməni vandallarının xalqımıza qarşı törətdikləri vəhşiliklərin, torpaqlarımızın ard-arda işğal edilməsinin, ölkəmizdə xaos, hərc-mərclik dövrünün ağrı-acısını yaşayan uşaqlardan biriyəm.

Müharibənin qızğın dönəmində 7-8-ci siniflərdə oxuyurdum. Çörəkdən başqa hər şey talonla satılırdı. Heç çörəyi də normal tapıb ala bilmirdik. Saatlarla növbə gözləyirdik, amma çörək maşını gələndə elə qarışıqlıq düşürdü ki, növbədə sıxılıb-əzilir, ağlaya-ağlaya evə əliboş qayıdırdıq.

Cəbhədən gələn hərbçilərlə söhbət edirdik. Onlar, həqiqətən, qəhrəman idilər: adi avtomat silahlarla düşmənə xaricdən hədiyyə edilən tanklara, zirehli döyüş maşınlarına qarşı vuruşurdular. Deyirdilər ki, erməniyə kömək edən olmasa, biz onları məhv edərik. Amma təəssüf ki, söhbət etdiyimiz qəhrəmanlarımız bir neçə gündən sonra bayrağa bükülmüş şəkildə Şəhidlər xiyabanına gətirilib dəfn edilirdi. Hər gün şəhərimizə şəhid tabutu gətirilirdi. Anaların, bacıların fəryadından qulaq tutulurdu. Mən bu acılar içində, bu fəryadların sədasında böyüdüm.

Sonra torpaqlarımız işğal edildi və elindən-obasından didərgin düşmüş insanlar məktəblərə, uşaq bağçalarına yerləşdirildi. Biz isə dərslərimizi zavod və fabriklərdəki kiçik otaqlarda keçmək məcburiyyətində qaldıq. Evsiz-eşiksiz, çarəsiz insanları görəndə ürəyim qan ağlayırdı.

## Leytenant rütbəsi ilə hərbi xidmətə başladım

Məktəbdə əla qiymətlərlə oxuyurdum. Deyirdim ki, hərbçi olacaq və xalqımı bu günə salan ermənidən qisas alacağam. Lakin ailənin tək oğlu olduğum üçün valideynlərim buna razılıq vermədilər. Amma bu istəyim qismən də olsa reallaşdı. Test imtahanı verib universitetə qəbul olundum və 4 il təhsil alıb həm jurnalist, həm də zabit oldum. BDU-nun hərbi kafedrası olduğu üçün bizə leytenant rütbəsi verildi. Ehtiyatda olan zabit oldum.

Hərbçi ola bilmədim, amma silahım oldu - qələm. Hərbçilərimiz əldə silah daim Vətənin keşiyində, mən isə qələmimlə dövlətimin, dövlətçiliyimin müdafiəsində durdum.

Peşəsinə sadiq jurnalist kimi 1999-cu ildən mətbuatda çalışmağa başladım. 2001-ci ildə zabit kimi həqiqi hərbi xidmətə yollandım və 2003-cü ilədək "N" saylı hərbi hissədə taqım komandiri kimi çalışdım.

Həmin zamanlar ordumuzun arsenalı hələ o qədər modernləşməsə də, yeni texnikalar alınır, köhnə hərbi maşınlar yeniləri ilə əvəzlənirdi. Şəxsi heyətin döyüş ruhu da yüksək idi. Taqım komandiri kimi üzərimə düşən vəzifəni qüsursuz yerinə yetirir, nizam-intizam qaydalarına əməl edirdim.

Müharibə vəziyyətinin davam etdiyini nəzərə alan Azərbaycan dövləti tamamilə haqlı olaraq öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır, hərbi qüdrətini yüksəldirdi.

## Ən yüksək zirvələrdəki səngərlərdən reportaj

2003-cü ildə hərbi xidməti bitirib yenidən qələmə sarıldım. "Şərq" qəzetində parlament müxbiri və məsul katib vəzifələrində çalışdım.

Bu dövrdə Azərbaycanda yeni dönəm başlamışdı. Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı olan cənab İlham Əliyev xalqın mütləq əksəriyyətinin böyük etimadını qazanaraq ölkə Prezidenti seçilmişdi.

Bütün sahələrdə islahatlara başlayan Prezident İlham Əliyev Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, Ermənistanın işğalçı dövlət kimi tanınması istiqamətində hücum diplomatiyasına başladı.

Bir jurnalist kimi bütün bu prosesləri izləyir, cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin təbliğatçısı kimi çalışırdım. İllər ötdükcə Azərbaycan bütün sahələrdə yeni inkişaf mərhələsinə qədəm qoydu.

2012-ci ildə jurnalist fəaliyyətimi rəsmi dövlət nəşri olan "Azərbaycan" qəzetində davam etdirməyə başladım. Demək olar ki, "Azərbaycan" qəzetində çalışdığım illərdə də qələmimlə döyüşdüm. Ölkənin hərbi mövzuda yazan fəal jurnalistlərindən birinə çevrildim. Müdafiə Nazirliyinin xətti ilə getmədiyim səngər, yüksəklik, post demək olar ki, qalmadı. Cəbhə xəttini qarış-qarış gəzdim. Bəzən ay ərzində iki dəfə hərbi hissələrə yollandım. Dəfələrlə Müdafiə Nazirliyinin mükafatlarını, təltiflərini, təşəkkürnamələrini aldım. Bir sözlə, daim ordunun içində oldum, həmişə ordu ilə bir nəfəs aldım, hər zaman ordu üçün çalışdım, can yandırdım.

Ən çox da qış fəslində cəbhə xəttinə getməyə önəm verirdim. Çünki bu fəslin çətinlikləri, qarın soyuğu, sazağı səngərdə daha aydın duyulur. Ön xətdə xidmət çəkən əsgərləri daha böyük qəhrəman hesab edirdim. Onlardan yazmaq, xidmətlərini işıqlandırmaq, qəhrəmanlıqlarından bəhs etmək mənə daha maraqlı gəlirdi.

2016-cı ildə ordumuzun şanlı Aprel zəfərindən dərhal sonra Müdafiə Nazirliyinə müraciət edib Lələtəpədən reportaj hazırlamaq istədiyimi bildirdim. Hər zaman olduğu kimi, bu dəfə də müraciətimə müsbət cavab verildi və ilk mülki jurnalist kimi Lələtəpəyə qalxıb qəhrəmanlarla görüşdüm. Bu, həqiqətən, böyük sevinc və qürur hissi idi.

Bu qələbə bir daha göstərdi ki, Azərbaycan Ordusu istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Düşmən isə başa düşdü ki, İlham Əliyev qısa zamanda Müzəffər Ordu yaradıb, əgər əmr etsə, bir neçə günə Qarabağ işğaldan azad edilə bilər.

Amma Aprel döyüşləri Ermənistana dərs olmadı. 2018-ci ildə Naxçıvanda təxribat törədildi və Əlahiddə Ordunun Xüsusi Təyinatlı Qüvvələri Günnüt əməliyyatında düşmənə çox ağır zərbə vurdu.

## Qələbədən jurnalist kimi yazmağı yox, Zəfəri zabit kimi yaşamağı arzulayırdım

Bütün bunlar göstərirdi ki, Ermənistan sülh danışıqlarına getmək fikrində deyil və beynəlxalq təşkilatların yaratdığı cəzasızlıq mühitindən sui-istifadə etməklə Azərbaycanı qıcıqlandırır. Cənab İlham Əliyev isə beynəlxalq təşkilatlardakı çıxışları ilə işğalçı ölkənin rəsmilərini rəzil günə salırdı. Prezident tarixi həqiqətləri olduğu kimi çatdırır və Qarabağın əzəli Azərbaycan torpağı olduğunu faktlarla isbat edirdi.

Ermənistanın bacara bildiyi yeganə şey isə ancaq cəbhə xəttində təxribat törətmək idi. Növbəti təxribat isə iyul ayında Tovuz istiqamətində baş verdi və bu döyüşlərdə yüksəkrütbəli zabitlərimiz şəhid oldular. Düşmənə layiqli cavab verilsə də, xalq general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və digər hərbçilərimizin şəhid olması ilə barışmadı. Düşmənə layiqli cavabın verilmə anı yetişmişdi.

Ali Baş Komandanın xalqa, gənclərə müraciətindən sonra minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə yollanıb könüllü olaraq döyüşə getmək üçün hazır olduğunu bildirdi.

Mən də bu addımı atdım. Axı mən həm də ehtiyatda olan zabit idim və hiss edirdim ki, müharibə qaçılmazdır. Qələbə qazanacağımıza da əmin idim: illərlə ordumuzun şəxsi heyətinin müharibəyə necə hazırlaşdığının, alınan müasir silahlarımızın, zərbə dronlarımızın və yüksək döyüş ruhunun şahidi idim. Amma onu da bilirdim ki, bu sa-



vaşda jurnalistlər öndə yox, arxada çalışıb, haqq davamızı dünyaya çatdırmaqla məşğul olacaqlar. Ona görə də Qələbədən jurnalist kimi yazmaq yox, Zəfəri zabit kimi yaşamaq istədim.

## Qələm süngüyə çevriləndə...

Sentyabrın 27-də gözlənilən an yetişdi və Ali Baş Komandan düşmənin təxribatına qarşı əks-həmlə əməliyyatlarının başlanması üçün əmr verdi. Azərbaycan Ordusu "Dəmir yumruq" əməliyyatı ilə Qarabağın azadlığı uğrunda haqq savaşına başladı.

Hər gün cəbhədən həm üzücü, həm də xoş xəbərlər gəlirdi. İgid oğullarımız qəhrəmancasına döyüşərək torpaqlarımızı azad edir, bu yolda canlarını qurban verirdilər. Mən günlərimi sayırdım. Tez-tez Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Abşeron rayon şöbəsinə zəng edib xəbər alırdım və "hələ gözlə" deyirdilər.

Oktyabrın 10-da Ağdama səfər etmişdim: Quzanlıda atəş altında reportaj hazırlayırdım. Düşmən Quzanlını ağır artilleriya atəşinə tutsa da, yerli əhali evlərini tərk etmirdi. Hər kəs ordumuzun əsgərlərinə əlindən gələn yardımı etmək üçün səfərbər olmuşdu. Bu durumu işıqlandırmaq üçün Quzanlıda sakinlərlə görüşüb söhbət edirdim.

Günorta saatlarında zəng gəldi və bəlli oldu ki, səfərbərlik xidmətindən Müşfiq müəllimdir, məni savaşa çağırırdı. Atəş səsləri eşidiləndə soruşdu ki, bəs sən haradasan, o nə səsdir? Mən də vəziyyəti izah etdim. Müşfiq müəllim dedi ki, sən elə döyüşdəsən, öz xidmətinlə məşğul ol. Amma razılaşmadım və dedim ki, sabah mütləq gələcəyəm. Ge-



cə Bakıya geri qayıtdım və səfərbərlik xidmətinə yollandım. Dedilər ki, bir qrup zabit dünən yola salındı, telefonu açıq saxla, növbəti mərhələdə səni çağıracağıq. İki həftə gözləməli oldum və nəhayət, yol göründü - qələmin süngüyə çevrilmə anı yetişdi.

Səhər redaksiyaya yollanıb baş redaktorumuz, Milli Məclisin deputatı Bəxtiyar Sadıqova vəziyyəti izah etdim. Bəxtiyar müəllim mənə sağ-salamat, qələbə ilə qayıtmağı arzuladı və heç vaxt yadımdan çıxmayacaq bir fikir səsləndirdi: "Mən Birinci Qarabağ müharibəsinin iştirakçısıyam. Mənə vahid komandanı olmayan ordunun məğlubiyyət tarixindən yazmaq nəsib oldu. Amma inanıram ki, sən Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli Ordusunun haqq savaşının, şanlı Qələbəsinin həm döyüşçüsü, həm də Zəfər salnaməsini tarixə köçürən jurnalist olacaqsan".

Səhəri gün hazırlıqlarımı görüb evdən çıxmağa hazırlaşırdım. Elə bu vədədə 9 yaşlı qızım Yağmurun səhhətində ciddi problem yarandı. Dərhal xəstəxanaya aparmalı olduq. Səfərbərlik xidmətinə zəng edib dedim ki, 1-2 saat yubanacağam. Uşağı hansı tibb müəssisəsinə apardıqsa, həkimlər hökmən xəstəxanada yatmalı olduğunu dedilər. Çıxılmaz vəziyyətdə qalmışdım. Hamı məndən səfərbərlik xidmətinə zəng edib bir neçə günlük möhlət almağımı təkid edirdi. Bunu necə edə bilərdim?! Axı həftələrlə zəng edirdim ki, məni niyə cəbhəyə göndərmirsiniz? İndi də gedib möhlət istəməyim doğru olmazdı. Həm qızım, həm də həyat yoldaşım gördü ki, getməkdə israrlıyam, ona görə də bircə kəlmə söylədilər: "Get və sağ-salamat yanımıza qayıt. Yolunu səbirsizliklə gözləyəcəyik!"

Uşağı xəstəxanaya yerləşdirib yola düşdüm. Ürəyim qan ağlayırdı, amma seçimimi etmişdim. Adətən belə hallar fakt yox, rəvayət olur. Bədii əsərlərdə təxəyyül məhsulu kimi oxuyurduq ki, qəhrəmanın Vətən sevgisi övlad sevgisindən üstün oldu, savaşa yollandı. Mən real həyatda bu gerçəyi yaşamalı oldum...

Yoldaşlarım mənim bu hərəkətimi qəhrəmanlıq kimi qiymətləndirdilər. Amma cəbhədə qarşılaşdığım gerçəkliklər göstərdi ki, mənim kimi qəhrəmanlar yüzlərlə, minlərlədir. Toplanış məntəqəsində zabit və könüllü əsgərlərlə söhbət edəndə bəlli oldu ki, kimisi xəstə anasını, yaxud atasını yataqda,



kimisi hamilə həyat yoldaşını doğum evində buraxıb Vətənin harayına yetişib. Onlar əsl qəhrəmanlar, Vətən oğulları idilər.

## Minomyot yağışı, azan səsi və Qələbə müjdəsi

Oktyabrın 20-də "N" saylı hərbi hissədə toplanış məntəqəsində idik. Burada həm qrup, həm də qələm yoldaşım Rasim Bayramovla görüşdüm: dörd il birlikdə ali təhsil al, sonra jurnalist kimi birlikdə çalış və taleyin qisməti ilə döyüş yoldaşı ol - maraqlı hadisələr yaşanırdı.

Savaş meydanında döyüşən hərbi hissələrdən zabitlər gəlib bizim sıralarımızdan seçim edirdilər. İki gündən sonra mənə də yol göründü və əşyalarımı toplayıb yola çıxdım. Yolda hansı hərbi hissəyə gedəcəyimizi soruşdum. Cavab məni çox sevindirdi. Bəlkə də hər insana, hər zabitə nəsib olmayan bir reallıq idi: 17 il öncə xidmət etdiyim "N" saylı hərbi hissəyə düşmüşdüm. Fikirləşdim ki, sağ qalsam, zabit şəxsi vəsiqəmə bir hərbi hissənin nömrəsi yazılacaq.

Düşmən Cəbrayıl, Zəngilan, Qubadlı istiqamətlərində yolları atəş altında saxlayırdı. Bir qədər getdikdən sonra dayanmalı olduq. Dedilər ki, hava qaralmadan irəliləmək təhlükəlidir. Gecə yol getdiyimizdən hansı kəndlərdən keçdiyimizi görə bilmədim. Səhər açılarkən gördüyüm kənd Dağ Tumas kəndi oldu.

Gecə çayın kənarında dayandıq və bəlli oldu ki, Qubadlıdayıq. Hərbi hissəmizə Qubadlının bəzi yüksəkliklərində qalan düşmən qüvvələrinin təmizlənməsi və rayonun müdafiəsi tapşırığı verilmişdi. Çünki düşmən Qafan istiqamətində qüvvə toplayaraq yenidən Qubadlını ələ keçirmək istəyirdi. Əgər bu baş versəydi, Laçın dəhlizinə doğru irəliləyən Xüsusi Təyinatlı Qüvvələrimiz mühasirəyə düşə və əməliyyatlar pozula bilərdi.

Düşməndən ələ keçirilən hərbi hissədə gecələməli olduq. Səhər hərbi hissə komandiri ilə görüşdük və tapşırıqlarımızı alıb təyinat üzrə hərəkət etdik. Bəlli oldu ki, bir gün öncə "Qanlı təpə" deyilən ərazidə savaş baş verib, tabor komandiri, polkovnik-leytenant Nail Orucov, taqım komandiri Emil Qurbanov və bir neçə əsgərimiz qəhrəmancasına döyüşərək şəhid olublar. Mən Emil Qurbanovun yerinə taqım komandiri təyin olunmuşdum.

Yüksəkliyə qalxmalı idik. Amma düşmənin minaatanları hərəkət etməyə imkan vermirdi. Qafan istiqamətindən mərmilər yağış kimi yağdırılırdı. Ona görə də gecəyə qədər gözlədik və təminat aparan əsgərlərlə birlikdə yola çıxdıq. Bir neçə saatdan sonra təyinat nöqtəsinə çatdıq. Ən hündür zirvədə idik. Gecə olduğundan ərtaf yaxşı görünmürdü. Səhər açılanda gözlərimə inanmadım. Başqa vaxt başımızın üstündə olan buludlar indi ayağımın altında idi. Yüksəklikdən baxanda qarşımda sanki silsilə dağlar dalğalanırdı. Öndə Qarabağ, arxa tərəfdə isə Ermənistan ərazisi idi, yəni düşmənlə üz-üzə dayanmışdıq.

Son döyüşlərdə taqımımın 11 əsgəri şəhid olmuşdu. Ərazidə yalnız səssiz hərəkət etmək məcburiyyətində idik. Düşmən duyuq düşən kimi minomyotlardan atəşə tuturdu. Demək olar ki, səhər açılandan axşama qədər Qubadlının mərkəzi, bizim aşağıda olan bölmələrimiz mərmi yağışına tutuldu.

Bizim tapşırığımız Gorus-Qafan yolu istiqamətindən düşmənin gözlənilən hücumunun qarşısını almaq idi. Noyabrın 8-dək mövqelərimizi qoruduq. Baxmayaraq ki, düşmən qüvvələri dayanmırdı, qoyub getdikləri əraziləri, istehkamları tanıdıqları üçün həmin yerləri atəşə tuturdular, biz bir qarış belə geri çəkilmirdik. Bir neçə dəfə hücum etmək istədilər, amma güclü müqavimətlə rastlaşaraq geri çəkildilər. Hərbi hissəmiz üzərinə düşən tapşırığı layiqincə yerinə yetirdi. Amma müharibə bitənə qədər Qubadlının dağlarında xeyli şəhid verdik.

Müharibədə hər cür çətinlik olur: acsusuz, köməksiz vəziyyətdə də qalmaq mümkündür; hərdən təminat gətirmək mümkün olmurdu, çünki yağış yağanda dağlara qalxmaq müşkülə çevrilirdi. Bəzən ac qalırdıq, susayanda yarpaqların üstündəki damcıları udmaqla susuzluğumuzu yola verirdik. Amma müqavimətimiz qırılmırdı, çünki Vətən savaşına hamımız könüllü olaraq gəlmişdik. Bilirdik ki, bu yolun sonunda şəhadət var. Haqq savaşı aparır və inanırdıq ki, qələbə bizim olacaq. Əsgər ac qalsa da, susuz keçinsə də, döyüş növbəsi çəkərkən bir an belə gözünü qırpmırdı.

Noyabrın 9-u axşam xəbər verildi ki, səngərlərə sipər olun, gecə güclü döyüş başlayacaq. Zabit yoldaşlarımızla halallaşdıq və sağ qalacağımız təqdirdə nə edəcəyimiz barədə söhbətləşdik. Səngərlərə sipər olub saatlarla gözlədik, amma düşmən atəş açmadı.

Komandanlığın yerləşdiyi qərargah bizdən çox uzaqda idi. Gecə həmin ərazidən havaya işıqsaçan güllələr atılmağa başladı. Çox qəribə hal yaşadıq. Düşündük ki, bunu edən kimdirsə, hərbi hissənin yeri barədə düşmənə işarə verir. Bu hal bir neçə dəfə baş verdi. Artıq səhər açılırdı. Qəflətən qulağımıza azan səsi gəldi, çaşqın vəziyyətdə qaldıq. Bölüyümüzün feldşeri Emil Zeynalovun səsi idi. Emil dini təhsilli idi və çox yaxşı avazı vardı. Aşağıda olarkən hərdən dini mövzularda danışar və xoş avazı ilə azan verərdi.

Bu dəfə Emildən çox uzaqda idik, amma onun verdiyi azanın səsi bütün dağlara yayılırdı. Heç nə başa düşmürdük və rabitə əlaqəsinə çıxıb nə baş verdiyini soruşanda da cavab verən yox idi.

Sən demə, müharibə bitib, Ermənistan təslim olub. Komandir Emilin yüksəkliyə qalxıb azan verməsini istəyib.

Savaş bitsə də, biz mövqeyimizi tərk etmədik. Çünki erməniyə inanmaq olmazdı, elə onlara inanıb qucaq açdığımız üçün soyqırımlarına məruz qalıb torpaqlarımızı itirmişdik. Noyabrın 14-dək dağlarda keşik çəkdik. Başqa hərbi birləşmə gəlib bizi əvəzlədikdən sonra rayon mərkəzinə endik.

## Yastığımız Vətən daşı, yorğanımız qar oldu

Artıq savaş bitmişdi, amma bizi qarşıda yeni tapşırıqlar gözləyirdi. İki gün Qubadlıda qaldıqdan sonra Hadruta doğru hərəkət etdik. Cəbrayıldan keçib Xocavəndə doğru irəlilədikcə yollarda gördüklərimiz bizi çox qürurlandırırdı.

Düşmənin məhv edilmiş texnikaları, qoyub qaçdığı zirehli maşınları, illərlə düzəltdikləri "keçilməz" istehkamları, ayaqlar altında diyirlənən kaskaları... İndi onların əksəriyyəti Hərbi Qənimətlər Parkında nümayiş olunur.

Hadrutda 2 gün qaldıqdan sonra öncə Xocalının Şuşakənd kəndində, sonra isə Xocavəndin Qırmızı Bazar qəsəbəsi yaxınlığında düşmən qüvvələri ilə üzbəüz mövqelərdə postlar qurduq. Əsgərləri hərdən güclə saxlayırdım. Gözüqanlı Azərbaycan əsgəri düşmənin bu torpaqlardan tamamilə rədd olmasını istəyirdi. Xocavəndin yuxarı Taqaverd kəndində düşmən postu ilə aramız cəmi 10-15 metr idi. Bizim əsgərlər qələbə əhvali-ruhiyyəsində hərdən meyxana deyirdilər. Erməni əsgərləri də postun kənarına yaxınlaşıb qulaq asır və hətta hərdən qafiyəni də təkrar söyləyirdilər. Bizdən çörək, siqaret istəyirdilər. Rəzil gündə idilər və dəqiq bilirdik ki, onları yuxarı komandanlıq orada güclə saxlayır.

Dekabrın 1-dən yanvarın 2-dək Taqaverddə döyüş tapşırıqlarını uğurla icra etdik. Qarlı-şaxtalı havalarda Qarabağın dağlarında həyatımızın ən yaddaqalan anlarını yaşadıq. Qalib gəlmişdik və evimizə qalib əsgərlər, zabitlər kimi dönəcəyimiz üçün qürurlu idik.

Bu dövrdə iki dəfə şad xəbər aldım: dekabrın 15-də postda olarkən qərargahdan xəbər verdilər ki, müdafiə nazirinin əmri ilə baş leytenant rütbəsi almışam. Dekabrın 29-da isə evə zəng etmişdim. Həyat yoldaşım telefona cavab verən kimi məni təbrik etdi. Soruşdum ki, nə baş verib? Dedi ki, Prezident səni "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edib, jurnalist dostların sosial şəbəkələrdə paylaşıblar.

Bu, çox sevindirici xəbər oldu və əsgərlərimin hər birini təbrik etdim. Çünki bəlli idi ki, mən təltif olunmuşamsa, demək, bütün şəxsi heyət təltif edilib.

Yanvarın 2-də 3 aya yaxın hərbi xidmətdən sonra ordu sıralarından tərxis olundum və qalib Ordunun qalib zabiti kimi ailəmin yanına döndüm. Çox qürurlu idim. Lakin həyətimizə daxil olanda özümü saxlaya bilmədim. Xəstəxanada qoyub getdiyim qızım Yağmur əlində üçrəngli bayrağımızla üstümə qaçaraq boynumu qucaqlayıb sevincdən ağlamağa başladı. Bu, həqiqətən, ikiqat sevinc idi...

## 44 günün əfsanəsi

Arzuma çatmışdım. Çünki Vətən müharibəsini jurnalist kimi deyil, zabit kimi yaşadım. Əlimdə qələm olanda da rəşadətlə çalışdım, silaha sarılıb ön cəbhəyə yollananda da.



Qürurluyam, ona görə ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli Ordusunun qazandığı böyük Zəfərdə mənim də kiçik töhfəm var. On minlərlə cəsur döyüşçü kimi mənim də taleyimə şərəfli səhifə yazıldı.

Bu haqq savaşında zabit kimi döyüşsəm də, jurnalist kimi qeydlərimi də aparırdım. Vətən müharibəsinin 44 gününün hər dəqiqəsi bir tarix oldu. Bu savaşı Azərbaycan Silahlı Qüvvələrinin bütün bölmələrinin vahid komandanlıq altında birlikdə keçirdiyi uğurlu əməliyyatlarla qazandıq. Bu savaşda əsl sərkərdə olduğunu sübut edən İlham Əliyevin verdiyi qətiyyətli qərarlar bizi qələbəyə apardı.

Bu savaşda bütün etnik qrupların nümayəndələri əlinə silah alıb Qarabağın azadlığı uğrunda döyüşdü. Tabeliyimdəki taqımda talış, ləzgi, avar, udin və digər xalqların igid oğulları döyüşürdü. Bu bir daha göstərdi ki, bütün Azərbaycan cənab İlham Əliyevin ərtafında sıx birləşərək Vətən savaşında qələbəyə köklənib. Qələbəmizin rəmzi olan yumruq isə təsadüfən seçilməmişdi. O yumruq həm güc, həm də birliyimizin təcəssümü idi. Yalnız birliyi olan ölkələr, iradəli olan liderlər qələbə qazanırlar. Dünya isə bir daha şahidi oldu ki, Azərbaycanın qətiyyətli, iradəli lideri və qüdrətli sərkərdəsi var. Həmin sərkərdə cəmi 19 ilə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirib. Yaratdığı Silahlı Qüvvələr dünyanın ən güclü orduları sırasında yer alıb.

*Vətən savaşının döyüşçü-jurnalisti kimi deyə bilərəm ki, bu Zəfərin qəhrəmanları igid Azərbaycan oğulları, memarı isə Müzəffər Ali Baş Komandanımızdır.*

# Uşaq ikən ayaqyalın tərk etdiyimiz yurdlarımıza Ali Baş Komandan bizi qalib əsgər kimi qaytardı




Bakı Şəhər İcra Hakimiyyətinin nəşr etdiyi "ZƏFƏR MEMUARLARI. Döyüşçülər sərkərdə və müharibə haqqında" kitabından istifadə olunub

## ƏLİYEV VİDADİ RİZVAN OĞLU ehtiyatda olan hərbçi

1984-cü il iyulun 17-də Ağdam rayonunun Papravənd kəndində anadan olub. 1993-cü ildən ailəsi məcburi köçkün kimi Sumqayıt şəhərində məskunlaşıb. Sumqayıtdakı 10 nömrəli orta məktəbin məzunu olub.

2003-2004-cü illərdə Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmət keçib. 2016-2019-cu illərdə "N" saylı hərbi hissədə müddətdən artıq xidmət edən hərbi qulluqçu, 2020-ci ildən isə Bakıdakı "N" saylı hərbi hissədə döyüş maşın komandiri kimi fəaliyyət göstərib.

Vətən müharibəsinin iştirakçısıdır, I qrup Qarabağ müharibəsi əlilidir.

"İgidliyə görə", "Şücaətə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və Azərbaycan Silahlı Qüvvələrinin 100 illik "Yubiley" medalları ilə təltif edilib.

Ailəlidir, 3 övladı var.



*Mən Qarabağlıyam, müharibə uşağıyam. O torpaqda doğulmuşam. Mənim üçün Vətən Ağdamdan başlayır. 9 yaşımda "Qrad" mərmilərinin yağışı altında öz doğma kəndimi, rayonumu tərk etmək məcburiyyətində qalmışam. İllərlə boynubükük vəziyyətdə məcburi köçkünlük həyatı yaşamışam. Həyat bizi çox ağır sınaqlardan keçirib.*

*Amma zaman yetişdi və Tanrı bizə İlham Əliyev kimi elə bir lider yetirdi ki, sönən çıraqlarımız yenidən alışdı, arzularımız, xəyallarımız çin oldu.*

Qüdrətli dövlət, güclü ordu yaradan Ali Baş Komandan İlham Əliyev yurd, torpaq həsrətimizə son qoyub Azərbaycan xalqının könlündə öz heykəlini ucaltdı. Prezident seçildiyi gündən işğalla barışmayacağını bəyan edən İlham Əliyev vədinə, sözünə sadiq lider kimi qətiyyət nümayiş etdirdi və işğalçı Ermənistanı diz çökdürdü.

Bu gün bizə - müharibə iştirakçılarına qəhrəman deyirlər. Amma mən əminliklə deyirəm ki, əsl qəhrəman İlham Əliyevdir. Çünki Qarabağ məhz Ali Baş Komandanın qətiyyəti, sarsılmaz iradəsi hesabına azad edildi. Əgər bu gün mən yurdsuz-yuvasız, boynubükük köçkün deyiləmsə, bunun səbəbkarı İlham Əliyevdir. Ona görə də bütün qarabağlılar kimi mən də ömrüm boyu Ali Baş Komandanıma minnətdar olacağam.



### Atəş altında güllə gilizləri ilə oynayan müharibə uşağı

Mən iki müharibə görmüşəm. Böyüdüyüm Papravənd kəndi Ağdam-Ağdərə yolunun üstündə yerləşirdi. Kəndimiz Qarapirim, Qalayçılar, Boyəhmədli kəndləri və şimal tərəfdən Ağdərə şəhəri ilə əhatə olunurdu. Müharibənin qızğın vaxtlarında məktəbə yenicə gedirdim. Hər gün atəş səsləri eşidirdim. Tankların, zirehli texnikaların səsindən qulaq tutulurdu. Babam da, atam da deyirdilər ki, Papravənd kəndi həmişə erməni vandallarına qarşı Azərbaycan xalqının apardığı uzunmüddətli mübarizədə qanlı döyüş meydanı olub. Atam, dayılarım, əmilərim kəndin özünümüdafiə dəstələrində düşmənə qarşı uzun müddət mübarizə aparıblar.

Uşaqkən oyuncağım güllə gilizləri idi. Böyüyəndə isə o gülləni avtomata salırdım. Səbəbi, yəqin ki, bəllidir: doqquz yaşında valideynləri ilə doğma kəndini tərk etmək məcburiyyətində qalan, illərlə məcburi köçkün kimi yaşamağa məhkum olan bir uşaq hansı hisslərlə böyüməli idi?!

Əlbəttə ki, qisas yanğısı içimi alışdırıb-yandırırdı. Böyüdükcə hərbçi olmaq istəyim daha da artırdı. Sumqayıt şəhərində məskunlaşmışdıq. Hər dəfə hərbi formalı gəncləri görəndə öz-özümə deyirdim: "Görəsən, mən də hərbçi ola bilərəmmi?"

Zaman yetişdi və 2003-cü ildə hərbi xidmətə yollandım. Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin Milli Qvardiyasının "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmət keçdim. Hərbi xidməti bitirdikdən sonra bir müddət müxtəlif yerlərdə çalışıb ailəmi dolandırdım.

2016-cı ildə sənədlərimi hazırlayıb müddətdən artıq xidmət edən (MAXE) hərbi qulluqçu kimi fəaliyyət göstərmək üçün Müdafiə Nazirliyinə göndərdim və müsbət cavab aldım. Təyinatla "N" saylı hərbi hissəyə manqa komandiri göndərildim.

Çox həvəsli idim və istəyirdim ki, həm öyrənim, həm də gənc əsgərlərə nəsə öyrədim. Ordumuzun arsenalı getdikcə güclənirdi. Həm öz müdafiə sənayemizin istehsal etdiyi yeni silahlar, həm də xaricdən alınan texnikaların sayı artdıqca hiss edirdim ki, bu ordu müharibəyə hazırdır. Həm də şəxsi heyətin mənəvi-psixoloji durumu göstərirdi ki, Azərbaycan hərbçisi döyüşmək istəyir. Çünki müasir gənclik, həqiqətən də, yüksək vətənpərvərlik ruhunda böyümüşdür. Gənclər ancaq Qarabağın azadlığı, Azərbaycanın bütövlüyü barədə danışır, sanki müharibədən ötrü səbirsizlənirdilər.

Aprel döyüşlərindən sonra mənə tam aydın oldu ki, Ali Baş Komandan İlham Əliyev müzəffər Ordu yaradıb və bu gün Azərbaycan əsgəri istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir. Bu məni çox sevindirirdi: inanırdım ki, gün gələcək, Qarabağı erməni işğalından qurtaracağıq.

### Ağbirçək anamın sözləri: "Oğul, səni ölümə yox, öldürməyə göndərirəm!"

2019-cu ilədək Qusardakı hərbi hissədə çalışdım. 2019-cu ilin ortalarında isə qərara gəldim ki, özümü Xüsusi Təyinatlı Qüvvələrdə sınayım. Çünki çox həvəsli idim. Nazirliyə müraciət etdim ki, məni Bakıdakı "N" saylı hərbi hissəyə ("Həmlə" taboru) göndərsinlər. Bilirdim ki, həmin hərbi hissə xüsusi təyinatlı dəstələrdən ibarətdir. Müraciətimə müsbət cavab verildi və 2019-cu ilin sonlarından "Həmlə" taborunda döyüş maşın komandiri vəzifəsində çalışmağa başladım.

Burada da eyni prosesin şahidi oldum: yüksək hazırlıqlı peşəkar şəxsi heyət, ən müasir silah-sursatla təchizat, ən əsası isə, əsgərlərə və zabitlərə xüsusi diqqət göstərən komandanlıq. Polkovnik-leytenant Cavid Fərhadovun rəhbərlik etdiyi taborun döyüş hazırlığı çox yüksək idi. Tez bir vaxtda şəxsi heyətə uyğunlaşdım və mən də xüsusi təyinatlıya çevrildim.

2020-ci ilin iyulunda Tovuz hadisələri baş verdi. Həm sevindik, həm də çox üzüldük. Sevindik ona görə ki, Aprel döyüşlərində olduğu kimi, yenə də düşmənə ağır zərbələr endirdik. Üzüldük, ona görə ki, bu savaşda generalımız Polad Həşimovu, yüksək rütbəli zabitlərimizi itirdik. O qəhrəmanlar arxada deyil, ön cəbhədə əsgərlərlə çiyin-çiyinə döyüşürdülər.

Tovuz döyüşləri bizim qisas hissimizi daha da alovlandırdı. Hərbi hissədə hər kəsin arzusu müharibənin başlanması idi. Amma Aprel döyüşlərində olduğu kimi, atəşkəs elan edilsə də, nədənsə bu dəfə ölkədə ab-hava dəyişmişdi. Xalq sanki ayağa qalxmışdı. Heç kim zabitlərimizin itkisi ilə barışa bilmirdi. Həm bu proses, həm də düşmənin növbəti təxribat cəhdləri xalqın istəyini, arzusunu reallaşdırdı. Sentyabr ayında bizim haqq savaşımız başladı. Mənim isə uşaqlıq arzum gerçəkləşdi. İllər öncə oynadığım



güllə gilizlərini atan silaha sarılaraq Qarabağa yollandım.

Bəzən deyirlər ki, vaxtilə elindən-obasından ayaqyalın çıxan uşaqlar 2020-ci ildə yurduna tankın üstündə qayıtdılar. Bax, onlardan biri də mən idim.

Mənim məcburi köçkünlük həyatı yaşamış, acılar çəkmiş yaşlı anam var. Müharibə başlayanda çox soyuqqanlı şəkildə üzünü mənə tutub dedi ki, oğul, zaman yetişib, səni ölməyə yox, öldürməyə göndərirəm. Get, qisasımızı al!

Mən də dedim ki, bu mübarizə üçün verə biləcəyim canım və qanımdırsa, o da vətənə fəda olsun! Yetər ki, 3 oğlum gələcəkdə başı dik, məğrur gəzsin!

### Cibimdə 3 güllə gəzdirirdim

Sentyabrın 27-də Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətindən sonra bizə də komanda verildi və hazırlıqları görüb hərbi hissəni tərk etdik. Taborun şəxsi heyəti arasında elə bir ab-hava var idi ki, sanki savaşa yox, hansısa bayrama, şənliyə gedirik. Çox qürurverici anlar idi.



Biz Cəbrayıl istiqamətində toplandıq və taborumuz Bakının Xüsusi Təyinatlı Qüvvələrinin sərəncamına verildi. Gecə tapşırıq aldıq və əmrin icrasına başladıq. "Həmlə" taborunun vəzifəsi düşmən üzərinə hücum edərək atəş xəttini yarıb arxadan gələn qüvvələrimizə yol açmaqdan ibarət idi.

Komandirimiz Cavid Fərhadov çox peşəkar və yüksək hazırlıqlı zabit idi. Onun tapşırıqları ilə hər bir əməliyyatımız uğurlu alınırdı. Onu da deyim ki, polkovnik-leytenant təkcə komandan yox, həm də bizə böyük qardaş idi. Hər bir əsgərin qayğısına qalır, yardımına yetişir və çox ibrətamiz fikirləri ilə şəxsi heyəti ruhlandırırdı. Onun hər bir kəlməsi əsgərlərin döyüş əzmini daha da artırırdı.

Biz Füzuli, Cəbrayıl və Xocavənd istiqamətində çox ağır döyüşlərdə iştirak etdik. Ən ağır döyüşlərdən biri Füzulidə "Karyer" deyilən yerdə oldu: öncə Xocavənd-Füzuli yolunu bağladıq. Orada düşmənin müdafiə bunkeri var idi. Bizə tapşırıq verildi ki, arxadan manevr etməklə həmin ərazini ələ keçirək. Düşmən bizi minaatanlardan ağır atəşə tuturdu, buna baxmayaraq, döyüşə girib tapşırığı yerinə yetirdik.

Deməks olar, hər günümüz döyüşlə keçirdi. Cibimdə 3 güllə gəzdirirdim. Deyirdim, birdən yaralansam, düşmənə əsir düşməmək üçün özümü vuraram. O qədər ağır döyüşlər olurdu ki, sağ qalacağıma inanmırdım.

İki həftədən sonra bizi Naxçıvanın Xüsusi Təyinatlı Qüvvələrinin sərəncamına verdilər və yeni tapşırıq aldıq: Füzulinin Dilağarda kəndini düşməndən təmizləməli idik. Ağır döyüş əməliyyatı keçirdik. Bu döyüşdə komandirimiz Cavid Fərhadov yaralansa da, şəxsi heyətə bildirmədi. Mən bir daha komandirimlə fəxr etdim. Çünki komandir yaralandığını bildirsəydi, şəxsi heyətdə ruh düşkünlüyü yarana bilərdi. Yaralı vəziyyətdə bizimlə bərabər döyüşdü və Dilağarda kəndini düşməndən təmizlədik.

Sonra Xocavənd istiqamətində irəlilədik. Xəritəyə baxanda gördük ki, qarşımızdakı yüksəkliyin arxasında düşmənin hərbi hissəsi yerləşir. Komandir dedi ki, üzbəüz döyüşə girsək, ağır itki verə bilərik. Çünki düşmən yüksəklikdən bizi rahat şəkildə atəş altında saxlaya bilərdi. Ona görə də komandir dedi ki, yüksəkliyin ətəyi ilə hərəkət edib arxadan düşmənə zərbə endirsək, daha əlverişli olar. Demək olar, birgünlük yolu 2 saata qət etdik. Gecə hərəkət edib təyin olunmuş mövqeyə çatdıq. Gördük ki, qarşımızda böyük bir alay var. Bir qədər gözlədik və komanda verildikdə hücuma keçdik. Düşmən təlaşa düşmüşdü. Elə bilirdilər ki, onları hər tərəfdən mühasirəyə almışıq. Çünki bizim arxa tərəfdən hücuma keçməyimizi ağıllarına da gətirməzdilər. Biz alayın yerləşdiyi ərazini arxadan həmlə ilə ələ keçirdik və qarşıdakı erməni hərbçiləri yüksəklikləri qoyub qaçdılar.

Hərbi hissəyə daxil olduq və Ermənistan bayrağını endirib, öz bayrağımızı ucaltdıq. Ermənilər digər yüksəkliklərdən bizi ağır artilleriya atəşinə tutdular. Hərbi hissəni tərk etmədik. Sonra qırıcı təyyarə ilə bizi atəşə tutmağa başladılar. Yenə də mövqelərimizdən çəkilmədik. Həmin döyüşdə komandirimiz Cavid Fərhadov növbəti dəfə yaralandı. Amma yenə də komandir təxliyə olunmadı və bizimlə irəliləməyə davam etdi.



Biz çox sürətlə irəliləyirdik. Yorulsaq da, ac qalsaq da, ayağımızda təpər var idi. Bizi aparan qüvvə vardı sanki... Ağdamı, kəndimizi görmək, torpağı qucaqlamaq üçün alışıb-yanırdım. Ona görə də həvəslənirdim və Ali Baş Komandanın qələbə xəbərləri məni çox ruhlandırırdı. Biz Ali Baş Komandanımıza inanırdıq, güvənirdik. Bilirdik ki, bu savaş Aprel döyüşləri kimi yarımçıq dayanmayacaq. Çünki Prezidentin qətiyyətli çıxışları göstərirdi ki, Azərbaycan Ordusu Qarabağı tam azad etməyincə döyüş dayanmayacaq.

Hərbi hissəni ələ keçirdikdən sonra Xocavənd rayonunun mərkəzinə tərəf irəliləməyə başladıq. Geri qayıda bilməzdik. Çünki düşmən qüvvələrinin arxasına keçmişdik. Ona görə də irəli getdik.



Noyabrın 3-də bizə tapşırıq verildi ki, yüksəkliyə qalxıb mövqelənək. Şəhərə yaxın tank bölmələrimiz həmin əraziyə hücuma keçəndə biz də arxadan dəstək verməli idik. Yəni biz düşmənin əhatəsində idik. Gecə hərəkətə başlayıb yüksəkliyə qalxdıq. Səhərə qədər gözlədik və hava açılanda xəbər gəldi ki, biz mövqeyimizi dəyişməliyik. Hərəkət etməyə başlayanda bizi gördülər və 4 tərəfdən atəşə tutmağa başladılar. Bütün silahlardan atəş açırdılar.

Arxa tərəfdə düşmən qüvvələri daha çox idi. Biz də məcbur olub gecə düşmənin üzərinə doğru hərəkət etdik. Onların ağlına da gəlməzdi ki, bir gecənin içində biz Xocavəndə yetişə bilərik.

Qarşımızda "530" yüksəkliyi var idi. Biz həmin yüksəkliyə qalxdıq və yenə də düşmən bizi gördü. Ağır artilleriya ilə vurmağa başladılar. Silahdaşlarımız arasında yaralananlar oldu. Gördüm ki, əsgərlərin çoxu açıq sahədə qalıb. İstədim ki, onları çağırıb yeni tutduğumuz səngərə yerləşdirim. Bir az irəliləmişdim ki, başıma güllə dəydi. Məsafə çox yaxın olduğu üçün güllə başımdakı kaskanı deşib keçmişdi. Huşumu itirdim, sonrasından xəbərim olmadı.

Həmin vaxt bölük komandirim Nizami Hüseynli məni tez səngərə salıb ilk tibbi yardım göstərdi. Başımı bintlə sarıyaraq kaskanı geyindirdi ki, qanaxma artmasın. Allah mənə sanki güc vermişdi. Məni arxadan təminat gətirən qüvvələrlə geri qaytardılar. Yolda bir neçə dəfə yıxılıb-qalxmışam. Lakin yenə də öz ayaqlarımla Füzuliyə qədər getmişəm. Gözüm görmürdü, danışa da bilmirdim. Füzuliyə çatanda məni ambulansa mindirib Əhmədbəyli hospitalına gətirdilər. Burada həkimlər başımda əməliyyat apardılar və gördülər ki, güllə sinirə toxunub, ona görə də təcili Bakıya göndərdilər. Noyabrın 5-də Bakıda yenidən əməliyyat ediblər, lakin güllənin çıxarılması mümkün olmayıb.

### Ali Baş Komandan xalqın xilaskar lideri kimi tarixə düşdü

5 gün komada qalmışam. Noyabrın 10-da palatada səs-küyə oyandım. Gözüm görmürdü, amma həkimlərin səsindən başa düşdüm ki, müharibə qurtarıb. Tibb bacılarını çağırıb soruşdum ki, nə baş verib? Dedilər ki, Qələbə qazanmışıq. Bundan gözəl xəbər ola bilməzdi. Hönkürüb ağlamaq istədim, amma özümü güclə saxladım.

Sonra həkim gəlib dedi ki, güllənin başımdan çıxara bilməyiblər. Əgər gülləyə toxunulsa, ölə bilərəm. İndi də bu vəziyyətdə yaşayıram, həkimlər deyir, zaman lazımdır.

Bir müddətdən sonra yenə əməliyyat olunmalıyam. Sol gözüm görmür, sağ hissəmdə bəzi sinirlərimin fəaliyyəti bərpa olunmayıb. Birinci qrup müharibə əliliyəm. Amma Allaha min şükür, dövlətimdən heç bir narazılığım yoxdur. Xüsusən də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən çox razıyam. Hospitalda müalicə vaxtı bizə xüsusi diqqət, qayğı göstərib, müalicə prosesimiz daim onun nəzarəti altında olub. Mənə lazım olan hər cür qayğı göstərilib.

Bu savaşda iştirak etdiyim üçün çox qürurluyam. Ali Baş Komandan İlham Əliyevə nə qədər minnətdarlıq etsək, azdır. Çünki Baş sərkərdəmiz mənim doğma yurdum Ağdamı, Kəlbəcəri, Laçını bir güllə atmadan azad etdi. Əgər həmin ərazilərdə savaş olsaydı, çox itkilər verərdik. Amma İlham Əliyev düşməni məcbur etdi ki, bu torpaqlardan rədd olsun. Yəni Ermənistan Azərbaycan Prezidentinin diplomatiyası qarşısında diz çökdü və Baş sərkərdəmiz Azərbaycan xalqının xilaskar lideri kimi adını tariximizin şanlı səhifəsinə yazdı.



*Qalib dövlətin qalib əsgəri kimi hər zaman Prezidentimlə, dövlətimlə və qədirbilən xalqımla qürur duyur, fəxr edirəm.*









Səndən ötrü can verməyə cümlə hazırız,
Səndən ötrü qan tökməyə cümlə qadiriz!..



◆ Vətənim Azərbaycandır



# Şuşanın Mehrabı

## Savaş meydanında yaralandı, amma son nəfəsinədək döyüşüb Zəfər sevincini cənnətdə yaşadı

"Beşnəfərlik qrupu məhv etmişik. Birini yaralamışıq, əsir aparırıq, bundan xeyli məlumat alacağıq, öyrənəcəyik ki, digər qruplar haradadır?", - deyib düşmən hərbçisini kürəyində daşımışdı …

"Erməni "BMP"sini ələ keçirmişəm, işə salmışam, bunu, öz bölmələrimiz tərəfə aparacağam", - söyləyib içi silahlarla dolu zirehli texnikanı da işlək vəziyyətdə hərbi qənimət kimi götürmüşdü…

"Terminator" ləqəbli, Xüsusi Təyinatlı Qüvvələrin baş giziri, Vətən müharibəsində son nəfəsinədək döyüşərək Qarabağın döyünən ürəyini - Şuşanı düşməndən alan igidlərdəndir Mehrab Niftəliyev.

Bu, bir həqiqətdir ki, Birinci Qarabağ



müharibəsində olduğu kimi, 44 günlük Vətən savaşında da Azərbaycan çoxkonfenssiyalı, multikultural ölkə olduğunu, bütün millətlərin bu məmləkətdə mehriban, sülh içində yaşadığını bir daha təsdiqləmiş oldu. Çünki döyüş meydanında bu məqəddəs torpaqda böyüyən türk də, talış da, tat da, ləzgi də, rus da, avar da, yəhudi də, kürd də "Vətən, sənə canım fəda" deyərək silaha sarıldı və əsl qəhrəman kimi savaşıb canlarından da keçdilər...

Hər bir çətin şəraitdə istənilən döyüş tapşırığını cəld, sürətlə yerinə yetirən xüsusi təyinatlıların çevik döyüşçüsü, milliyyətcə tat olan Mehrab Niftəliyev də o qəhrəmanlardan biri idi...

### Xüsusi təyinatlı kəşfiyyatçı-istehkamçı "terminator"

Bir vaxtlar təkcə doğulduğu Qubanın Qam-qam kəndində mərd, igid oğul kimi tanınan, indi isə Azərbaycanın bütün gəncliyinə örnək olan Mehrabın keçdiyi döyüş yolları bəlkə də böyük bir romana sığmaz. Qəhrəmanın həyat və döyüş yolu barədə təkcə ailə üzvlərinin söylədikləri bunu deməyə əsas verir.

Mehrabla hər zaman qürur duyan valideynləri ilə böyüyüb boya-başa çatdığı Qam-Qam kəndinə səfərimiz zamanı görüşüb söhbətləşdik. Amma, nədənsə, kəndə daxil olanda Mehrabın yaşadığı evi tapmaqda bir qədər çətinlik çəkdik. Çünki kəndin hər evində, hər yerində Mehrab görünürdü. Divarlardan asılan şəkillər, qapıda dalğalanan bayraqlar "burada yetişib o qəhrəman" - anlamına gələrək insana gəl-gəl deyirdi.



Kim bilərdi ki, bir vaxtlar kəndin enişli-yoxuşlu küçələrində "dava-dava" oynayan kiçik bir oğlanın əlindəki oyuncaq tapança İkinci Qarabağ savaşında odlu silaha çevrilərək düşmənə hədəflənəcək. Necə bilmək olardı ki, bir gün Mehrab işğal altındakı torpaqlarımızın azadlığı üçün o yurdlara ilk ayaq basan qəhrəmanlardan biri olacaq. Azərbaycanın bütövlüyü naminə cismini də elə Şuşa torpağına əmanət edib müqəddəs zirvəyə ucalacaq…

Qısa arayış - Niftəliyev Mehrab Söhrab oğlu 1985-ci il mayın 13-də Qubanın Qam-qam kəndində anadan olub. O, Mübariz Abdullayev adına Qam-qam kənd orta məktəbində təhsilini başa vurduqdan sonra 2003-cü ildə müddətli hərbi xidmətə yollanıb. Hərbi xidmətdə olarkən Xüsusi Təyinatlı Qüvvələrə cəlb edilib və kursu başa vurduqdan sonra 2005-ci ildən XTQ-nin döyüşçüsü kimi Vətənə xidmətini davam etdirib. Həmçinin o, "Qafqaz qartalı" və "EFES" kimi yüksəksəviyyəli hərbi təlimləri uğurla tamamlayaraq kəşfiyyatçı-istehkamçı kimi də ixtisaslaşıb.

### Arzusunda olduğu peşəni çox erkən yaşlarından seçmişdi

Mehrab ailənin ilk övladı idi. Uşaqlıq illərini xatırlayan şəhidimizin atası Söhrab Niftəliyev üçün həmin anları dilə gətirmək bir göz qırpımında oldu. Sanki o, hər gün xəyalında övladından geriyə qalan anıları ilə yaşayır və illər keçməsinə rəğmən, həmin duyğuları ilk günkü kimi xatırlayırdı. Və anidən sözə başlayır:



"Mehrab da hər bir uşaq kimi gələcəkdə arzusunda olduğu peşəni çox erkən yaşlarından seçmişdi. Ancaq məqam yetişəndə fikrindəki ciddiyyəti məni çox təəccübləndirmişdi. İllər keçsə də, eyni amalda olmasından və ardından vətənə xidmətə yollanaraq sonradan ordu sıralarında qalmaq istəyindən azca da olsa narahatlıq keçirmişdim. Lakin onu fikrindən döndərə bilməzdim, çünki Mehraba arzularının arxasınca getməyi mən öyrətmişdim".

Gənclik illərində Mehrabın ömür yolunda yeni səhifə açılır. O, bəşərə verilən ən gözəl hisslə - sevgi ilə yaşamağa başlayır və bu məhəbbət onu Vüsalə Niftəliyeva ilə qovuşdurur. Tanışlıq hekayələrindən bəhs edən Vüsalə xanım deyir ki, Mehrabla qarşılaşdığını hər zaman gözəl bir təsadüf hesab etsə də, birlikdə keçən illərdə və onun qoyub getdiklərində öz missiyasını indi daha yaxşı anlayır: "Mehrabla toyda rastlaşmışdıq. Həmin vaxt Mehrabın qardaşı Mehracla eyni kollecdə oxuyurdum. Bir dəfə Mehrac məni bacısının toyuna dəvət etdi. O şad gündə böyük bir sevginin də təməli qoyuldu. 2008-ci ildən Mehrabla bir yolda addımlamağa başladıq".

Vüsalə xanım Mehrabla tanış olanda hərbçilərin necə çətin bir həyatı olduğunu bilsə də, bunu gözə alıb: "12 ildə bircə Mehrabın mənəvi yoxluğu ilə, özəl günlərdə, bayramlarda yanımızda olmaması ilə sınanırdıq. Ancaq işdən evə qayıtdığı zaman mənə və övladlarına elə



xüsusi qayğı ilə yanaşırdı ki, saniyələr içində hər şeyi unudub dünyanın ən xoşbəxt insanlarına çevrilirdik. Sərt xarakteri olmasına baxmayaraq, Mehrab qapıdan içəri girən andan tamamilə fərqli bir insan olurdu. O, uşaqlarına dost, mənə əsl yoldaş idi..."

### "Sənin gözyaşlarını görmək istəmirəm"

Mehrab dəfələrlə çətin təlimlərdə olduğundan daim təhlükə qarşısında idi. O, 2019-cu ildə də hərbi təlimlərdən birinə qatılıb. Təlim zamanı baş və boynundan xəsarət aldığından xəstəxanaya yerləşdirilib.

O anları xatırlayan Vüsalə Niftəliyeva söyləyir ki, həmin gün qayıtmalı olduğu saatdan artıq keçmişdi: "Bundan narahat olub Mehraba zəng etdim. Ancaq zəng çatmadı. O, harada olursa-olsun hər zaman imkan tapıb mənimlə əlaqə saxlayırdı. Sonradan xəsarət aldığını öyrənib xəstəxanaya yollandıq. Mehrabın çarpayıda sarıqlı vəziyyəti ilə qarşılaşanda çox sarsıldım".

Dizlərini yerə qoyub onu möhkəm qucaqlayıb ağlayan Vüsaləni Mehrab qaldıraraq qulağına bu sözləri pıçıldayıb: "Sənə bircə söz deyəcəm, bunu qulağında sırğa elə. Heç vaxt ağlama. Mən sənin göz yaşlarını görmək istəmirəm".

Niftəliyevlər ailəsinin ilk övladı Ləmandır. 12 yaşı olmasına baxmayaraq, Ləman sanki birömürlük xatirlərini sinəsinə toplayıb və onlara bərk-bərk sarılıb. Gözlərində atasının göz rəngini daşıyan balaca qızcığaz deyir ki, atası onun ən yaxın dostu olub. Onunla keçirdiyi zamanların həsrətində olsa da, şəhid atasının arzularını gerçəkləşdirmək üçün tələsir.

11 yaşlı Sənan isə atasının yolunu gedəcəyini, hərbçi olacağını qarşısına məqsəd qoyub. 6 yaşlı Kamran da hər getdiyi yerdə, hər gəzdiyi parkda atası ilə birgə keçirdiyi günləri dilə gətirir. Kiçik olsa da, hər şeyi çox yaxşı xatırlayır.

### Son görüş, axırıncı şəkil

İyul ayının 17-si axırıncı dəfə Mehrab öz doğma yurduna Qubaya gəlir. Anası Xalidə xanım deyir ki, təlimdən qayıdan zaman yolüstü onları da ziyarətə gəlmişdi: "Həmin vaxt elə ocaqda isti xörək bişirdi. Nə qədər desəm də, oğul, gəl əyləş sənə bir yemək verim, razı olmadı. Elə dedi ki, yox, ana yoldaşlarım məni gözləyir, tələsirəm, gəldim ki, sizə bir baş çəkim. Hal-əhval tutduqdan sonra atasına da, mənə də söylədi ki, gəlin, bir şəkil çəkdirək, xatirə qalsın. Elə o an söylədim ki, ay bala şəkil nədir axı, çoxdur bizim birlikdə şəkillərimiz. Gəlmisən, gəl, 5 dəqiqə otur söhbət edək. Dedi yox, ana, sən heç o şəkillərə bir dəfə də baxmamısan, ancaq bu şəklimizə həmişə baxacaqsan".

Sanki Mehrab hiss etmişdi ki, bu onun ana, atası ilə çəkdirdiyi son şəkil olacaq. Atası deyir ki, onlar valideyn ola-ola, sən demə, heç Mehrabı tanımayıblar: "Onun dostları, sinif yoldaşları ilə danışanda barəsində eyni fikri səsləndirirlər. Sanki o, bizim tanıdığımız Mehrab deyildi. Onun içində nə qədər vətən sevgisi, torpağa, millətə, bayrağa məhəbbət var imiş, bundan xəbərsiz olmuşuq. Bu yaxınlarda Şuşaya getmişdim. Cıdır düzünü, o sıldırım qayaları öz gözlərimlə görəndə oğlumun, onun döyüş yoldaşlarının hansı çətinliklərdən keçərək Şuşanı aldıqlarının canlı şahidi oldum. İndi daha yaxşı anlaya bilirəm ki, canavar kimi igidlərimiz haqq naminə nələrə sinə gəriblər".

Mehrab Niftəliyevdə qeyri-adi bacarıq var idi. Onun üçün bu, mümkün deyil, bacarmaram anlayışı mövcud deyildi. Döyüş yoldaşları da Mehrabdan danışarkən söyləyirlər ki, onun eləyə bildiklərini bizim heç birimiz bacarmırdıq. Sanki o, bu ruhda doğulmuş, bu ruhda da yaşayırdı.

Övladları ilə isə son görüşü sentyabrın 19-da olub. Vüsalə xanım bildirir ki, həmin gün birlikdə keçirdikləri sonuncu gün olub: "Dəniz kənarında nahar etməyə getmişdik. Həmingünkü söhbətimiz sanki gələcəyin ssenarisi idi. O, müharibədən danışır, vəsiyyətlər edir, uşaqlarımızla



bağlı planlarını dilə gətirirdi. Sadəcə, susmuş halda Mehrabı dinləyirdim. Danışığını bitirəndə isə bircə onu deyə bildim ki, sən çox güclüsən, mən hər zaman səni gözləyəcəm".

Bir neçə dəfə belə danışıqları olduğundan Vüsalə Niftəliyeva onun dediklərinə inanmaq istəmir və deyilənlərin ciddiyyətinə əhəmiyyət vermir, qorxusunu yaxına buraxmamaq üçün Mehrabın geri dönəcəyinə də özündə əminlik yaradır. Çünki Mehrab soyuqqanlı, fiziki cəhətdən güclü olduğu kimi, iradəsi də möhkəm idi. Onun hər zaman səsləndirdiyi fikir o olardı ki, geriyə baxıb kədərlənmək, ağlamaq, vaxt itirmək yox, irəliyə baxıb addımlamaq lazımdır.

Mehrabın son danışıqlarını xatırlayan Vüsalə xanım kövrək bir halda həmin anlara yenidən qayıdır: "Oktyabrın 31-i Mehrabdan zəng gəldi. Dedi ki, çox danışa bilməyəcəm, amma bir xahişim var. Əvvəla, özünə yaxşı bax, sağlamlığına diqqət elə ki, uşaqlarımızın qeydinə də qala biləsən. Bir də səndən istəyim övladlarımızı xalqına, vətəninə xidmət eləyən şəxsiyyətlər kimi böyütməyindir. Onlar sıradan bir peşə sahibi olmamalı, millətinin daim yanında olan vətəndaşlar olmalıdırlar deyib dəstəyi asdı. İndi isə Mehrab mənim qəlbimə axan göz yaşlarımdadır, Mehrab mənim danışdıqlarımda deyil, susduqlarımdadır".

### Düşmənin 70-ə yaxın canlı qüvvəsini məhv edən qəhrəman

Mehrab Niftəliyev hələ Vətən müharibəsindən əvvəlki vaxtlarda hərbi xidmət yolunda bir sıra uğurların sahibi olub. O, bir çox döyüş bacarıqlarına yiyələndiyindən və xüsusilə də kəşfiyyatçı-istehkamçı kimi formalaşdığından erməni dilini də əla bilirdi. 2016-cı ildə Aprel döyüşlərində göstərdiyi şücaətə görə də fərqlənib. Qüsursuz xidmətlərinə görə isə dəfələrlə medal və diplomlarla təltif edilib.

Vətən müharibəsi başlayan gündən isə ön cəbhənin əsas qəhrəmanlarından birinə çevrilib. Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Xocavənd, xüsusilə də Şuşa uğrunda gedən döyüşlərdə cəsarətlə savaşan Mehrab Niftəliyev düşmənin 70-ə yaxın canlı qüvvəsini, postlarını məhv edib və hərbi texnikalarını, silah-sursatlarını sıradan çıxarıb, bəzilərini isə qənimət kimi ələ keçirib.

İkinci Qarabağ müharibəsinin son döyüşləri Şuşa uğrunda gedirdi. Həmin vaxt qürur qalamız olan şəhəri düşməndən təmizləmək uğrundakı döyüş əməliyyatları bir neçə istiqamətdə aparılırdı. Daşaltı, Laçın və Xankəndi istiqamətlərindən irəliləyən xüsusi təyinatlılar düşmənlə üz-üzə savaşırdı. Qalaya yaxınlaşan zaman



artilleriya mərmisindən Mehrab ayağından yaralanır...

7 Noyabr 2020-ci il... Gecə saatları idi. Mehrab yaralanmış və bənizi solğun vəziyyətdə uzanmışdı. Şəhərin açılmasını gözləyirdi. O, artıq Şuşanın alınmasında əvəzsiz rolu olan qəhrəmanlardan birinə çevrilmişdi. Buna görə həddindən artıq sevincli idi, fəqət azca qəzəbi də onu dinc buraxmırdı. Ona görə qəzəbli idi ki, tale ona yazdığı tarixə son imzasını atmağı nəsib etməmişdi. Çünki son arzusu özü ilə birgə gətirdiyi bayrağı Şuşaya sancmaq idi…

Məşriqdən doğan günəş artıq səhərin açıldığından xəbər verirdi. Bütün gecəni yaralı vəziyyətdə keçirən Mehrabın isə səbri tükənirdi. Bəlkə də, həyatında yaşadığı ən uzun gecə idi. Açdı gözlərini, baxdı ətrafa, bircə döyüş yoldaşından onu soruşdu: Şəmsəddin, bayrağı sancıblarmı Şuşaya? Elə anındaca cavab gəlir. Hə, qardaş, bayrağımız Şuşada dalğalanır…

Bu cümlədən sonra simasına bir rahatlıq qondu. Artıq şəhidlik zirvəsinə ucalmaq olardı. Son iş də tamamlanmışdı. Qarabağın baş tacı Şuşada 30 ildən sonra bayrağımız dalğalanırdı. İndi rahatlıqla gözləri yumub əbədiyyətə qovuşmaq olardı və belə də oldu...

Noyabrın 8-i Şuşa artıq azad idi. Bu tarixi gündən sonra Mehrab Niftəliyevin nəşi Sumqayıt şəhərinə gətirilərək Şəhidlər xiyabanında torpağa tapşırılır.

Prezident İlham Əliyevin sərəncamı ilə ölümündən sonra Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülür. Bundan başqa, dövlət başçısının digər sərəncamları ilə "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunur.



*Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş Vətən müharibəsi qəhrəmanlarının və Azərbaycanın Milli qəhrəmanlarının adlarının əbədiləşdirilməsini təmin etmək məqsədilə Quba Şəhəri Texniki Təmayüllü Liseyə və Quba şəhərinin küçələrindən birinə Vətən Müharibəsi Qəhrəmanı Mehrab Söhrab oğlu Niftəliyevin adı verilib.*

***Aydan XƏLİLOVA, "Azərbaycan"***

# Şəhid operator

O, torpağına bağlı vətən sevdalısı idi. 1989-cu il avqustun 29-da Qubadlının Dondarlı kəndində anadan olmuşdu. 4 yaşında isə taleyinə məcburi köçkünlük həyatı yaşamaq yazılmışdı. Bu səbəbdən 1993-cü ildən ailəsi ilə Sumqayıtın Hacı Zeynalabdin Tağıyev qəsəbəsindəki hərbi şəhərcikdə məskunlaşmışdı.



Söhbət 2021-ci il iyunun 4-də Kəlbəcərdə mina partlayışı nəticəsində şəhidlik zirvəsinə ucalan Azərbaycan Televiziyasının operatoru Sirac Abışovdan gedir. Xatırladaq ki, həmin gün Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində çəkiliş qrupunun üzvlərini aparan nəqliyyat vasitəsi tank əleyhinə minaya düşmüşdür. Nəticədə AzərTAC-ın müxbiri Məhərrəm İbrahimov, AzTV-nin operatoru Sirac Abışov və Kəlbəcər RİH başçısının Susuzluq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsinin müavini Arif Əliyev həlak olmuş, 4 nəfər isə yaralanmışdı.

Siracın ailə üzvləri hələ də onun yoxluğuna inana bilmirlər. Atası Abış kişinin gözləri hələ də yol çəkir. O, danışmaq istəsə də, qəhər boğduğundan hisslərini ifadə edə bilmədi. Sirac ailənin ilk şəhidi deyil. Onun dayısı Həmzə Adıyev 1994-cü ildə vətən uğrunda gedən savaşda şəhid olub.

Ömrünü övladlarının yolunda şam kimi əridən Azadə Abışova oğlu Siracın da dayısı Həmzə kimi mərd, vətənpərvər olduğunu deyir. Sirac düşmənə qarşı öz kamerası ilə döyüşürdü. Anası oğlu ilə hər gün danışırmış: "Demək olar ki, hər gün zəngləşirdik. Həmin hadisə olan günü axırıncı mesajı saat 10-a işləmiş gəlib. Sirac çox ailəcanlı, həssas, ataya-anaya bağlı övlad idi. Razı olmurdu ki, biz ondan nigaran qalaq. İmkan düşən kimi salam da olsa, yazırdı ki, nigaran qalmayaq".

Sirac Azadə xanımın həm də sirdaşı idi. Ana sevimli oğlu ilə həmişə dərdləşərdi: "Sirac mənim sirdaşım idi. Çox söhbətlərimi onunla paylaşırdım. Həssas idi. Müharibə başlayanda evdə olanda oturardı yanımda. Əlimdən tutardı ki, şəhidlər haqqında veriliş, reportaj olanda həyəcanlanmayım. Kanalı dəyişməzdi. Deyirdi ki, baxın. Çəkirlər ki, hamı tanısın bunları. Əlimi alırdı əlinə, bir qolunu da boynuma dolayırdı. Susurdu, amma bu susqunluq çox şey deyirdi. Ürəyindən keçənləri hiss edirdim".

Şəhidin qardaşı Şirzad da operatordur. O, Siracın 7 aydır ki, işğaldan azad olunmuş torpaqlarda peşə fəaliyyəti ilə məşğul olduğunu, düşmənin vandallığını kameranın yaddaşına köçürdüyünü bildirir. Deyir ki, Sirac sonuncu hadisədən öncə də təhlükə ilə rastlaşıb. Lakin qismət elə gətirib ki, çəkiliş qrupu bu təhlükədən qurtula bilib. Şirzad qardaşı ilə son görüşünü belə xatırlayır: "Ramazan bayramında gəlmişdi, bayramdan sonra getdi. Ondan 5-6 gün sonra bizim rayonun - Qubadlının Dondarlı kəndindəydi. Biz də ordaydıq. Qardaş itkisini yalnız qardaşını itirənlər bilər", - deyə Şirzad sözünü axıra çatdıra bilmədi. Qəhər boğurdu onu.

Sirac yalnız ailəsinin sevimlisi olmayıb. Qohumlarının qəlbində də xoş xatirələr, unudulmaz izlər buraxıb. Zaur Adıyev deyir ki, Sirac hər kəslə öz dilində danışan idi: "Bizim nəsildə elə bir insan yoxdur ki, Siracla həm yoldaş, həm də dost olmasın. Yəni bunu böyükdən-kiçiyə kimi hər kəs deyə bilər. Çünki o, hamı ilə öz dilində danışmağı bacaran birisi idi. Amma çox təəssüf, Sirac öz şəhadəti ilə bizim sıralarımızı tərk elədi".

Sirac ailəli idi, Özgür adlı oğlu vətənə əmanət qalıb. Bütün şəhidlərimiz kimi, onun da xatirəsi yaddaşlarda əbədi yaşayacaq, peşəkar mətbuat işçisi kimi gördüyü işlər heç vaxt unudulmayacaq. Abışov Sirac Abış oğlu Prezident İlham Əliyevin imzaladığı sərəncamla 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Arzu Rəhimovun əmri ilə "Hərbi vətənpərvərlik tərbiyəsində xidmətlərə görə" medalı ilə təltif edilib. Türkiyə Xəbər Video-operatorları Cəmiyyəti tərəfindən Məhərrəm İbrahimov və Sirac Abışovun adına xüsusi mükafat təsis olunub. Sirac Abışovun və Məhərrəm İbrahimovun adları "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin ərazisində Azərbaycan mətbuatının şəhidlərinin xatirəsinə yaradılmış memorial abidə kompleksinin anım lövhəsinə həkk olunub, adına mükafat təsis edilib. 22 İyul - Milli Mətbuat Günündə Prezident İlham Əliyev iki şəhid jurnalistin - AzərTAc-ın əməkdaşı İbrahimov Məhərrəm Əli oğlunun və AzTV-nin operatoru Abışov Sirac Abış oğlunun ailələrinə mənzil hədiyyə edib.

***E.YƏHYAYEV***

# Hərbi zəfərin diplomatik təminatı

**Xalqımızı 44 günlük Vətən müharibəsindəki tarixi qələbəyə gətirən böyük və şərəfli yolda, torpaqlarımızın işğaldan azad edilməsində Azərbaycan Prezidenti İlham Əliyevin illər boyu səbirlə, təmkinlə, məqsədyönlü şəkildə apardığı müstəqil xarici siyasət kursunun misilsiz rolu oldu.**

Bu kurs böyük Zəfərimizdən sonra da davam edir və Azərbaycanın bu qələbə ilə regionda yaratdığı geopolitik reallıqların beynəlxalq aləmdə qəbul olunmasında, haqlı mövqeyimizin dəstəklənməsində, Cənubi Qafqazın gələcəyi üçün yeni perspektivlərin açılmasında çox mühüm əhəmiyyət kəsb etməsi danılmazdır. Dövlətimizin başçısının həyata keçirdiyi müstəqil siyasətin nailiyyətləri sayəsində bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan dövləti həyata keçirdiyi düşünülmüş siyasətlə beynəlxalq aləmdə zəngin potensiala malik ölkə kimi nüfuz qazanıb. Artıq müstəqil xarici siyasət milli ideologiyamızın mühüm prioritetidir və ölkəmiz aparılan islahatlarda bu prioriteti daim nəzərə alır.

## Regionda yeni dönəm başlanır

Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin zamanında müəyyən etdiyi çoxşaxəli, müstəqil xarici siyasət kursunu ölkəmizin və xalqımızın milli maraqlarına uyğun şəkildə həyata keçirir. Dəyişən dünyanın geosiyasi reallıqlarına əsasən çevik, təşəbbüskar davranışları ilə ölkəsinə daxili siyasətdə olduğu kimi, diplomatiyada da nailiyyətlər qazandırır. Bu siyasətin başlıca məzmunu Azərbaycanın milli dövlətçilik mənafelərinin qorunması və müasir gerçəkliklərə, yaranmış fürsətlərə uyğun şəkildə daha da inkişaf etdirilməsidir.

Prezident İlham Əliyev 30 il boyunca həll olunmamış münaqişəni hərbi-siyasi yollarla aradan qaldırdı, torpaqlarımızın düşməndən təmizlənməsinə, ərazi bütövlüyümüzün, tarixi ədalətin bərpasına nail oldu. Dağlıq Qarabağ münaqişəsinin artıq keçmişdə qaldığını, bu adda inzibati ərazi vahidinin olmadığını bizə qarşı yeni oyunlar qurmaq istəyən hər kəsə sübut etdi. Prezident İlham Əliyevin 2021-ci il 7 iyul tarixli Fərmanı əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılması ilə bu torpaqlarda həm siyasi, həm sosial-iqtisadi, həm də mədəni baxımdan yeni bir dönəmin başlandığı bütün dünya qarşısında bir daha bəyan edildi.

## Tarixi fürsətlər

İlham Əliyev tarixi Zəfərimizin böyük dövlətlər və aparıcı beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmasına, Ermənistanın yalanlarının əsaslı şəkildə ifşasına nail oldu. Azərbaycanın haqq savaşındakı bu parlaq qələbəsini ilk növbədə bizə dost dövlətlər, eyni tarixi dəyərləri bölüşdüyümüz, müasir dünya reallıqlarının bizi köklərimizə qaytarıb daha da doğmalaşdırdığı türkdilli ölkələr dəstəklədilər. Türk Şurası kimi tanınan Türk Dövlətləri Təşkilatı tərəfindən ötən ilin 12 noyabrında İstanbulda keçirilmiş VIII Zirvə Görüşündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türk Dünyasının Ali Ordeni ilə təltif olundu. Belə bir təşəbbüslə çıxış edən, Vətən müharibəsinə qədərki illərdə də, müharibə zamanı da, Zəfərimizdən sonrakı diplomatik savaşımızda da daim yanımızda olan qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan ali mükafatı cənab İlham Əliyevə təqdim etdi.

Türk Şurasına tamhüquqlu üzv olan Türkiyə, Qazaxıstan, Özbəkistan və Qırğızıstanın bu birgə qərarı Azərbaycanın öz ərazi bütövlüyünün bərpasına nail olmaqla yaratdığı tarixi fürsətlər işığında türk birliyinin formalaşması prosesinə mühüm töhfələrindən, bölgədə davamlı sülh və sabitlik üçün geniş imkanların açılmasından irəli gəlir. Bu baxımdan Azərbaycanın qazandığı möhtəşəm Zəfər daha böyük geopolitik məna daşıyır və bölgədə beynəlxalq əməkdaşlıq, hər kəs üçün faydalı olan qlobal layihələr üçün geniş fürsətlər yaradır.

Xüsusi qeyd olunmalıdır ki, türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Onları birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər ölkələrimizin qarşılıqlı səmərəli fəaliyyətinin əsasını təşkil edir. Xatırladaq ki, Türk Dövlətləri Təşkilatına sədrlik Azərbaycana qurumun 2019-cu ilin 15 oktyabrında Bakıda təşkil olunmuş VII Zirvə Görüşündən sonra keçdi. Ötən müddət COVID-19 pandemiyası dövrünə təsadüf etsə də, bu iki ildə təşkilat çərçivəsində mövcud istiqamətlərə əlavə olaraq, səhiyyə, miqrasiya, kənd təsərrüfatı, energetika, media, prokurorluq, ədliyyə və humanitar sahələrdə yeni əməkdaşlıq mexanizmləri quruldu.

2020-ci il aprelin 10-da Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə qurumun COVID-19 pandemiyasına həsr olunmuş fövqəladə zirvə görüşü keçirildi. Dövlət başçıları bəşəriyyəti ağır sınaqlarla üz-üzə qoyan bu xəstəliklə mübarizə çərçivəsində birgə tədbirlərə dair fikir mübadiləsi apardılar. Qarşıya qoyulan hədəflər müzakirə edildi. Və yekunda Bakı Bəyannaməsi qəbul olundu.

Azərbaycanın Türk Şurasına sədrliyi dövrünün bizim üçün ən önəmli hadisələrindən biri də 44 günlük Vətən müharibəsində qələbə qazanaraq ölkəmizin ərazi bütövlüyünü bərpa etməyimizdir. Müharibə dövründə türkdilli dövlətlərin xalqları da Azərbaycana ardıcıl dəstək vermiş, ölkəmizin Zəfəri türk dünyasında birliyin və həmrəyliyin daha da gücləndirilməsində mühüm rol oynamışdır. Ölkəmizin beynəlxalq hüquqa və ədalətə əsaslanan mövqeyi Türk Şurası Katibliyi tərəfindən davamlı olaraq dəstəklənmişdir.

Türkdilli dövlətlər bu gün Azərbaycanın Türkiyə ilə birgə əsasını qoyduğu tarixi reallıqlar işığında bir araya gələrək ortaq keçmişin yaratdığı qarşılıqlı inamla, milli-mənəvi dəyərlərin gücü ilə ortaq gələcəyə doğru addımlayırlar. Regionda həyata keçirilən beynəlxalq layihələr ölkələrimiz arasında əməkdaşlığa öz töhfəsini verməkdədir. Azərbaycanın tarixi zəfərindən sonra bölgədə yaranmış yeni reallıqlar, Zəngəzur dəhlizinin açılması türk dövlətləri arasındakı bağlılığı daha da artıracaq. Əməkdaşlığımıza yeni bir nəfəs qatacaq.

Azərbaycanın sədrliyi dövründə daha da güclənmiş, qlobal proseslərin əhəmiyyətli iştirakçısına çevrilmiş Qoşulmama Hərəkatının ölkəmizə verdiyi dəstək, İslam Konfransı Təşkilatı çərçivəsində atılan uğurlu addımlar zəfər diplomatiyamızın ciddi nəticələridir.

## İnformasiya savaşı

Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm Zəfər milli birliyimizin təntənəsinə çevrildi. Həmin tarixi günlərdə bütün xalq Ali Baş Komandanla həmrəylik, birlik, əzmkarlıq nümayiş etdirdi, bütün gücü, imkanları ilə onun yanında oldu. Hamı ordu sıralarına yazılmaq üçün növbəyə durdu. Bu, yeni şanlı tarixin başlanğıcı, Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsi idi. Dövlət-xalq-ordu birliyi, Prezidentin siyasəti, xalqın liderinə olan inamı, Azərbaycan əsgərinin yüksək peşəkarlığı qarşısında Ermənistan kapitulyasiyaya məcbur oldu.

O ağır dövrdə Ali Baş Komandan təkcə sərkərdə kimi döyüşləri idarə etmirdi, eyni zamanda diplomatiya səngərində vuruşurdu. Heyrətamiz informasiya savaşı aparırdı, Ermənistanın və onun havadarlarının media təxribatlarını dəf edirdi. Bəzi ölkələr tərəfindən Azərbaycana qarşı qərəzli informasiya müharibəsinin bir an dayanmadığı günlərdə Prezident İlham Əliyev verdiyi müsahibələri, hərtərəfli, eyni zamanda soyuqqanlı cavabları ilə təxribatçıları susdurur, fakt qarşısında qoyurdu. Azərbaycanın haqlı mövqeyini çatdırır, düşmənin uydurma miflərini ifşa edirdi. Ölkəmizin ədalət uğrunda çarpışdığını bütün dünyaya tutarlı dəlillərlə göstərirdi.

44 günlük Vətən müharibəsi dövründə Prezident İlham Əliyev 30-a yaxın xarici KİV-ə müsahibə verdi. Bu müsahibələrdə dövlət başçısı Azərbaycanın ədalətli mövqeyini, müharibənin başlanma səbəblərini siyasi uzaqgörənliklə informasiya agentliklərinin nəzərinə çatdırdı. Prezident ötən ilin fevralında yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında bu müsahibələrin əhəmiyyətini belə açıqlayıb: "Müharibə vaxtı 44 gün ərzində mən 30-dan artıq müsahibə verdim, çünki buna ehtiyac var idi. Mən dünyaya mesajımızı çatdırmaq istəyirdim, mən həqiqəti və mövqeyimizi dünyaya çatdırmaq istəyirdim. Hər gün mən bəyanatlar verirdim, Azərbaycan xalqına müraciətlər edirdim. Çünki buna ehtiyac var idi, xalqımızın buna ehtiyacı var idi, ordumuzun buna ehtiyacı var idi. Bilirəm ki, mənim həmin o müraciətlərim və mesajlarımın ümumi qələbəmizdə böyük rolu olmuşdur".

Rusiyanın "Rossiya-1, "Pervıy", RBK televiziya kanalları, "Ria Novosti", "TASS" və "İnterfaks" agentlikləri, Türkiyənin "TRT Haber", CNN-Türk, "Haber Global", "Haber Türk", NTV, "A Haber" televiziyaları, Fransanın "Sky News", "France 24" televiziyaları, "Figaro" qəzeti, Almaniyanın ARD televiziyası, Yaponiyanın "Nikkei" qəzeti, ABŞ-ın "Fox News" televiziyası, İtaliyanın Rai-1 televiziyası və "La Repubblica" qəzeti, İspaniyanın EFE informasiya agentliyi, habelə dünyada yüz milyonlarla izləyiciləri olan "Əl-Cəzirə", "Əl-Ərəbiyə", "Euronews", "CNN International", "BBC News" televiziya kanalları kimi aparıcı media qurumlarının tanınmış jurnalistləri Prezident İlham Əliyevin məntiqli, faktlar əsasında səviyyəli cavabları, yüksək təfəkkürü qarşısında susur, heyranlıqlarını gizlədə bilmirdilər. Qətiyyətli siyasi rəhbərə və dövlət başçısına beynəlxlaq marağın yüksək olması bundan irəli gəlirdi. Müharibə zamanı belə bir marağın xüsusilə yüksək olması tam məntiqlidir. Heç bir dövlət başçısı müharibə zamanı çoxlu sayda aparıcı KİV-in maraq dairəsinə düşməyib. Bu baxımdan Prezident İlham Əliyevə müsahibə üçün dünyanın bir çox tanınmış media qurumlarının müraciət etməsi ilk növbədə Azərbaycanın dövlət başçısının nüfuzlu lider olmasından irəli gəlir. İlham Əliyevin apardığı müstəqil siyasətdən, müasir çağırışlara uyğun çevik qərarlar verərək onların zamanında həyata keçirmək əzmindən, vəziyyətlərə hazırlıq və imkanlardan istifadə məharətindən, eyni zamanda qonşularla sıx faydalı əməkdaşlıq, sülh, bir-birinin ərazi bütövlüyünə, dövlət maraqlarına hörmət arzusundan yaranmış bu reallıq əksər dünya dövlətləri tərəfindən rəğbətlə qarşılanır.

Azərbaycan Prezidenti bu savaşın da qalibi oldu! Hər sözü, kəlməsi ilə... Mövqeyini bildirdi, xalqımızın ürəyindən xəbər verdi. İnsanlarımızın milli birliyindən, vətəndaşlarımızın Müzəffər Komandanına olan sarsılmaz dəstəyindən aldığı güclə, inamla həm döyüş meydanındakı düşmənlərimizi, həm də beynəlxalq siyasi arenalardakı, media qurumlarındakı bədxahlarımızı zərərsizləşdirdi. Azərbaycanın haqq işinə qərəzli yanaşanları elə haqqın dili ilə susdurdu.

## Sülhə sadiqlik

Azərbaycan 10 noyabr üçtərəfli Bəyanatın şərtlərinə uyğun olaraq üzərinə götürdüyü bütün öhdəlikləri vaxtından əvvəl və yüksək səviyyədə yerinə yetirmiş, münaqişənin başa çatması anından sülh tərəfdarı olduğunu, dinc yanaşı yaşamaq prinsipinə sadiqliyini bütün dünyaya nümayiş etdirmişdir.

Məlum olduğu kimi, 10 noyabr Bəyanatı Ermənistanın faktiki kapitulyasiya aktı idi. Ərazilərimizi təxminən 30 ilə yaxın müddətdə işğal altında saxlayan, daim sülh danışıqlarından, məsələni insan itkilərinə yol vermədən dinc yolla nizama salmaq üçün bütün təşəbbüslərdən yayınan Ermənistanın bu biabırçı məğlubiyyətindən sonra Azərbaycan da eyni cür davranıb danışıqlardan müəyyən mənada kənarlaşa, imtina edə bilərdi. Bununla belə, ölkəmiz ilk günlərdən sülh təşəbbüsləri ilə çıxış etməyə başladı. Təhlükəsizlik prinsiplərinə, bölgədə əmin-amanlığın, davamlı inkişafın bərqərar olması arzusuna hər zaman sadiqliyini nümayiş etdirdi. Bunun özü nadir haldır ki, qalib dövlət bütün ordusunu darmadağın edib kapitulyasiya sənədinə qol çəkmək məcburiyyətində qoyduğu ölkəyə sülh təklif edir, müharibə zamanı on minlərlə üzvü fərarilik edərək cəbhə bölgəsindən qaçan Ermənistan cəmiyyətini, nəhayət ki, ağıllanmağa, saxta miflərdən əl çəkməyə, yanlışlarını etiraf edib sülh prinsipləri ilə razılaşmağa, əməkdaşlıq təşəbbüslərinə qoşulmağa çağırır.

Hazırda Avropa İttifaqının və Rusiyanın vasitəçiliyi ilə aparılan sülh danışıqları prosesində ilk növbədə iki dövlət arasında sərhədlərin delimitasiya və demarkasiyası, iqtisadi-nəqliyyat kommunikasiyalarının bərpası, eləcə də Zəngəzur dəhlizinin açılması, minalanmış ərazilərin dəqiq xəritələrinin Azərbaycana verilməsi, həmçinin Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanması məsələsi gündəmdədir. Hələlik danışıqlarda tam arzuedilən nəticə əldə olunmasa belə, proseslərin ümumi axarı müzakirələrin konstruktiv məcrada davam etdiyini və Azərbaycanın bu məsələdə də qarşıya qoyduğu hədəflərə əvvəl-axır nail olacağını göstərir.

Bu gün Azərbaycan regionun lider dövləti kimi bölgənin gələcək təhlükəsizliyinin, davamlı inkişafının əsas təminatçısıdır. Bu baxımdan Azərbaycanın sülhün, əmin-amanlığın əldə edilməsi imkanlarına ədalətli baxışı, irəli sürdüyü təkliflər həlledici olmalıdır. Ermənistanın sülh əldə olunması üçün Azərbaycanın irəli sürdüyü beş təməl prinsipə razılaşması diplomatiyamızın mühüm nailiyyətlərindən xəbər verir. Bu prinsiplərin məzmunu Azərbaycan Prezidentinin tarixi qələbəmizdən sonra da bu məsələ üzrə diploimatik fəaliyyəti nə qədər dəqiqliklə, ədalətli və beynəlxalq hüquq normalarına uyğun şəkildə apardığını, dövlətimizin haqlı mövqeyini dünya ictimaiyyətinə qəbul etdirdiyini göstərir.

Azərbaycanın Ermənistana təklif etdiyi prinsiplər tərəflərin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanınmasını, bu dövlətlərin bir-birilərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsini nəzərdə tutur. Dövlətlərarası münasibətlərdə tərəflərin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək də bu prinsiplərə daxildir. Bundan başqa, Azərbaycan dövlət sərhədlərinin delimitasiyası və demarkasiyasını, diplomatik münasibətlərin qurulmasını, nəqliyyat və kommunikasiyaların açılmasını, digər müvafiq kommunikasiyaların və qarşılıqlı maraq doğuran başqa sahələrdə əməkdaşlığın yaradılmasını təklif edir. Ermənistanın bu baza prinsiplərini qəbul etməsindən sonra hazırda iki ölkə bu şərtlər əsasında intensiv, substantiv və nəticəyə yönələn danışıqlar aparmaqla ikitərəfli sülh sazişinin imzalanmasına çox yaxındır.

Danışıqlar çərçivəsində əldə olunan ilkin razılaşmalar, elan edilən bəyanatlar Azərbaycanın milli maraqlarına uyğundur. Belə ki, danışıqların ümumi məzmunu dövlətlərin ərazi bütövlüyü, suverenliyi və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət, onlar arasında nəqliyyat-kommunikasiya əlaqələrinin inkişafına dəstəyin hər kəs tərəfindən qəbul edildiyini göstərir ki, Azərbaycanın da istədiyi məhz budur. Heç bir halda status məsələsi və "Dağlıq Qarabağ" ifadəsinin danışıqların predmeti olmaması, heç bir sənəddə bununla bağlı ifadələrin öz əksini tapmaması da Azərbaycan diplomatiyasının ciddi uğurlarıdır.

## Postmünaqişə həqiqətləri

Bütün bunlara paralel olaraq informasiya savaşında da Ermənistan üzərində üstünlüyün qorunub saxlanması, ermənilərin hələ də səsləndirməkdə olduqları yalanların ifşası, təxminən 30 ilə qədər çəkən işğal dövründə onların Azərbaycan ərazilərində törətdikləri vandalizm əməllərinin dünyaya göstərilməsi və ölkəmizə külli miqdarda ziyan vurmuş bu cinayətlərə görə onların ədalət mühakiməsi qarşısında cavab verməsinə nail olmaq da bu gün Azərbaycanın həyata keçirdiyi xarici siyasətin mühüm istiqamətlərindən birini təşkil edir. İşğaldan azad edilmiş bölgələrimizə mütəmadi şəkildə xarici diplomatların, ölkəmizə gələn qonaqların, beynəlxalq media qurumlarını təmsil edən jurnalistlərin səfərləri təşkil olunur, onların mövcud vəziyyəti öz gözləri ilə görüb işıqlandırmalarına, beləliklə, postmünaqişə həqiqətlərinin obyektiv şəkildə göstərilməsinə şərait yaradılır.

Ermənistanın dağıdıcı əməlləri fonunda Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq tədbirləri ilə bölgənin əsl inkişaf məkanına çevrilməsi üçün ardıcıl addımlar atır, quruculuq əzmini, regionda sülh, təhlükəsizlik məramını bütün dünyaya nümayiş etdirir.

## Azərbaycanın beynəlxalq nüfuzu daha da güclənir

Bu gün baş verən qlobal proseslər Azərbaycanın dünya üçün önəmini daha da artırır. Ölkəmizin Avropa qitəsinin enerji təhlükəsizliyinin təminatçısı statusunu gücləndirir. Prezident İlham Əliyevin son onilliklərdə böyük bir qitənin enerji təhlükəsizliyinin təmin olunması istiqamətində atdığı addımlar, irəli sürdüyü təşəbbüslər ölkəmizin beynəlxalq nüfuzunu da yüksəldir, qlobal proseslərə təsir imkanlarını da genişləndirir.

Azərbaycan qazının birbaşa Avropa bazarına çıxışını təmin edən "Cənub qaz dəhlizi" layihəsi artıq reallıqdır. Ölkəmiz nail olduğu belə qlobal təşəbbüslərlə bir tərəfdən, Avropa üçün enerji təhlükəsizliyi, enerji mənbələrinin şaxələndirilməsi və azad rəqabət imkanları yaradır, digər tərəfdən isə, istehsalçı, istehlakçı və tranzit dövlətlər arasında balansı təmin edir. Bütün bunlar enerji məsələlərindən siyasi alət kimi istifadə meyillərinin qarşısını alır.

Bu baxımdan 2022-ci ilin iyulunda Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması son illərin ən mühüm diplomatik uğurlarındandır. Dövlətimizin başçısının da bəyan etdiyi kimi, bu memorandum gələcək üçün bir növ yol xəritəsidir. Hazırda enerji təzyiqləri ilə üzləşən Avropa İttifaqı mövcud problemi minimallaşdırmaq üçün Azərbaycandan Avropa məkanına qaz nəqlini iki dəfə artıracaq. Bundan başqa, Azərbaycanın zəngin alternativ enerji potensialından istifadə ilə bağlı da genişmiqyaslı layihələr nəzərdə tutulur. Bütün bunlar beynəlxalq aləmdə Azərbaycana olan yüksək etimadı, ölkəmizin etibarlı tərəfdaş imicini göstərir.

Dövlətimiz mədəniyyət diplomatiyasını da uğurla davam etdirir, ümumbəşəri dəyərlərin qorunması və təbliği istiqamətində mühüm işlər görür, sivilizasiyalararası dialoqa, multikulturalizm ideyalarının yayılmasına əhəmiyyətli töhfələr verir, öz təcrübəsi ilə başqa ölkələr üçün örnək yaradır, bütün bunların Azərbaycanda bir həyat tərzi olduğunu bəyan edir.

Bu gün Zəfər tarixi dirçəliş tarixi ilə davam etdirilir. Torpaqlarımızda genişmiqyaslı quruculuq işləri vüsət alır. Qüdrətli ordumuzun başladığı işi, qazandığı möhtəşəm Qələbəni güclü iqtisadiyyatımız davam etdirir. Aparılan məqsədyönlü siyasət Azərbaycanın hərbi zəfərinin diplomatik təntənəsidir və xalqımız Prezident İlham Əliyevin rəhbərliyi ilə əldə edilən bütün bu nailiyyətlərlə Zəfər tarixinin davamını yazır.

***İradə ƏLİYEVA, "Azərbaycan"***



# Səngərdən kürsüyə

## Azərbaycan indi də diplomatik cəbhədə döyüşür

**Azərbaycanın erməni faşizmi üzərindəki möhtəşəm qələbəsi dünyanın bütün sülhsevər dövlətləri üçün önəmli və unudulmaz tarixi hadisədir. Ali Baş Komandanımız bu qələbə ilə adını yalnız xalqımızın tarixinə yox, həm də unikal döyüşlər aparan sərkərdə kimi dünyanın hərb tarixinə həkk etmişdir. Bu qələbə unikallığı və bənzərsizliyi ilə həm Prezident İlham Əliyevə, həm də bütünlüklə Azərbaycan Ordusuna və xalqına başucalığı gətirmişdir.**

Prezident İlham Əliyevin xarici səfərləri həmişə milli maraqlarımızın təminatı baxımından əhəmiyyətli olur. Soçidə keçirilən üçtərəfli görüşdə Paşinyan danışıqları öz maraqlarına uyğun aparmaq istəsə də, İlham Əliyev qətiyyətini bir daha ortaya qoydu. Rusiya Prezidenti ilə təkbətək görüşündə ermənilərin iddialarının artıq tarixə gömüldüyünü anlatdı: "Qarabağ münaqişəsi artıq tarixdə qalıb. O, iki il bundan əvvəl həll edilib. Buna görə də bu baxımdan burada praktiki olaraq müzakirə edilməli məsələ yoxdur. Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması isə, əlbəttə, çox ciddi addımlar tələb edən formatdır".

Həm də yəqin bu qətiyyətinə, verdiyi sözə sahib çıxdığına görədir ki, biz dövlət başçısının xarici səfərlərdə əvvəlki illərdəkindən daha fərqli tərzdə, fərqli ifadələrlə qarşılandığını görürük. Daha dəqiq desək, indi dost ölkələrdə İlham Əliyevi qalib sərkərdə kimi qarşılayırlar. Bu mərasimlərdə qələbədən danışılmasa belə, İlham Əliyevin ağlasığmaz və sürətli qələbəsinin şəninə ürəklərdə ucalan alqış sədalarını eşitmək mümkündür. Prezident kürsüsündə ömrünün 19 ilini təmkin və səbirlə "lazım gələrsə, döyüşərək torpaqlarımızı azad edəcəyik" - deyən dövlət başçısını heç də hamı həmişə başa düşmürdü. İlham Əliyevin sakit və bir qədər də emosionallıqdan uzaq soyuqqanlıqla işlətdiyi bu ifadənin arxasında nəyin dayandığı heç kimin ağlına belə gəlmirdi. Sən demə, Ali Baş Komandanımız mətin sərkərdə kimi döyüşlərə hazırlaşırmış. Torpaqları işğal altında olan bir dövlətin sıfırdan beşinci nəslin tələblərinə cavab verən ordu quruculuğu aparması kimin ağlına gələrdi ki?

Elə erməni faşistləri də bundan xəbərsiz idilər. Onlar yalnız eninə və uzununa necə "qədim və döyüşkən xalq olduqları" ilə öyünürdülər. Ona görə də Paşinyan Cıdır düzündə xanımı ilə yallı gedəndə elə sanırdılar ki, bütün Azərbaycan onlarındır. Baş nazirin başsız arvadı bizim Birinci xanımı işğal edilmiş torpaqlara "müdrik, qədim və qonaqpərvər erməni" kimi muğam dinləməyə dəvət edəndə anlamırdı ki, rişxəndlə dediyi bu sözlər az sonra həqiqət olacaq, Qarabağdan, Şuşadan yenidən muğam səsi eşidiləcək və bu səs ox kimi onun qulağına batacaq.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev fəxri qonaq kimi Əlcəzair Xalq Demokratik Respublikasının paytaxtı Əlcəzair şəhərində keçirilən Ərəb Dövlətləri Liqasının 31-ci Zirvə toplantısında iştirak etmişdir. Prezident İlham Əliyevin toplantıdakı çıxışında hər kəlməsi ilə demokratik dəyərlərin arxasında gizlənib dünyanı müharibəyə çəkmək istəyən qüvvələri necə ittiham etməsinin şahidi olduq: "…Şəhidlər memorialını, eləcə də Mücahidlər Muzeyini ziyarət etdim və gördüklərim mənə çox təsir etdi. Fransanın Əlcəzair xalqına qarşı törətdiyi zorakılığı, kütləvi qəddarlığı dünya heç zaman unutmamalıdır. Fransa yüz ildən çox bir müddət ərzində Əlcəzair xalqına qarşı çox dəhşətli müharibə aparmışdır. Bu müharibə 1,5 milyon əlcəzairlinin ölümü ilə nəticələnmişdir. Bu gün biz bu faciəni anaraq gələcəkdə belə faciələrin qarşısının alınması üçün əlimizdən gələni etməliyik".

Bəli, Qarabağ savaşı bitsə də, soyuq müharibə davam edir və ondan geri çəkilmək olmaz. Tarix tələb edir ki, düşmənə kimliyini anlatmaq üçün gərək ona keçmişini xatırladasan. Amerika yazıçısı Uilyam Folknerin maraqlı bir sözü var: "İnsanın öz keçmişindən qaçıb gizlənməsi mümkün deyil, hara getsən dalınca düşəcək və səni qarabaqara izləyəcək". Bu ifadə eyni dərəcədə dövlətlərə də aiddir.

Fransanın da öz keçmişindən qaçıb gizlənməsi mümkün deyil. Əlcəzair müstəmləkəçi fransız dövlətinin zorakılıqlar və kütləvi qətllər törətdiyi məkandır. Odur ki, Fransa beynəlxalq münasibətlərdə Azərbaycanı Ermənistanın ayağına vermək cəhdlərinə son qoyub öz keçmişini vərəqləməyə, öz cinayətlərini etiraf etməyə, üzr istəməyə borcludur.

Prezident İlham Əliyev həmin çıxışında Əlcəzair fransız müstəmləkəçilərindən necə vəhşiliklər görübsə, Azərbaycanın da erməni işğalından elə əziyyət çəkdiyini dedi, daim İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin dəstəyini hiss etdiyini bildirdi, torpaqlarımız işğaldan azad edildikdən sonra 10 min kvadratkilometrdən çox ərazimizin tamamilə məhv edildiyini, dağıdıldığını söylədi: "Bu gün Mücahidlər Muzeyini ziyarət edərkən mənə məlumat verildi ki, Fransanın işğalı zamanı fransızlar 5 milyondan çox mina basdırmışdılar. Bu isə mənə bizim eyni ilə üzləşdiyimiz, hazırda əziyyət çəkdiyimiz işğal zamanı Ermənistan tərəfindən bir milyondan çox minanın basdırılmasını xatırlatdı".

Başa düşən üçün bu müqayisə çox söz deyir.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

◆ Siyasi pamflet

# "Baş bir yana, leş bir yana"

## Üçbaşlı erməni əjdahasının təbliğat maşını necə çökür

**Erməni mənbələrini vərəqləyəndə görürsən ki, Rusiya, Fransa və ABŞ-dəki erməni diaspor təşkilatları "miatsum" deyib hönkürərək "böyük Ermənistan" uğrunda romantik cihada çıxıblar.**

Lakin o saat ortaya belə bir məzəli sual çıxır: "böyük Ermənistan" uğrunda necə döyüşürsüz ki, Qafqazda ermənilərin sayı son 30-35 ildə 3,5-4 milyondan 1,5 milyona düşüb?

Əslində, tərsinə olmalı idi axı! Nədən sayınız üç dəfə azaldı ki? Və nədən bütün ermənilər "miatsum" deyəndə Xəzərlə Qara dəniz arasındakı ərazilərə yox, ABŞ-yə, Fransaya və Rusiyaya axıb getdiniz?

Belə çıxır ki, erməni diasporu ilə Ermənistanı "böyük Ermənistan" ideyası yox, bir qədər romantik tərzdə desək, külləmə qarın fəlsəfəsi birləşdirir. İndiki Ermənistana diqqətlə nəzər salanda onu dövlətdən daha çox üçbaşlı əjdahaya bənzətmək mümkündür. Onun bədəni Qafqazda qızdırma içində qıvrılır, başları da Ermənistanın hüdudlarından kənarda - biri Rusiyada, ikincisi Fransada, üçüncüsü də ABŞ-də nalə çəkir. Amma indi bu əjdaha zavallı gündə, ayaqlar altında can verir. Həm də təkcə can vermir, Ermənistan adlı olmayan ölkəni didib gəmirir. Didib gəmirir ki, həmin olmayan ölkənin dövlətini öz vassalına çevirsin, baxmayaraq ki, artıq erməni xalqı bu diaspor təkilatlarının heç birinə güvənmir. Çünki sadə ermənilər, yəni siyasətdən uzaq xalq sülh istəyir.

Erməni diaspor təşkilatları isə yüz ildir ki, Ermənistan dövlətini öz qucaqlarına əyləşdirməyə çalışırlar. Rusiya ermənilərinin öz qaydaları var, Fransa erməniləri daha fərqli tərzdə əlləşir, ABŞ erməniləri isə etdiklərini heç kimə deməzlər. O üzdən bu gün Ermənistanın hayana və necə iməklədiyini anlamaq mümkün deyil. Baş nazir Nikol Azərbaycanla sülh müqaviləsini imzalamaq əvəzinə iki ildir gah ABŞ-yə qaçır, gah Pelosini çağırır ki, İrəvandan Bakıya barmaq silkələtsin, gah Parisə uçub Makronun boynuna atılır, gah da Rusiyada Ermənistanın "təəssüb"ünü çəkən erməniləri persona non-qrata elan edir. İndi də İranla mazaqlaşmağa başlayıb. Bu, ona görə belə deyil ki, Nikol siyasət üçün naməhrəmdir. Əksinə, bu ona görə belədir ki, Nikol, ruslar demişkən, dələ təkərin içində fırlanan kimi böyük güclərin orbitində mayallaq aşmaqdan məxsusi zövq alır.

Ermənilər uydurma erməni soyqırımını əllərində bayraq edərək həm Türkiyəyə təzyiq göstərməyə çalışır, həm də Azərbaycanda yüz illər ərzində törətdikləri vəhşilikləri ört-basdır etməklə yenidən əzabkeş xalq tituluna bürünmək istəyirlər. ABŞ-lə Fransanın birlikdə Türkiyəyə Birinci Dünya müharibəsindənqalma allergiyaları olsa da, artıq Rusiya - Türkiyə münasibətləri elə səviyyədədir ki, Qafqazda müsəlman və xristian dünyaları arasında Ermənistan kimi hiyləgər sipərə ehtiyac yoxdur.

Cəmi bir neçə gün əvvəl Paşinyan Bakı ilə ilin sonunadək sülh müqaviləsini imzalamağa hazır olduğunu bildirdi: "…biz bunu reallaşdırmaq üçün əlimizdən gələni edəcəyik". Buna baxmayaraq, Ermənistan iki ildir böyük güclərin ayağına minnətə gedir, onları Bakıya təsir göstərməyə çağırır, arada hoqqa verib əks-hücuma da keçir. Amma nədənsə ağlına gəlmir ki, bir dəfə Bakıya zəng vurub birbaşa danışıqlara başlasın. Nəzərə almır ki, artıq erməni xalqı da üç nəhəng dövlətin erməni diasporunun onun maraqlarına yox, öz bəd niyyətlərinə xidmət etdiklərini anlayır.

***Bahadur İMANQULİYEV,*** ***"Azərbaycan"***



# Şuşada bir gün...

## 28 illik həsrətin nisgili, böyük zəfərin qüruru, möhtəşəm quruculuğun mərkəzi

**Şuşaya getmək tapşırığını alanda çox sevindim. Bir anlığa mənə elə gəldi ki, Şuşa sevincimizlə kədərimizin sərhədində yerləşir. Əgər Birinci Qarabağ savaşında Şuşa işğal edilməsəydi, başımıza gələn digər bəlalar da olmazdı... Hərdən düşünürəm ki, vətənin sinəsində ürəkdir Şuşa... Ruhumuzun hər çırpıntısında bir Şuşa bəstəsi var. Hər şey Şuşa ilə başlayıb, Şuşa ilə bitir. Şuşa qələbəmizin rəmzidir! Qürurumuzun zirvəsidir! Şuşa Azərbaycan əsgərinin həyat sevgisinin vətən eşqinə qurban verildiyi müqəddəs məkandır.**



### "Keçilməz" sədlərdən keçən yol

Dünyada ən çətin şey qərar verməkdir. Elə insanlar var ki, yaşından, başından, tutduğu mövqeydən asılı olmayaraq, qərar verməkdə çətinlik çəkirlər. Şuşanı azad etmək üçün dünyanın ən ağır qərarını verməyə, cavan ömürlərindən keçməyə uf deməyən qətiyyətli insanların qəhrəmanlıq meydanı oldu bu şəhər. İndi mən canları ilə dağların keçilməz zirvələrindən çığır açıb, qanları ilə keçdikləri hər qarış torpağını müqəddəsləşdirdikləri Zəfər yolundan keçib Şuşaya tələsirəm... Hələ qabaqda Füzuli yolu var...

İlk qarşılaşdığımız ordumuzun ilk döyüş meydanı, düşmənin iradəsini qırıb, canına vəlvələ saldığı Füzulinin Qaraxanbəyli kəndi olur. Adam dəhşətə gəlir. Göz işlədikcə erməni vəhşiliyinin uzanıb gedən izlərini görürsən. Buradan başlayaraq yağı düşmən yurdumuzu yağmalayıb, külünü də göyə sovurub. Təkcə evləri yandırmayıblar, dağıtmayıblar, həm də dağıtdıqları evlərin daşını, divarlarını da güllələyiblər... Hər yerdə öz murdar izlərini qoyublar. "Keçilməz" sədlər yaradıblar. Tikməyiblər, qurmayıblar, yaratmayıblar... Görəşən kimi qazıblar, bəndlər vurub, tikanlı məftillər çəkiblər. Torpağımızı da heç sevməyiblər. Tanklarını, toplarını, texnikalarını, özlərini gizlətmək üçün torpağın bağrının başında dəliklər açıblar... Hər şeylərini illərdir pərdələməyə çalışsalar da, murdarlıqlarını, bir də bu torpağın sahibi olmadıqlarını gizlədə bilməyiblər. Həm də bu torpaqlara sahib ola bilməyəcəklərini əvvəlcədən özləri də anlayıblar. Yoxsa tutduqları, işğal etdikləri ərazilərdə tikililəri saxlayardılar. Bircə dənə də olsun kənd salardılar, bir ev tikərdilər...

Ermənilərin "keçilməz Ohanyan səddini" görəndə bir qazi ilə söhbətimiz qulağımda əks-səda verir. Qazimiz deyirdi ki, ermənilər beşqat istehkam xətti qurmuşdular. Tikanlı məftillər çəkmişdilər. Bizdən öndə Xüsusi Təyinatlı Qüvvələrimiz hərəkət edib "yol açırdılar". Onlar azad etdikləri əraziləri bizə təhvil verib irəliləyirdilər. Biz ermənilərin yarılmış ilk istehkam xəttinə çatanda qardaşlarımızın qəhrəmanlıqlarını görüb özümüz dəhşətə gəlmişdik. Ermənilərin çəkdikləri tikanlı məftillərdə bizdən qabaqda gedən döyüşçülərin qan izlərini, paltarlarının ilişib qalmış qalıqlarını, tikanlı məftillərin ucunda ət parçalarını, dərilərini görüb torpağı azad edən qəhrəmanlarımızla qürur duyurduq. Özümüz döyüşçü olsaq da, Xüsusi Təyinatlı Qüvvələrimizlə fəxr etdik.

### Zəfər yolu: qeyrət yolu, qürur yolu

Burada hər şey, ən incə detal belə mənə maraqlı gəlirdi. Yolboyu görülən işlər, nəhəng texnikaların hərəkəti, qısa müddətə tikilib istifadəyə verilmiş Füzuli Beynəlxalq Hava Limanı, bir sözlə, dövlətimizn gücünü, qüdrətini göstərən hər şey. Maşınımız sürətlə irəliləyir. Həsrətdən, həyəcandan biz bitirik, yol bitmir. Yavaş-yavaş, meşəlik, dağlıq ərazilər başlayır. Dağların yamaclarında azad olunmuş kəndlərimiz görünür. Tuğ, Tağlar, Xocalı rayonunun Çanaqçı, Xocəvənd rayonunun Edilli kəndləri, Qırmızıbazar...

Qəfildən gözüm yolun kənarındakı binanın üstünə yazılmış yazıya sataşır. "Şəhid kapitan Elçin İsmayılov, qısasın alındı". Elçin İsmayılov haqqında əvvəllər yazmışdıq. XTQ-nin qərargah rəisinin müavini olub. Döyüşə Murovdan başlayan kəşfiyyatçı kapitan Elçin İsmayılov Cəbrayılın alınmasında xüsusi qəhrəmanlıq göstərib. Ermənilərin yenidən Füzuliyə hücumunun qarşısını alarkən qəhrəmancasına şəhid olub. Göstərdiyi qəhrəmanlığa görə "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib. Tikilinin üzərindəki yazını oxuyarkən qəribə hisslər keçirdim. Düşündüm ki, döyüşçülərimiz irəlilədikcə özləri ilə şəhid olmuş döyüş yoldaşlarının ruhlarını da aparırmışlar.

Maşınımız Zəfər yolu ilə zirvəyə qalxdıqca elə bildik ki, gücdən düşür. Sanki aman çəkib yoruldum, bacarmıram deyir. Sürücüdən maşında bir problem olub-olmadığını soruşuram. "Hər şey öz qaydasındadır", - deyir. Təkrar, "Bəs səsi niyə belə çıxır" deyə soruşuram. "Yüksəkliyə çıxırıq, mühərrikin gücü çatmır" cavabını verir. Bir anlığa fikrim məni 2020-ci ilin bu günlərinə aparır. Gözlərim önündə soyuqda, qarda, qiyamətdə, qaranlıq gecələrdə düşmənin 5 addımlığından manevr edib sıldırımlar keçən, kürəyində 45 kiloqramlıq yük aparan fədakar oğullarımızın obrazı canlanır.

İlahi, vətən sevgisi bu insanlarda nə qədər yüksəkmiş. Qisas hissi bu insanlarda nə qədər güclüymüş. Bu insanlar nə qədər mətin, mübariz imiş. Ağla gəlir ki, bəlkə də bu keçilməz dağları, dərələri ötüb - getmək gücünü, qüdrətini gənclərimiz, igidlərimiz Tanrıdan alıblar. Olsun ki, İlahi güc, İlahi sevgi qəhrəmanlarımıza yol göstərib, yoldaşlıq edib. Yoxsa, dibi görünməyən bu dərələrdən keçmək, bu əzəmətli qaydalara qalxmaq, düşmənin içindən bu yolları keçib getmək olmazdı. Bu özü bir möcüzədir. İlahi qüdrət olmadan bu möcüzə baş verə bilməz.

### Dərdlərimizin şahidi, nisgilimizin ünvanı Daşaltı kəndi

Zəfər yolunun ortadan ikiyə böldüyü, vaxtı ilə tariximizin və taleyimizin ən acı və qaranlıq səhifəsini yaşadığımız Daşaltı kəndindəyik. 1990-cı illərdə Şuşanın yalnız Laçın rayonu istiqamətindən bir giriş-çıxışı var idi. O yol da ciddi təhlükə mənbəyi idi. Ermənilər Daşaltı kəndində qurduqları istehkam, orada yerləşdirdikləri terrorçu qrup vasitəsilə Şuşaya giriş-çıxışa nəzarət edir, tez-tez terror aktı törədir, bir sözlə, Şuşanı nəzarətdə saxlayırdılar. 1992-ci il yanvarın 25-dən 26-na keçən gecə yeni yaranmaqda olan Azərbaycan Ordusu tariximizə uğursuz əməliyyat kimi düşmüş "Daşaltı əməliyyatı"nı keçirir. Bu əməliyyat zaman 90 nəfər vətənpərvər oğlumuz şəhid olur. Xatırladaq ki, Vətən müharibəsindəki qələbəmizdən sonra Daşaltı kəndində kütləvi məzarlıq aşkar edilib. Həmin məzarlıqda əli, ayağı bağlı 26 şəhidin sümükləri aşkar olunaraq götürülüb.

Düşmən 44 günlük Vətən müharibəsi zamanı da hücumun Laçın rayonu istiqamətindən olacağını düşünüb Daşaltıdakı mövqeyini daha da möhkəmləndirmişdi. Hesab edirmişlər ki, Azərbaycan Ordusu Şuşanın azadetmə əməliyyatını Laçın rayonundan keçməklə Zarıslı kəndi istiqamətindən həyat keçirəcək.

Amma xüsusi təyinatlılarımız Zəfər yolu ilə gələrək döyüş əməliyyatına illərdir düşmənin yuva salıb, vəhşiliklər törətdiyi Daşaltıdan başladılar. Düşmənin Daşaltıda amansız məğlubiyyəti qəhrəmanlarımızın sıldırım qayalardan keçib Şuşaya girişinə yol açdı.

### Şuşa bir günəşdir, Şuşa bir aydır...

Bilmirəm yolboyu Səməd Vurğunun bu misraları niyə mənimlə birgə idi. Hissimin, duyğumun əlindən Səməd Vurğunun misraları tutmuşdu...

*Şuşa bir günəşdir, Şuşa bir aydır,*
*Parisə bənzərdi dağılmasaydı.*

Gəldim Şuşanı Parisdən də, dünyanın ən gözəl şəhərlərindən də gözəl gördüm. Elə bu görkəmiylə! Şuşa yenidən qurulur, yenidən dirçəlir... Şuşa yenidən boy verir... Qürurumuzun fateh yeri Şuşa!

Hər tərəfdə ulduz-ulduz Azərbaycan bayrağı parlayır. Göy üzü süd kimi ağ idi. Sanki günəş də Şuşaya baxıb gülümsəyirdi.

### 30 il əvvəl gördüyüm Şuşa

30 il bundan qabaq, aprel ayının son günlərində, Laçından keçib gəlmişdim Şuşaya. Televiziya qülləsinin yanında, Şuşanın girişində post qurulmuşdu. Bu postda, əsasən, Şəki rayonundan olan əsgərlər xidmət edirdi. Üzü Daşaltıya uzaq vuran bir top da tuşlanmışdı. Şuşa yazıq bir görkəmdə idi. Övladını "yetimlər evi"nə verib gedən atanın arxasınca ağlayan uşağa bənzəyirdi Şuşa. Yazıq bir görkəmdə idi. Kiminlə görüşüb, söhbət edirdiksə, "Şuşada əcaib oyunların getdiyindən" danışırdı. Şuşaya hər an ermənilərin hücumu gözlənilsə də, əsgərlər kütləvi şəkildə evlərinə "göndərilirdi". Ölkədə hakimiyyətsizlik, yeni yaranan orduda özbaşınalıq hökm sürürdü. Ordu siyasi oyunların alətinə çevrilmişdi. Görüşdüyümüz hər kəs Şuşada tezliklə fəlakət olacağına eyham vururdu. Hamı Şuşanın tezliklə işğal olunacağını hiss edirdi, amma bu dəhşəti dilinə gətirməyə qorxurdu. Hətta yerli sakinlər övladlarını Şuşadan çıxarmaq üçün müxtəlif yollar axtarırdılar...

Müdriklərin belə bir deyimi var: şəhərlər də insanlar kimidir. Öz talelərini yaşayırlar. O illər Şuşanın da taleyi qara yazılmışdı. Başının üstünü qara buludlar almışdı. Əgər şəhərin dili olsaydı, danışa bilsəydi "məni qoruyun, mənə xəyanət etməyin", deyərdi. "Vətəni sevən, vətən üçün canından keçən qəhrəman oğulları siyasi ambisiyanızın, hirsinizin, hikkənizin əsiri etməyin", deyərdi.

### Ermənilərin asanlıqla işğal etdikləri Şuşanı çətinliklə azadlığa qovuşdurduq

Şuşa bir zirvədir. Ucalıqdır, yüksək məqamdır! Şuşa hər bir vicdanlı azərbaycanlının sinəsində döyünən ürəkdir. Ermənilər 28 il döyünən ürəyimizi işğalda saxlaya bildilər. Nəhayət, müzzəfər Azərbaycan Ordusu zirvələdən keçib zirvəyə yol aldı. Şuşa asanlıqla işğal olunub çətinliklə işğaldan azad edildi. İgidlərimiz erməni çəkmələrinin murdarladığı Şuşanı qanları ilə təmizlədilər. Müqəddəsləşdi Şuşa. Sevgimizin, qəhrəmanlığımızın, igidliyimizn qibləsi oldu Şuşa. Bu gün Şuşa da qürurludur, bir Azərbaycan vətəndaşı olaraq biz də. Bu yüksəklikdən Xankəndi ovuc içi kimi görünür. Sanki elə ovcumuzun içindədir. Yaxınlığımda durub əlindəki uzaqgörmə cihazı ilə Xankəndiyə baxan zabitdən əlindəki cihazı mənə verməsini xahiş edirəm. Cihazın üstündəki düyməyə əl gəzdirib mənə uzadır. Buradan nəinki Xankəndinin küçələrini, evlərin eyvanlarını, hətta otaqdakı ermənilərin nə etdiklərini də asanlıqla görmək olur. Belə başa düşürəm ki, hər şey ordumuzun nəzarəti altındadır. Bunu orada yaşayan ermənilər də gözəl bilirlər. Yəqin ki, ermənilər də bizim Şuşada nə etdiyimizi görürlər. Hər gün bir boy böyüyən yeni binaları, bərpa olunan dini ocaqları, dağların sinəsi ilə uzanıb gedən gözəl yolları... Bir də ki, Azərbaycan əsgərinin qanından, canından güc alıb qürurla dalğalanan Zəfər Bayrağını.

Şuşanın təmiz, aydın səmasını, insanların üzündəki xoşbəxtlik, məmnunluq, sevinc hissini, əsgərlərimizin özlərinə inamını və Şuşanın, eləcə də Azərbaycanın daha işıqlı sabahını görüb qürur hissi ilə deyirəm: "Ey bu dövləti qüdrətləndirib, ordunu zəfərə aparan sərkərdə, Şuşa qələbəmizin ən möhtəşəm abidəsi, Sizsə qələbəmizin müəllifisiniz. O yollardan keçməyənlər bu qələbənin nələrin hesabına əldə edildiyini, bu qələbənin təminatçısının kim olduğunu duya bilməz. Ürəklərdə öz abidəsini ucaltmaq hər rəhbərə nəsib olan xoşbəxtlik deyil. Bu gün Siz öz abidənizi ürəklərdə ucaltmağı bacaran nadir tarixi şəxsiyyətlərdənsiniz".

***Elşən QƏNİYEV,*** ***"Azərbaycan"***

*Bakı-Şuşa-Bakı*

# Xarıbülbül artıq azad vətəndə çiçək açır




*"Vətən bağı" al-əlvandır,*
*Yox içində Xarıbülbül.*
*Nədən hər yerin əlvandır,*
*Köksün altı, sarı bülbül?!"*

Ürəyi dağlı, bağrıqanlı, gözüyaşlı Xarıbülbül... O da Şuşanın 28 illik işğalı dövründə nələr gördü, nələr çəkdi?! Dili olsaydı, nə deyərdi, nə danışardı... Bir igidin ömrü qədər gözü yollarda, boynu bükülü qaldı. İllər uzunu həsrət, ayrılıq dərdi çəkdi. Adına, bənzərsizliyinə, vəfasına şeirlər, mahnılar yazıldı Xarıbülbülün...

Deyirlər ki, Cıdır düzünün bu şux qamətli, əlvan libaslı səssiz nəğməkarı öz vətənindən, öz torpağından başqa yerdə bitmir. Çoxları onun yurdunu, torpağını dəyişməyə cəhd göstərib, köklü-köməcli çıxarıb başqa yerdə əkmək istəyib, amma alınmayıb. Düzdür, bəzi hallarda qismən nail olublar. Lakin o bitsə də, çiçəyin üçüncü ləçəyi olmayıb. Axı onun qeyri-adiliyi və unikallığı həm də görünüşündədir. Xarıbülbülün müxtəlif istiqamətlərə yönəlmiş üç ləçəyi açılır. Ləçəklərin başında "bülbül" pərvazlanır və onun çiynində xırdaca qoşa ləçək olur.

Xarıbülbülün mühüm xüsusiyyətlərindən biri də onda müxtəlif rənglərin həmahəng olaraq bir-birinə yansımasıdır. Eyni ləçəyin bir hissəsindəki ağ rəng ləçəyin digər hissəsində çəhrayıya çevrilir. Bülbülün sinəsində naxışlar da var. Gün vurduqca bu naxışlar rəngdən-rəngə düşür, bərq vuraraq xara parçası kimi rənglər üzərində rəqs edir. Deyilənə görə, elə adı da bu bənzərlikdən gəlir. Xara parçasına məxsus həmin əlamətlərin bu güldə olması səbəbilə ona "xara bülbül - yəni "xara paltarlı bülbül" deyilib. "Xara" sözünün xalq danışıq dilində "xarı" kimi tələffüzü isə dilimizdəki ahəng qanununun tələbi ilə bağlıdır.

Biz xarıbülbülümüzü heç vaxt unutmadıq, xoş günümüzdə də, kədərimizdə də arzuladıq, ümidlərimiz, xəyallarımız pöhrələndi, hər kəs qovuşacağımız günü bir cür, amma başqa-başqa rənglərdə xəyal etdi. Və ötən 28 ildə bəlkə də min kərə xəyalımızda Şuşaya getdik, xarıbülbülə qovuşduq.

Şuşanı necə qoyub gəlmişdiksə, sanki o andan sonra bir gün belə yaşamamışdı. Sanki bu illər ərzində Şuşanın dağlarından duman da heç çəkilmədi. Yalnız 2020-ci ilin 8 noyabrında, sonbaharda Şuşa öz ilk baharını yaşadı. Böyük Zəfərin günəşi doğdu tariximizə də, taleyimizə də.

İllərdir həsrət, nisgil, əyilməzlik rəmzi olan xarıbülbül Böyük Zəfərimizdən sonra bayram müjdəçisinə çevrildi. O, artıq şanlı qələbəmizin əlamətlərindən, nişanələrindən biri oldu.

### Xoş günlərin müjdəçisi - "Xarıbülbül" festivalı

Şuşa... Tək Azərbaycanın deyil, bütün türk dünyasının milli-mənəvi dəyərlərinin məbədi, ocağı sayılan muzey şəhər. Natəvanı, Üzeyir bəyi və neçə-neçə dahini dünyaya bəxş edən Şuşa... Sənət dühalarının beşiyi Şuşa...

Elə buna görə bizi, dəyərlərimizi, istedadımızı dünyaya nümayiş etdirən beynəlxalq musiqi festivalının da məhz Şuşada keçirilməsi və adının da xarıbülbül olması təsadüfi deyil.

"Xarıbülbül" musiqi festivalı məşhur xanəndə Seyid Şuşinskinin 100 illik yubileyilə əlaqədar 1989-cu ildən Şuşada keçirilməyə başlayıb. Festival ilk dəfə həmin ilin may ayında, xarıbülbülün çiçəklənmə dövründə keçirilib. İşğalın, Qarabağ münaqişəsinin başlaması, torpaqlarımızın düşmən əlinə keçməsilə festivalın final konsertləri Bakıdakı Respublika Sarayında keçirilib.

1992-ci ildəki IV festival mayın 15-də başlamalı idi. Tədbirdə dünyanın 30 ölkəsindən 500 nəfərin iştirakı planlaşdırılmışdı. Lakin festival mayın 8-də Şuşanın erməni silahlı qüvvələri tərəfindən ələ keçirilməsi səbəbindən ləğv edildi.

Prezident İlham Əliyev 2021-ci il 7 may tarixli sərəncamı ilə "Xarıbülbül" festivalı bərpa olundu. Torpaqlarımız azadlığına qovuşdurulandan sonra, 2021-ci il may ayının 12-14-də IV "Xarıbülbül" musiqi festivalı Şuşa şəhərində baş tutdu. Festivalın açılışında qalib sərkərdə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva, mədəniyyət, ictimaiyyət xadimləri, xarici qonaqlar iştirak etdilər.

Müzəffər Ali Baş Komandan festivalın açılışında çıxış edərək, bunun tarixi hadisə olduğunu, onun şəhidlərimizin əziz xatirəsinə həsr edildiyini, qazandığımız qələbəni qəhrəman hərbçilərimizə və Azərbaycan xalqına borclu olduğumuzu bir daha vurğuladı. Və bundan sonra "Xarıbülbül" musiqi festivalının hər il keçiriləcəyi ilə bağlı müjdə də verildi.

İllər sonra Cıdır düzündə "Bayatı-Şiraz" səsləndi. Musiqinin sədaları dalğa-dalğa ətrafa yayıldıqca sanki göyün üzü açıldı, təbiət canlandı, yeri də, göyü də bülbüllər bəzədi.

### Zəfər gülü

İtki nə qədər böyükdürsə, dərdi də, nisgili də bir o boyda çəkilməz olur. Amma biz nə bu dərdi, bu yaraları unutmadıq, nə də ona yenilmədik, əyilmədik. Qələbə böyük əzm və qəhrəmanlıq tələb edir. Azərbaycan xalqı da elə bu sarsılmaz iradə, qətiyyətlə Qarabağı, Şuşanı azadlığına qovuşdurdu. Əslində, bunu məcazi mənada ruhun bədənə qayıtması ilə də müqayisə etmək olar. Və elə bu ruhdur ki, bizi Şuşamıza qovuşdurdu. Bizi özümüzə qaytardı.

Uzun illərdir əsirlikdə olan xarıbülbül də azadlığına qovuşdu, Azərbaycanın Zəfər rəmzinə çevrildi. İndi biz onu yalnız fotolarda, yaxa sancaqlarında deyil, öz yurdunda, Şuşamızda yaşadır, əzizləyirik...

Qələbən mübarək, Əziz Vətən!
Gözün aydın olsun, Zəfər gülü!

***Ülkər XASPOLADOVA,*** ***"Azərbaycan"***

# 6-10 noyabr 2020-ci il ZƏFƏR gündəliyi

**Noyabrın 6-na** keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutur.

Döyüş əməliyyatları müxtəlif intensivliklə, əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edir. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini minaatan və atıcı silahlardan yenə atəşə tutur.

Noyabrın 5-dən 6-na keçən gecədən başlayaraq səhər saat 05:00-dək Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları istiqamətindən Azərbaycanın Tovuz, Gədəbəy və Daşkəsən rayonlarında yerləşən hərbi bölmələrinin mövqeləri düşmən tərəfindən fasilələrlə atəşə tutulur.

❖ ❖ ❖

Saat 08:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini, rayonun Qazyan və Hüsənli kəndlərini atəşə tutur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə cavab tədbirləri görülür. Gecə ərzində Goranboy rayonunun Tapqaraqoyunlu kəndi də düşmən tərəfindən artilleriya atəşinə tutulur.

❖ ❖ ❖

Müdafiə Nazirliyinin Hərbi İnformasiya Mərkəzində brifinq keçirilir. Cəbhədəki vəziyyət barədə məlumat verilir. Qeyd edilir ki, əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində gedən döyüş əməliyyatlarında düşmən bölmələri şəxsi heyət və texnika sarıdan itkilər verərək geriyə çəkilməyə məcbur edilib. Ordumuz Ağdam və Ağdərə istiqamətlərində pusquya salmaqla və atəş zərbələri ilə düşmənin hərbi kolonunu, artilleriya batareyasını və silah-sursat anbarını darmadağın edib. Düşmənin komandir heyəti daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, bir rabitə avtomobili, sursatla dolu iki "KamAz" maşını və qoşqusunda top olan üç "Ural" maşını, xeyli sayda digər sursat və artilleriya qurğuları məhv edilib.

Düşmənin Tərtərin işğal olunmuş Göyarx kəndinin ərazisindəki minaatan heyəti ordumuzun dəqiq atəşi ilə məhv edilib. Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən onun yerini doldura bilmir, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatı və yanacaq çatışmır. Düşmən bölmələrinin idarə olunmasında problemlər var.

Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə ordumuzun zərbələrinə tab gətirə bilməyən erməni silahlıları mövqelərini ataraq qaçır.

❖ ❖ ❖

Müdafiə Nazirliyi Füzuli rayonunun işğaldan azad olunan kəndlərinin videogörüntülərini yayır. Görüntülərdə erməni vandalizminin izləri aydın şəkildə görünür.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin Ağdərə yaxınlığındakı atış nöqtələrinə çıxarılan D-30 haubitsasının heyəti bölmələrimizin dəqiq atəşi ilə məhv edilir.

❖ ❖ ❖

Ağdərədə yerləşən Ermənistan silahlı qüvvələri 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyası və 5-ci dağatıcı alayının bölmələrinin təminatında ciddi çatışmazlıqlar yaranır. Belə ki, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatları, yanacaq sürtkü materialları çatışmır.

Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən bu itkilərin yerini doldurmaq imkanına malik deyil.

Bundan əlavə, qeyd olunan hərbi hissələrlə komandanlıq arasında rabitə əlaqəsi kəsilir və bölmələrin idarə olunmasında problemlər yaranır.

**Noyabrın 7-nə** keçən gecə Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusu bölmələrinin mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutur.

Döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində davam edir. Düşmən cəbhənin bəzi sahələrində şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Cəbhənin Ağdərə istiqamətində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində döyüş mövqelərinin artilleriya atəşinə tutulması nəticəsində şəxsi heyət arasında ölən və yaralananlar var. Düşmənin bir neçə avtomobil texnikası və minaatan qurğusu sıradan çıxarılır.

Azərbaycan Ordusu bölmələri tərəfindən həyata keçirilən əməliyyat nəticəsində düşmənin 6-cı dağatıcı alayının 1-ci taboru bölmələrinin şəxsi heyəti arasında itkilər var. Düşmənin D-30 artilleriya diviziyonunun 3-cü batareyasının topları da sıradan çıxarılıb.

Cəbhənin bütün istiqamətlərində döyüş əməliyyatları davam edir.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər rayonunun Şıxarx qəsəbəsini, Qazyan və Hüsənli kəndlərini, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndini, Ağdam rayonunun Çullu və Çıraqlı kəndlərini artilleriya atəşinə tutur.

❖ ❖ ❖

Prezident İlham Əliyev rəsmi tviter hesabında müjdəli xəbər paylaşır:

"Müzəffər Azərbaycan Ordusu Füzulinin Yuxarı Veysəlli, Yuxarı Seyidəhmədli, Qorqan, Üçüncü Mahmudlu, Qacar, Divanalılar, Cəbrayılın Yuxarı Məzrə, Yanarhac, Qubadlının Qəzyan, Balasoltanlı, Mərdanlı, Zəngilanın Beşdəli, Xocalının Qarabulaq, Moşxmaat, Xocavəndin Ataqut, Tsakuri kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Ermənistan daha bir dezinformasiya yayır. Guya Qubadlı rayonu ərazisindən Ermənistanın Qafan şəhəri yaxınlığındakı David Bek kəndi bölmələrimiz tərəfindən atəşə tutulur. Müdafiə Nazirliyinin yaydığı məlumatda deyilir ki, bu, Ermənistan tərəfinin yaydığı təxribat xarakterli növbəti dezinformasiyadır.

Əksinə, Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan ərazisindən Qubadlı rayonunun işğaldan azad olunmuş kəndlərini və Azərbaycan Ordusu bölmələrinin mövqelərini gün ərzində intensiv atəşə tutur.

Ordumuz yalnız sərhədlərimiz çərçivəsində düşmənin atəş nöqtələrinə qarşı adekvat tədbirlər görür.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Bərdə rayonunun Əyricə kəndini atəşə tutur. Nəticədə bir nəfər kənd sakini həlak olur.

❖ ❖ ❖

**Noyabrın 8-də** döyüş əməliyyatları müxtəlif intensivlikdə əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində davam edir. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulur. Cəbhənin bəzi sahələrində düşmən şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Cəbhədə müqavimət göstərə bilməyən düşmən çıxış yolunu dinc əhalini və mülki infrastrukturu atəşə tutmaqda görür. Keçən gün ərzində Ermənistan silahlı qüvvələri bölmələrinin Tərtər, Bərdə, Ağdam, Ağcabədi və Qubadlı rayonlarının kəndlərini artilleriya atəşinə tutması nəticəsində dinc sakinlər arasında ölən və xəsarət alanlar var, mülki infrastruktura ziyan dəyir.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 4 ədəd T-72 tankı, 2 ədəd D-20 topu və döyüş sursatı ilə dolu bir neçə hərbi yük avtomobili məhv edilir və sıradan çıxarılır.

❖ ❖ ❖

Saat 07:40-dan 08:10-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər, Ağdam və Ağcabədi rayonlarının kəndlərini atəşə tutur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə cavab tədbirləri görülür.

❖ ❖ ❖



Müzəffər Ali Baş Komandan İlham Əliyev öncə Fəxri xiyabana gedərək Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edir. Sonra Prezident Şəhidlər xiyabanında xalqa müraciət edir: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür!" Prezident bəyan edir ki, Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, tarixi abidələrimizi dağıtdı, məscidlərimizi dağıtdı, təhqir etdi. Azərbaycan dövləti bütün tarixi abidələrimizi bərpa edəcək, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcək: "Bizim zəfər yürüşümüz davam edir. Hələ də işğal altında torpaqlar var, hələ də döyüşlər gedir. Əgər Ermənistan rəhbərliyi mənim tələblərimə cavab verməsə, sona qədər gedəcəyik. Heç kim bizi dayandıra bilməz. Dünyada elə qüvvə yoxdur ki, bizi dayandıra bilsin. Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir".

❖ ❖ ❖

Saat 14:00 radələrində cəbhənin Xocavənd istiqamətində Ermənistan silahlı qüvvələrinin ön idarəetmə məntəqəsinə hava zərbələri endirilir.

Azərbaycan Hərbi Hava Qüvvələrinin Su-25 həmlə təyyarəsi və PUA-nın tətbiqi ilə endirilən aviasiya zərbələri nəticəsində düşmənin səngər və sığınacaqları dağıdılır, yüksək vəzifəli şəxsləri məhv edilir.

❖ ❖ ❖

Saat 16:30-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər və Ağdam rayonlarının kəndlərini atəşə tutur.

Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinin susdurulması üzrə cavab tədbirləri görülür.

❖ ❖ ❖

Azərbaycan Ordusunun cəbhənin Xocavənd istiqamətində keçirdiyi hücum əməliyyatı nəticəsində düşmənə ağır zərbələr endirilir.

Cəbhənin bu istiqamətində düşmənin mövqelərinə atəşlə zərər vurulur. Ağır itkilər verən düşmən bəzi hədləri ataraq qaçır.

Müdafiə Nazirliyi həmin anları əks etdirən videogörüntülər yayır.

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva Şuşa şəhərinin işğaldan azad edilməsi münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edir. Paylaşımda deyilir: "Şuşa işğaldan azad edilib. Bu münasibətlə bütün həmvətənlərimizə səmimi təbriklərimi çatdırıram!

İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur! Vətənimizi müdafiə edən və əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq!

Qoy Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

**Noyabrın 9-da** cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivlikdə davam edir. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulur. Cəbhənin bəzi sahələrində düşmən şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilir.

Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd T-72 tankı, 1 ədəd D-30 topu, 1 minaatan heyəti, döyüş sursatı ilə dolu bir hərbi yük avtomobili məhv edilir və sıradan çıxarılır.

Döyüş əməliyyatları davam edir. Əməliyyat şəraiti qoşunlarımızın nəzarəti altındadır.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin 10-cu dağatıcı diviziyasının Tərtər rayonunun Ulu Qarabəy (keçmiş Metsşen) məntəqəsindəki atəş nöqtəsində qərarlaşan minaatan heyəti Azərbaycan Ordusunun mövqelərini atəşə tutur. Bölmələrimiz tərəfindən həmin atəş nöqtəsindəki minaatan heyəti dəqiq zərbə ilə məhv edilir.

Bölmələrimiz tərəfindən Tonaşen məntəqəsi yaxınlığındakı düşmənin 1 ədəd T-72 tankı və cəbhənin Xocavənd istiqamətində hərəkət edən şəxsi heyəti də sərrast atəşlə məhv edilir.

❖ ❖ ❖

Şuşa istiqamətində düşmənin mühasirəyə alınan qüvvələrinin məhv edilməsi əməliyyatı davam edir.

Laçın-Şuşa yolu üzərindəki Zarıslı kəndi yaxınlığında mühasirədən çıxmaq məqsədilə bölmələrimizin üzərinə hücum etməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin 1 tankı və 1 PDM-i zərbə PUA-ları ilə məhv edilir.

❖ ❖ ❖

Prezident İlham Əliyev özünün tviter hesabında xalqa ard-arda müjdəli xəbərlər verir. İlk paylaşımda deyilir:

"Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Ali Baş Komandanın tviter hesabındakı növbəti müjdəsində qeyd edilir:

"Müzəffər Azərbaycan Ordusu Xocavəndin Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, şəhər Xocalının Şuşakənd, Muxtar, Daşaltı, Füzulinin Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilanın Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz strateji yüksəkliyini (2300 metr), Sığırt yüksəkliyini (1370 metr), Şükürataz yüksəkliyini (2000 metr) və əlavə 5 adsız strateji yüksəkliyi, Cəbrayılın Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçının Güləbird, Səfiyan, Türklər kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

Azərbaycan Ordusunun cəbhənin Xocavənd istiqamətində düşmənin mövqelərinə və canlı qüvvəsinə atəşlə zərər vurması davam edir. Düşmənin səngərləri və sığınacaqları artilleriya zərbəsi ilə dağıdılır.

❖ ❖ ❖

Saat 15:50-də cəbhənin Xocavənd istiqamətində düşmən tərəfindən fərdi yaşayış evlərinin arasında yerləşdirilmiş və aviasiya vasitələrimizə qarşı tətbiq olunan "Tor-M2KM" zenit-raket kompleksi (ZRK) bölmələrimizin dəqiq atəşi ilə məhv edilir.

Xocavənd istiqamətində düşmənə daha bir ağır zərbə vurulur. Belə ki, düşmənin atəş mövqeyinə çıxarılan "OSA" zenit-raket kompleksi (ZRK) bölmələrimizin dəqiq atəşi ilə məhv edilir. Eyni zamanda düşmənin canlı qüvvəsi darmadağın edilir.

❖ ❖ ❖

**Noyabrın 10-da** saat 00:20-də Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutur.

Bir nəfər mülki şəxs xəsarət alır.

❖ ❖ ❖

Azərbaycan-Ermənistan sərhədinin Naxçıvan sahəsində Rusiya Hərbi Hava Qüvvələrinin helikopteri vurulur. Bununla əlaqədar olaraq Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə zəng edərək başsağlığı verir.

İlham Əliyev bu faciəli təsadüfə görə üzrxahlıq edərək bildirir ki, günün qaranlıq vaxtında həmin helikopter Ermənistan hərbi hava qüvvələrinin helikopteri hesab edilib.

Dövlət başçısı həlak olanların doğmalarına və yaxınlarına başsağlığı verilməsini xahiş edir, xəsarət almış pilotun tezliklə sağalmasını arzu edir.

Prezident Azərbaycan tərəfinin həlak olmuş və xəsarət almış pilotların ailələrinə kompensasiya ödəməyə hazır olduğunu da bildirir.

İlham Əliyev deyir ki, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bu fakt üzrə cinayət işi qaldırılıb, təhqiqat aparılır. Təqsirkarlar cəzalandırılacaq və bu barədə Rusiya tərəfi məlumatlandırılacaq.



Vladimir Putin telefon zənginə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirir, belə insidentlərin yolverilməz olduğunu qeyd edir. Tərəflər gələcəkdə belə hallara yol verilməyəcəyinə əmin olduqlarını bildirirlər.

❖ ❖ ❖

Prezident İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin videokonfrans formatında görüş keçirirlər. Görüşdə Azərbaycan və Rusiya prezidentlərinin, Ermənistanın baş nazirinin üçtərəfli Bəyanatı imzalanır.

Vladimir Putin bildirir ki, bəyanatda şərh edilmiş bu qərar nəinki Ermənistan ilə Azərbaycan arasında çoxillik qarşıdurmaya son qoyacaq, bu torpaqlarda qan tökülməsinə son qoyacaq, həm də bəyanatda təsbit edilən razılaşmalara etibarlı nəzarət mexanizmi yaradacaq, ən başlıcası, uzunmüddətli tarixi perspektiv üçün, regionda münasibətlərin, ilk növbədə həm Azərbaycan, həm də erməni xalqlarının mənafeyi naminə tərəflər arasında dostluq münasibətlərinin inkişafı üçün əlverişli şərait yaradacaq.

Prezident İlham Əliyev vurğulayır ki, bu gün Ermənistan ilə Azərbaycan arasında çoxillik münaqişənin nizamlanması işinə nöqtə, Azərbaycan torpaqlarının işğalına son qoyulur. Münaqişənin hərbi-siyasi nizamlanması regionda uzunmüddətli sülhə, həmrəyliyə gətirib çıxaracaq, qarşıdurmaya və qan tökülməsinə son qoyacaq.



❖ ❖ ❖

Prezident xalqa müraciət edib qələbə xəbərini verir.

Qalib Sərkərdə bildirir ki, Dağlıq Qarabağ münaqişəsinə son qoyulur, imzalanmış üçtərəfli Bəyanat isə məsələnin həlli istiqamətində son nöqtə olacaq:

"Mən də xoşbəxtəm ki, bu xoş xəbərləri, bu müjdəni Azərbaycan xalqına verirəm. Xoşbəxtəm ki, bu tarixi sənədə imza atmışam. Xoşbəxtəm ki, biz öz Vətənimizə, doğma Qarabağımıza qayıdırıq, Qarabağımızın tacı olan Şuşaya qayıdırıq və bu torpaqlarda əbədi yaşayacağıq! Bundan sonra heç kim bizi o torpaqlardan tərpədə bilməz!"



Sonra dövlət başçısı bəyanatın mətni ilə hər kəsi tanış edir.

Bununla da 44 günlük Vətən müharibəsi Azərbaycanın şanlı zəfəri ilə başa çatır.

❖ ❖ ❖

Prezident İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında telefon danışığı olur. Dövlət başçıları Qarabağ müharibəsində Azərbaycanın qazandığı parlaq qələbə münasibətilə bir-birini təbrik edirlər. Prezident İlham Əliyev müharibə dövründə Türkiyə Prezidenti və Türkiyə xalqının Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyə görə bir daha minnətdarlığını bildirir.

Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidentinin ölkəsinin dəstəyinə verdiyi yüksək qiymətə görə təşəkkür edir.

Telefon söhbəti zamanı atəşkəsə nəzarət üzrə Türkiyə-Rusiya sülhməramlı mərkəzinin yaradılması yüksək qiymətləndirilir, bu mərkəzin regionda uzunmüddətli sülhün təmin edilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olunur.

❖ ❖ ❖



Birinci vitse-prezident Mehriban Əliyeva tarixi Qələbə münasibətilə rəsmi instaqram səhifəsində paylaşım edir:

"Bu gün böyük gündür - Qələbə Günüdür! Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu! Tarixi ədalət bərpa olundu! Həqiqətən əlamətdar olan bu hadisə münasibətilə Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edirəm!

Hər birimiz bizim Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə hədsiz təşəkkür edirik! Məhz onun sarsılmaz iradəsi, cəsarəti, əzmkarlığı və qətiyyəti sayəsində Azərbaycan Ordusu düşməni sarsıtdı, müharibənin nəticəsini müəyyən etdi və qələbə nöqtəsini qoydu.

Böyük zəfər gününüz mübarək! Azərbaycanın şərəf və qüdrət günü mübarək! Qarabağın azad edilməsi günü mübarək! Biz Qələbə qazandıq! Qarabağ Azərbaycandır!"

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*





# “Dəmir yumruğ”un zərbəsinin nəticələri









# İrəvanın məğlubiyyət günü

**İki il öncə ermənilər tərəfindən zəbt edilmiş ərazilərin geri qaytarılması uğrunda 44 gün davam edən müqəddəs savaş Azərbaycanın böyük qələbəsi ilə başa çatdı. Ədalətin zəfər çalması ermənilər üçün unudulmaz dərs oldu. Baş verən proseslər Azərbaycan üçün qürur mənbəyi olduğu halda məğlub ölkə Ermənistanda çox böyük məyusluq yaratdı.**

## Gənclər qaçdı, ümid qocalara qaldı

İkinci Qarabağ müharibəsinin hər günündə Ermənistana hərbi, siyasi-diplomatik və iqtisadi müstəvidə böyük zərbələr dəydi. Məğlubiyyət fonunda erməni ictimaiyyəti, müxalifəti, sosial şəbəkə istifadəçiləri baş nazir Nikol Paşinyandan hesab sordular.

Ermənistan hərbi birləşmələrində canlı qüvvə ilə bağlı yaranan problemin kökündə təkcə Azərbaycanla döyüşdə olan itkilər dayanmırdı. Bunun bir səbəbi də o idi ki, minlərlə erməni gənci ordu sıralarında xidmətdən boyun qaçırırdı. Erməni gəncləri illərdir ki, hərbi xidmətdən yayınmaq üçün ölkəni tərk edirdilər və bu proses müharibə günlərində daha da intensivləşmişdi. Hökumətin səfərbərlik barədə qərarına baxmayaraq, müxtəlif bəhanələrlə çağırışçı yaşında olan ermənilər xidmətdən yayınır, qalanları isə ölkəni tərk edirdilər. Bu səbəbdən Ermənistanda yaşlıların orduya cəlb edilməsi daha da sürətlənmişdi.

Ermənistanda bunu yaşlıların təcrübələrinin çox olması səbəbindən könüllü şəkildə ordu sıralarına qoşulması kimi qələmə verdilər. Amma təcrübə göstərdi ki, yaşlı insanlar fiziki göstəricilərinin və çevikliyin aşağı olması səbəbindən elə döyüşə gəldiyi ilk andan həyatla vidalaşmağa başladılar.

## Paşinyanı dar ağacından asmaq istədilər

Nikol Paşinyan Qarabağ müharibəsində məğlub olması aktını imzaladıqdan sonra Ermənistanda siyasi gərginlik pik nöqtəsinə çatdı. Noyabrın 10-dan etibarən İrəvanda baş verənlərdən sonra ölkədə, demək olar ki, hakimiyyətsizlik və siyasi xaos hökm sürdü. İnsanlar Nikol Paşinyanın baş nazir postundan istefasını tələb etdilər.

Bunu Ermənistanda on minlərlə insanın iştirakı ilə Paşinyan hökumətinin istefa verməsi tələbi ilə keçirilən aksiyalardan da görmək olardı. Amma baş nazir küçələrə hərbi və polis qüvvələri çıxararaq sələfləri kimi hakimiyyəti güc yolu ilə qəsb etməyə hazır olduğunu göstərdi.

İğtişaşlar nəticəsində baş nazirin iqamətgahından kompüterinin, saatının, sürücülük vəsiqəsinin və digər əşyaların oğurlandığı açıqlandı. İrəvanda Ermənistan parlamentinin sədri Ararat Mirzoyan etirazçılar tərəfindən döyüldü.

Aksiyalara qatılanlar məqsədlərinə çatmaqda israrlı olduqlarını, Paşinyan idarəçiliyindən mütləq şəkildə canlarını qurtaracaqlarını bildirdilər. Xalq arasında nüfuzunu itirən Paşinyan isə özünə qarşı edilən bütün çıxışları birmənalı şəkildə güc yolu ilə susdurmağa, etiraz aksiyalarını polis dəyənəyi və rezin gülləsi hesabına dağıtmağa üstünlük verdi. Baş nazirin göstərişinə əsasən, kütləvi həbslər həyata keçirildi, siyasi partiya rəhbərləri, fəallar saxlanıldı, həbs edildi, deputatlara qarşı hücumlar təşkil olundu.

## Müxalifət hakimiyyəti devirməyə çalışdı

Ermənistanın siyasi partiyaları birgə bəyanat yayaraq N.Paşinyan başda olmaqla, hökumətin istefasını tələb etdilər. 17 partiyanın imza atdığı sənəddə Ermənistanın hərbi-siyasi rəhbərliyinin mövcud problemlərin öhdəsindən gələ bilmədiyi qeyd olundu. Bu baxımdan siyasi partiyalar Paşinyan və onun kabinetinin könüllü və dinc şəkildə istefasını, dərhal yeni hökumətin qurulmasını istədilər. Bəyanatı "Azadlıq", "Milli Təhlükəsizlik", "Milli Demokratik Birlik", "Alyans", "Çiçəklənən Ermənistan", "Daşnaksütyun", "Həmrəylik", "Ermənistanın Milli Liberal Birliyi", Ermənistanın Respublika Partiyası, "Ermənistan Xristian Demokratik Birliyi", "Vətən", "Vahid Ermənistan" və digər partiyalar imzaladılar.

"Çiçəklənən Ermənistan" partiyasının üzvü, deputat İveta Tonoyan Nikol Paşinyanı dərhal istefa verməyə çağıraraq dedi ki, tariximizin ən biabırçı səhifəsi yazıldı: "Bir neçə saat əvvəl "Çiçəklənən Ermənistan" və bir sıra digər partiyalar baş nazirin istefasını tələb etdilər. Bütün bu baş verənlərdən sonra Paşinyanın istefa etməsi lazım olan ən kiçik şeydir".

Paşinyanın istefasını tələb edən müxalifət fəallarından Ermənistan milli təhlükəsizlik xidmətinin keçmiş direktoru, "Vətən" partiyasının sədri Artur Vanetsyan, "Çiçəklənən Ermənistan" partiyasının sədri Qaqik Tsarukyan, "Respublikaçılar" partiyasının nümayəndələri Eduard Şarmazanov, sabiq deputatlar Vaqram Baqdasaryan, Vardan Ayvazyan, Qeqam Petrosyan, Ayk Mamidjanyan, Karine Açemdilibyan, "Vətən" partiyasının nümayəndələri Arsen Babayan, Vardan Voskanyan, "Erkir media" telekanalının rəhbəri Qeqam Manukyan və "Daşnaksütyun" partiyasının nümayəndəsi İşxan Saqatelyan polis tərəfindən həbs edildilər. Ermənistanın milli təhlükəsizlik xidməti ölkə parlamentinin sabiq vitse-spikeri Eduard Şarmazanovu qanunsuz toplantını təşkil etməsi ittihamı ilə həbs etdi.

Ermənistan milli təhlükəsizlik xidmətinin keçmiş direktoru Artur Vanetsyan Paşinyanın ictimai təzyiqlər artdıqca istefa verəcəyini bildirmişdi. Qeyd etmişdi ki, Paşinyan "baş nazir" adlandırılmasın, çünki artıq onun buna mənəvi haqqı yoxdur: "O, baş nazir postunu ələ keçirən, öz fəaliyyəti ilə Ermənistanı dərin bir uçuruma aparan adamdır. Müxalifət işləyir və ictimai təzyiq artdıqca Paşinyan istefa verəcək".

## Ermənistan İkinci Qarabağ müharibəsində aldığı zərbədən hələ də özünə gəlməyib

















## Azərbaycan Ermənistanı dalana dirəyib

Ermənistanın müharibədə məğlubiyyəti ölkənin sosial-iqtisadi həyatında olduğu kimi, siyasət sferasında da problemlərini dərinləşdirdi. Xüsusən Paşinyan hakimiyyəti ilə keçmiş iqtidarların təmsilçiləri arasında kəskinləşən qarşıdurma yeni siyasi xaosun yaranmasına səbəb oldu, proseslər daha gərgin mərhələyə qədəm qoydu.

"Fitch" beynəlxalq kredit reytinq agentliyi də bu ölkənin kredit reytinqini aşağı salmışdı. Belə ki, müharibənin davam etdiyi günlərdə "Fitch" Ermənistanın xarici valyutada uzunmüddətli kredit reytinqinin "BB-"dən "B+" səviyyəsinə endirildiyini açıqlamışdı. Bu, onu göstərirdi ki, Ermənistanda iqtisadi geriləmə proqnozlaşdırıldığından daha kəskindir.

Hesablamalara görə, müharibənin bir günü Ermənistan üçün təxminən 30 milyon dollara başa gəlib. "4rd.am" saytı yazırdı ki, Dağlıq Qarabağda müharibənin davam etməsi Nikol Paşinyan hakimiyyətinin bu günə kimi 1,2 milyard dollardan çox maliyyə itirməsi ilə nəticələnib: "Ermənistan müharibədən öncə də iqtisadi baxımdan son dərəcə zəif ölkə idi. Bu qədər itkiləri də nəzərə alanda postmüharibə dövründə ölkənin iqtisadiyyatının nə günlərə qalacağını təsəvvür etmək çətin deyil. Otuz il ərzində qurulan və 44 günə darmadağın edilən ordunu əvvəlki vəziyyətdə bərpa etmək üçün Ermənistana indi ən azı 5-6 milyard dollar əlavə vəsait lazım olacaq".

## Paşinyan öz tərəfdarlarını meydana səslədi

Ermənistanda ötən ilin martında və cari ilin mayında keçirilən mitinqlər ölkədə siyasi böhranın daha da dərinləşdiyini göstərdi. 44 günlük Qarabağ müharibəsindən sonra Nikol Paşinyanın opponentləri xalqın baş nazirdən üz döndərəcəyini gözləsə də, tamam əks vəziyyət müşahidə edildi. İnsanların müxalifətə və hərbi xuntaya dəstək verməməsi baş nazirin mövqelərini bir qədər möhkəmləndirdi.

Həmin dövrdə mövcud durumdan istifadə edən keçmiş hərbi xuntanın revanş istəyi isə vəziyyəti daha da gərginləşdirdi. Əsas niyyət iqtidara qarşı müqavimət və itaətsizlik təşkil etmək, bununla xaotik durumun yaradılmasına nail olmaq, güc yolu ilə olsa da, hakimiyyəti qəsb etmək idi. Xocalı soyqırımını törədənlər və son savaşda məğlub olan müharibə caniləri hərbi qiyamı başlatmaqla Nikol Paşinyanı hakimiyyətdən devirmək niyyəti güdürdülər. Belə ki, baş qərargah rəisi Onik Qasparyan, bütün müavinləri, şöbə müdirləri və böyük hərbi birləşmələrin komandirləri bəyanat imzalayaraq baş nazirin istefasını tələb etdilər. Paşinyanın isə Qasparyanı istefaya göndərməsi vəziyyəti daha da gərginləşdirdi.

40-dan çox yüksək rütbəli hərbçi tərəfindən imzalanan bəyanatda bildirilirdi ki, baş qərargah Paşinyanın uzaqgörən olmayan və əsassız addımlarına, xüsusən də baş qərargah rəisinin birinci müavininin vəzifəsindən azad edilməsinə qəti surətdə etiraz edir. Hərbçilər hesab edirdilər ki, Tiran Xaçatryanın vəzifədən kənarlaşdırılması Ermənistanın milli və dövlət maraqları nəzərə alınmadan, yalnız şəxsi ambisiyalara əsaslanaraq verilib. "İndiki çətin şəraitdə belə bir qərarın verilməsi dövlətə qarşı yönələn və məsuliyyətsiz bir addımdır", - deyə açıqlamada qeyd edilirdi.

N.Paşinyan isə feysbuk səhifəsindən açdığı canlı yayımda ölkənin baş qərargahının bəyanatını hərbi çevrilişə cəhd adlandırdı. Bundan sonra o, tərəfdarlarını meydana çıxmağa çağırdı: "Tərəfdarlarımızı elə indi Respublika meydanına çıxmağa dəvət edirəm. Vəziyyət çox gərgindir. Baş Qərargah rəisinin və onun birinci müavininin vəzifəsindən kənarlaşdırılması barədə qərar verdiyimi bilirsiniz. Bu qərarların səbəbini meydanda açıqlayacağam. İndi ən vacib vəzifə vətəndaş və xalq hakimiyyətini qorumaqdır".

## Xalq hərbi xuntaya "yox" dedi

Ermənistan cəmiyyəti 2020-ci il iyunun 20-də keçirilmiş növbədənkənar parlament seçkilərinə dərin siyasi böhran fonunda, eləcə də bir-biri ilə açıq düşmənçilik edən düşərgələrə bölünmüş vəziyyətdə getdi. Gözlənildiyi kimi, seçkilərdə əsas rəqiblər Nikol Paşinyanın "Vətəndaş Müqaviləsi" partiyası və sabiq prezident Robert Koçaryanın "Ermənistan" bloku oldu.

Ermənistan Mərkəzi Seçki Komissiyasının (MSK) 2008 seçki məntəqəsindən əldə olunmuş bülletenlərin sayılması əsasında açıqladığı hesabatda bildirildi ki, 1 milyon 281911 bülleten sayıldıqdan sonra Nikol Paşinyanın "Vətəndaş Müqaviləsi" partiyasının 53,92 faiz (687 251 seçici), keçmiş prezident Robert Koçaryanın rəhbərlik etdiyi "Ermənistan" blokunun isə 21,04 faiz (268 165 seçici) səs topladığı təsdiqlənib. Sabiq prezident Serj Sarkisyana bağlı "Şərəfim var" bloku 5,23 faiz (66 633 seçici), "Çiçəklənən Ermənistan" partiyası isə 3,96 faiz (50 416 seçici) seçicinin dəstəyini qazanıb.

## Sülh müqaviləsini uzatmaq Ermənistanın sonunu yaxınlaşdırır

Ermənistanda sosial-iqtisadi durum getdikcə ağırlaşmaqda, ölkədə yaşanan tənəzzül durmadan genişlənməkdədir. Bu vəziyyətdə sadə vətəndaşların rifah halı daha da pisləşir ki, bu da ölkədə müşahidə olunan sosial narazılığın artmasına səbəb olur. Ermənistanın həm rəsmi statistikası, həm də beynəlxalq hesabatlar ölkənin sosial və iqtisadi durumunun kifayət qədər acınacaqlı olduğunu göstərir. Belə ki, BMT-nin Ümumdünya Ərzaq Proqramının "Aclıq xəritəsi"ndə Ermənistanda yarım milyon insanın aclıqdan əziyyət çəkdiyi qeyd olunub.

Hazırda Ermənistan əhalisinin sayı 3 milyon nəfərdir. Eyni zamanda qeyd edilir ki, son bir ayda qida çatışmazlığından əziyyət çəkənlərin sayı daha 10 min nəfər artıb. Xəritəyə əsasən, ölkədə 5 yaşa qədər uşaqların təxminən 4,4 faizi kəskin, 9,4 faizi isə xroniki qida çatışmazlığından əziyyət çəkir.

"4rd.am" saytı yazır ki, baş nazir N.Paşinyanın iqtisadi proqramı zəif və populistdir. O, mikroskopik erməni bazarının demonopolizasiyasından, "kölgə iqtisadiyyatı"yla mübarizədən və sairədən danışır. Ermənistanın saxlanılmasına mənbə kimi o, yenə də strateji tərəfdaşlarını görür: "Azərbaycanla sülh danışıqlarının aktiv olduğu bir dönəmdə varlı diasporu ölkəyə cəlb etmək Qərbə doğru getmək deməkdir. Bu isə Rusiyadan gələn mənbələrin qapadılması və həm də Ermənistanın sonu deməkdir. Paşinyan iqtisadiyyata yeni heç nə gətirmir. O, Ermənistanın siyasi tələblərindən imtina etmir, nəticədə Ermənistanı iqtisadi kollapsa aparır. Digər tərəfdən, Paşinyan başqa ölkələrdən pul gətirib vətəndaşları yemləyəcəyini deyir, lakin hələ də bəlli deyil ki, onlar niyə Ermənistana bu pulları verməlidirlər".

Vurğulanır ki, postmüharibə dönəmində Paşinyanın proqramı Ermənistanı blokadadan və təcriddən çıxarmayan, indiki siyasi mövqeyini qoruyub saxlayan digər proqramlar kimi uğursuzluğa məhkumdur. "Qarşıdakı dövr ərzində Paşinyanın iqtisadiyyat və rifah məsələsində heç nə edə bilməyəcəyini görəcəyik. Demək ki, ictimaiyyətdə neqativ əhvali-ruhiyyə güclənəcək və yeni kumir axtarılacaq".

Ermənistanda əhali arasında aparılan sosioloji sorğular nəticəsində məlum olub ki, hökumət ilk növbədə onların problemlərini həll etməlidir. İrəli sürülən tələblər haqlı tələblərdir, lakin bunların yerinə yetirilməsində dövlət acizdir. Ona görə ki, iqtisadi resurslardan məhrumdur. Bu səbəbdən ölkədə başlanmış xaos vəziyyəti getdikcə dərinləşdirir.

Bütün bunların fonunda sosial-iqtisadi sahədə gərginlik getdikcə daha da dərinləşir. Ermənistanda çörək istehsalı 60 faizə qədər azalıb. Ölkədə orta aylıq əməkhaqqı olduqca aşağı səviyyədədir. Paşinyan iqtidarının milli valyutanın - dramın məzənnəsini sabit saxlamaq üçün göstərdiyi cəhdlər heç bir nəticə vermir. Çünki normal iqtisadiyyatı olmayan ölkədə inflyasiyanın həcmi gün keçdikcə daha da artır. Hətta milli valyutanın məzənnəsini sabit saxlamaq məqsədilə Ermənistan Mərkəzi Bankının indiyədək ayırdığı vəsaitlərin də problemin yoluna qoyulmasında heç bir təsiri olmayıb. Ölkənin xarici borcu artıq ümumi daxili məhsulun 60-70 faizini üstələyir.

*Göründüyü kimi, müharibədə aldığı sarsıdıcı məğlubiyyətdən sonra son iki il Ermənistanda yaşanan tənəzzülün daha da sürətlənməsi ilə xarakterizə olunub və qarşıdakı dövrün də bundan nəyə görəsə fərqlənməsi gözlənilmir. Aydın görünür ki, Ermənistan və onun xalqı işğal siyasətinin faciəsini yaşayır. Rəsmi İrəvan sülh danışıqlarını uzadarsa, İlham Əliyevin rəhbərliyi ilə güclü Azərbaycan dövlətinin Ermənistana verdiyi tarixi dərs bu ölkəni daha dərin fəlakətlərə sürükləyəcək.*

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

POVEST

# TALESİZLƏR ŞƏHƏRİ

Rəfiqə SADIQOVA

Saatın əqrəbləri xəbərlərin başlamasını göstərəndə otağa bir sakitlik çökdü. İnsanlar nəfəs dərmədən Silahlı Qüvvələrin Ali Baş Komandanının çıxışını gözləyirdilər. Budur, əzəmətli bir görünüş. Prezident hamının gözlədiyi xəbəri səsləndirdi:

"…Azərbaycan Ordusu əks-hücuma keçərək Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı kəndlərini, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndlərini düşməndən azad etmişdir… Həmçinin Azərbaycan Ordusunun bölmələri Ağdərə və Murovdağ istiqamətində strateji yüksəklikləri ələ keçirmişlər. Qarabağ Azərbaycandır!"

Beləcə oktyabr ayının ortaları idi. İnsanlar ölüm gətirən müharibəni deyil, qisas günlərini, dərdlərinə dərman olacaq, nisgil və kədərlərinə son qoyacaq günləri yaşayırdılar. Ali Baş Komandanın çıxışı olan saatlarda isə hamı nəfəsini içinə çəkib xoş müjdələri gözləyirdi. "Dəmir yumruq" düşməni əzə-əzə birbir torpaqlarımızı azad edirdi. Hər xəbərin sonunda deyilən "Qarabağ Azərbaycandır!" sözləri isə yaralara məlhəm kimi səslənirdi.

Bəli, "dəmir yumruq" düşmənin 30 ildə qurduğu Ohanyan sədlərinin keçilməzliyinin bir mif olduğunu sübuta yetirmişdi.

❖ ❖ ❖

Rasim yenə də hərbi komissarlığa gəlmişdi. Bu dəfə fikri qəti idi. Döyüşməyə deyil, maşından, mexanizmdən başı çıxan usta kimi döyüş bölgəsinə getməkdə israrlı idi. Nəhayət ki, arzusuna çatdı. Ordunun arxasındakı səyyar emalatxanada təmir işləri görmək üçün onun arzusu nəzərə alındı.

Südabə onun arxa cəbhədə xidmət etmək üçün yola düşəcəyini eşidəndə gözləri doldu. Həyəcanla Rasimə baxıb:

- Axır ki, dediyini elədin.

- Ana, mənim ən böyük arzum cəbhəyə yollanmaq, torpaqları azad etmək idi. Böyüdüyüm, əzizlərimizi dəfn etdiyimiz o torpaqların azad olunmasında az da olsa xidmətim olmasa, bunu ömrüm boyu özümə bağışlaya bilmərəm.

Gecəni heç biri yatmadı. Olub-keçəndən, qələbədən, hər şeydən danışdılar. Sanki bu, başlarına gələnləri xatırlamaq, yada salmaq, hesabat vermək fürsəti idi.

Rasim etiraz etsə də, onu yola salmağa anası Südabə və Murad doxdur təkidlə gəlmişdilər. Nə cəbhəyə gedənlərin, nə də onları yola salanların üzündə təşviş, həyəcan, gözyaşları yox idi. Gedənlər sevinir, yola salanlar isə bu torpaqlara qayıdacaqları günün həyəcanını yaşayırdılar. Qarabağda doğulmayan, o yerləri yaxınlarının söylədikləri ilə xəyallarında canlandıran bu gənclərin torpaq sevgisi doğrudan da, qibtəyə layiq idi. Demək, torpaq, Vətən sevgisi İlahi qüvvənin bəxş etdiyi müqəddəs bir nemətdir ki, onu anlatmaq, anlamaq olduqca çətindir. Amma bir tərəfdən də bu sınaq günlərinin, Vətən savaşının olması öləziyən duyğularımıza bir əminlik gətirdi. Bizim bəzən hissə qapılıb "bu gənclər elə bil ki, hər şeyə biganədir" sözlərinin əksinin bir sübutudur hərbi komissarlıqlar önündəki növbələr. Sevinclə, ruh yüksəkliyi ilə avtobuslara əyləşib gedən oğullarımızın qələbə əzmi birmənalı olaraq düşündüklərimizin əksini deyirdi. Deyirdi ki, insan dar gündə sınanar. Azərbaycan igidləri bu sınaqdan alnıaçıq, üzüağ çıxdılar. Nəsillərə yadigar qalacaq bir dastan yaratdılar - qəhrəmanlıq dastanı.

Artıq Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı azad olunmuşdu. Şuşanın azad olunması isə dillərə dastan bir möcüzə oldu, hərb tarixinə düşdü. Hətta bizim qələbəmizə, uğurlarımıza sevinməyənlər belə etiraf etməyə məcbur oldular. Meşələrin, dağların arası ilə yol gələn əsgərlərimiz düşməni onları gözlədiyi yerdən deyil, sıldırım qayalara dırmaşaraq yüngül silahlarla məğlub etdilər. Bir yüksək çinli hərbçinin söylədiyi kimi: "Azərbaycan əsgəri qan içində olanda belə inadla qayalara dırmanır, hətta yaralı yoldaşlarını belə çiyinlərinə alıb onu yarı yolda qoymurdu".

Bəli, yalnız ürəyində böyük sevgi, təpər olan oğullar bu cəsarəti göstərə bilərdilər.

Küçə döyüşləri Şuşa uğrunda döyüşlərin əfsanəvi sonu oldu. Xüsusi təyinatlılarımız qarı düşməni uzaqdan güllə ilə deyil, yaxından hulqumlayıb, kürəyini yerə qoyub, sinəsini dəlik-deşik edib Şuşa qəhrəmanı adını qazandılar. Bu, Azərbaycan Ordusu idi, bu, Azərbaycan əsgəri, Azərbaycan övladları idi, şir ürəkli, aslan biləkli qəhrəmanlar idi.

Ömər yüksəkliyi və Şuşa uğrunda döyüşlər müharibənin taleyini həll edən amillərdən biri oldu. Amma Azərbaycan təkcə hərb meydanında döyüşmədi, onun Prezidenti, Ali Baş Komandanı diplomatiya cəbhəsində qələbənin qazanılmasına bir stimul oldu. Kar və kor dünya, ikili standartlı dünya reallığı, möhtəşəmliyi qəbul etmək məcburiyyətində idi.

❖ ❖ ❖

Ordu irəlilədikcə köməkçi qüvvələr də onlarla birgə irəliləyirdi. Artıq əyninə çoxdan həsrətində olduğu əsgər paltarını geyinmiş Rasim üzərinə düşən vəzifəni canla-başla yerinə yetirirdi. "Qrad" düşmüş evlərini, anasının daşlar arasında qalmış cəsədini xatırladıqca indi döyüş meydanına yaxın olduğu üçün ürəyinə təskinlik gəlirdi. Əmin idi ki, dağılmış, viran olmuş o yerlərə mütləq qayıdacaq, anasının, atasının məzarlarını ziyarət edə biləcəkdir.

Ratsiya ilə danışan komandirin həyəcanı üzündən oxunurdu. "Dözün, aslanlarım, indi mütləq sizi və tankı atəş altından çıxarmaq üçün kömək göndərəcəyəm", - deyirdi.

Son nəfəsini verən düşmən quduzlaşmışdı. Belə olmasaydı, cəbhə xəttindən 100 kilometrlərlə aralı olan Gəncə, Mingəçevir, Tərtər, Bərdə raket atəşinə tutulmaz, dinc əhaliyə qəsd edilməzdi. Tərtərin əhalisi atəş altında yaşamağa məcbur olmuşdu. Bütün bunlara rəğmən sakinlərdən kimsə olduğu şəhəri, məkanı tərk etmirdi. Çünki Ali Baş Komandana, orduya inam çox böyük idi. Özü də bu təkcə inam deyildi. Ən böyük sevgi, möhtəşəm birlik idi ki, o da qələbəni təmin edən amillərdən birinə çevrildi.

*(Əvvəli qəzetin 3, 4 və 5 noyabr tarixli saylarında)*

Komandirin həyəcanlı danışığını eşidən Rasim ona yaxınlaşıb hərbi qaydada müraciət etdi. Elə bu zaman yaxınlığa düşən bir mərmi onun sözünü yarıda qoydu. Ətraf sakitləşəndən sonra Rasim elə yubanmadan komandirə müraciət etdi:

- İcazə verin tankın təmiri üçün heyətə yardım edim, - dedi.

Komandir onu başdan-ayağa süzüb:

- Bacararsan, - dedi.

- Mən ustayam, maşın ustası, yəqin ki, gücüm çatar.

- Yaxşı, yubanma.

Rasim tankın zədələndiyi yolun yarısını qət etdi. Lakin buradan o yana sürünmək lazım gəlirdi. Yəqin ki, düşmən snayperi hədəfi nəzarətdə saxlamışdı.

Rasim nəfəsini dərə-dərə tanka yaxınlaşmağa çalışırdı. Çətinliklə daşıdığı çantaya təmir üçün gərək ola biləcək ən zəruri alətlər qoymuşdu. Qarşıda tank görünmürdü. Bəlkə… Nəfəsini dərdi. "Axı mənə deyilən istiqamətdə hərəkət etdim". Bu zaman quş səsinə bənzər bir səs, fit səsi eşitdi. "Görəsən güllə yağışı altında bu nə quş səsidir", - deyib başını azacıq dikəldib ətrafa baxdı. Sağ tərəfdə çalanın içindən bir əsgər boylanaraq əlinin işarəsi ilə ona nəyisə başa salmağa çalışırdı. Rasim ona tərəf süründü. Böyük bir çalanın içərisində gizlədilən tankı gördü. Bir qədər dikəldi. Görünür düşmən tərəfdən bu hiss olundu və dalbadal atəş açıldı. Ara sakitləşəndən sonra Rasim özünü tanka çatdıra bildi.

Komandir yüngül yaralanmışdı. Lakin sürücü-mexanikin vəziyyəti yaxşı deyildi. Heyət üzvü olan atıcı əsgər bildirdi ki, RPQ - yəni tank əleyhinə qumbaraatandan açılan atəş bəxtləri gətirdiyi üçün bir qədər tankdan aralı düşmüşdü. Nə mühərrikə, nə də tankın özünə elə də zərər dəyməmişdi. Lakin nasazlıq olduğu üçün onu atəş altından çıxara bilmirdilər. Elə onun üçün özləri də tankı tərk etmirdilər. Vüqar (sürücü-mexanik) özündə olsaydı... O, təəssüflə yerdə huşsuz vəziyyətdə uzanan əsgər yoldaşına baxdı. Vüqarın ayağı bud hissəsindən bərk-bərk sarınmışdı. Yəqin ki, bunu qanaxmanı dayandırmaq üçün etmişdilər.

Rasim vaxt itirmədən tankın arxa hissəsindən bir pişik cəldliyi ilə onun üzərinə qalxdı və açıq lyukdan içəri girdi.

Rasim diqqətlə tankın monitorunu nəzərdən keçirdi. Beyni ildırım sürəti ilə işləyirdi. Bu vəziyyəti yarada biləcək hər şeyi diqqətdən keçirmişdi. Lakin nasazlığı tapa bilmirdi. Ümidi itmək üzrə idi. Özünü toparlamaq üçün gözlərini yumub-açdı. Lap aşağıda havadan asılı qalan göy rəngli naqili gördü. Bəlkə… Tank işə düşdü. Demək, irəliyə, düşmən üstünə şığımaq olardı.

Rasim lyuku açıb bir qədər dinşədi. Sonra əlini yuxarı qaldırıb vəziyyəti dəqiqləşdirməyə çalışdı. Səs-səmir yox idi. O, tankdan enib heyət komandirinə raport verdi: "Tank təmir olundu, döyüşə hazırdır". Özünü təqdim etməyə gələndə isə səsi yavaşıdı. Axı heç bir hərbi rütbəsi yox idi. Sadəcə dəfələrlə müraciətindən sonra təmirçi usta kimi səfərbərliyə alınmışdı.

Tank komandiri onu qucaqlayıb:

- Sağ ol, dəmir atımızı xilas etdin. Bircə Vüqarı tibb məntəqəsinə çatdırmaq lazımdır. Vaxt gözləmir, nə bizi, nə də yaralımızı, - deyib təəssüflə köksünü ötürdü. Xəbər verdilər ki, təcili tibbi yardım maşını olan kimi göndərəcəklər. Həmin maşınlar isə yaralı əsgərləri hospitallara çatdırmaq üçün yoldadırlar.

Rasim Vüqara baxdı. Artıq onun huşu yavaş-yavaş özünə qayıdırdı.

- İgid, gəl birlikdə yola çıxaq. Allahın köməkliyi ilə mənzilbaşına yetişərik.

Tank komandiri dedi:

- Biz irəli gedəndə yəqin ki, onların başı tankı vurmağa qarışacaq. Bax, o zaman sakitcə aradan çıxarsınız. Artıq gözləməyin yeri yox idi. Tank irəli şığıdı. Onlar isə geriyə doğru sürünməyə başladılar. Rasim bacardıqca Vüqara yük düşməsin deyə onu çiyinində daşımağa çalışırdı. Məsafə çox uzaq olmasa da, vəziyyət gərgin olduğu üçün sanki yol uzandıqca uzanırdı. Düşmən tərəfdən ara-sıra atəş açılırdı. Bu zaman Rasim də, Vüqar da nəfəslərini içlərinə çəkib hərəkətsiz halda dayanırdılar. Yaxşı ki, düşmən duyuq düşməmişdi. Yoxsa güllə yağışı altından sağ çıxmaq qeyri-mümkün olardı.

Rasim uzanılı halda qulağına dəyən uğultu səsindən diksinib başını qaldırdı. Yoxsa düşmən… Gerisini fikirləşmək istəmədi. Üstündəki əl qumbarasını əli ilə yoxladı. Vüqara baxdı. Vüqar gözləri yumulu halda ağrıdan inildəyirdi. Yox, düşmənin əlinə sağ keçmək olmazdı.

Rasim ehtiyatla başını qaldıranda bir təcili tibbi yardım maşınının onlara sarı gəldiyini gördü.

Sanitar sürücünün köməkliyi ilə Vüqarı maşına qaldırdı. Rasim ayağa qalxıb maşına doğru getmək istəyirdi ki, qəflətən büdrəyən kimi oldu. Heç nə hiss etməsə də, sinəsindən axan qan onun üst-başını al qırmızı rəngə boyadı. Gözlərində dünya qapqara rəngə döndü. Bu qaranlığın içində ağ ləkələr də vardı. Lakin onlar kiçik idilər və tez-tez itirdilər.

❖ ❖ ❖

Südabə də, Murad doxdur da nigaran idilər. Günlər idi ki, Rasimdən bir xəbər yox idi. Südabə əllərini göyə açıb dua etməkdən yorulmurdu. Rasimdən bir xəbər çıxması üçün nəzirniyaz deyirdi. Gümanı Murad doxdura çatırdı. Murad doxdur da səhhətində yaranan nasazlıqdan əziyyət çəkdiyi üçün işə çıxa bilmirdi. Gümanı əlindəki telefona gəlirdi. O da susurdu.

Nəhayət, öyrəndilər ki, Rasim ağır yaralanıb və hospitaldadır. Türkiyəyə göndəriləcək yaralıların içində onun da adı vardı.

Rasimin sağ olması xəbərindən Südabə də, Murad doxdur da sevindilər. Lakin ağır yaralanması sözündən təşvişə düşdülər. Dözməkdən başqa çarə yox idi.

❖ ❖ ❖

Dünya hərb tarixinə düşən, təcrübəsi hərbi dərslərdə öyrəniləcək 44 günlük müharibə qələbə ilə başa çatdı. Zəfər bayramı, qələbənin sevinci insanları ağuşuna almışdı. Lakin azad olmuş torpaqlar erməni vandalları tərəfindən viran edilmişdi. Füzulidə qələbə bayrağının taxılması üçün bir dənə də olsun tikili qalmamışdı. Qəbiristanlıqların dağıdılması, mədəniyyət abidələrinin vəhşicəsinə istismar edilməsi, Allah evi sayılan məscidləri murdarların heyvan saxlanan yerə çevirməsi onların vəhşiliyindən, barbarlığından xəbər verirdi. 30 illik həsrətə, nisgilə soni qoyulmuşdu. Üstündəkilər vəhşicəsinə dağıdılsa da, altındakı torpaq sağ idi, yaşayırdı və insanlar, onun əbədi sakinləri ana torpağı dirçəldə biləcəkdilər. "Qarabağ Azərbaycandır!" - öz təsdiqini tapmışdı.

Artıq insanlar Zəfər yoluyla Qarabağın incisi sayılan Şuşaya və digər yerlərə gedə bilirdilər. Füzuli və Zəngilan hava limanları qartal qanadlı quşları, təyyarələri qəbul edir, daşınmaları sürətləndirə və rahatlada bilirdi. Murad doxdur ürəyindəki nisgili kiridə bilmirdi. Vəfası olmayan ömrə etibarı da yox idi. Onun zamanı gözləməyə də hövsələsi çatmadı. Portala müraciət edib Ağdama getmək üçün icazə aldı…

…Avtobusdakılar Uzundərəyə çatanda səslərini kəsib ətrafı seyr etməyə başladılar. İçərisində Murad doxdur kimi yaşlı olanları da vardı. Onların baxışları fərqli idi. Qoyub getdiklərinin axtarışında idilər.

Murad doxdur qulağında bir zamanlar toylarda çalınan, zabitəli kişilərin oynadığı "Uzundərə" oyun havasını canlandırmaq istədi, bacarmadı. Nə illah elədi ki, o səsi xatırlasın, olmadı. Səs perik düşmüşdü.

Maşın sürətini artırdı. İndi hardasa buralarda Atçılıq zavodunun qəsəbəsi olmalıydı. Amma yox idi. Sanki yerli-dibli olmamışdı. Dünyaya səs salan Qarabağ atlarını bəsləyən kiçik, lakin səliqəli, yamyaşıl qəsəbəyə uşaqlıqda bacısı ilə birlikdə çox gəlmişdi. Qohumları Xanım xalanın oğlu Mirzənin klubda verdiyi filmlərə pulsuz baxmışdılar. Kinomexanik Mirzə onlardan pul almazdı.

Sonra Göytəpə, Ətyeməzli gəlirdi. Ətyeməzli kəndi iki hissədən ibarət idi. Ətyeməzli və Keçtazlı kəndlərinin birliyi olsa da, nədənsə Ətyeməzli adlanırdı. Keçtazlı kəndi 1905-ci ildə Polşada oxuduğu muğamı vala köçürülmüş məşhur Keçtazlı Həşimin kəndi idi. Deyilənə görə, Keçtazlı Həşim "Məclüsi-Üns"ün yaradıcısı Xurşidbanunun təşkil etdiyi məclislərdə iştirak edib, qəzəlləri muğam üstündə oxuyurmuş. Hətta Xan qızının oğlunun toyunda oxuduğu muğam dillərə dastan olubmuş.

Bu kəndin sayılıb-seçilən kişiləri çox olub. Onlardan biri də Fazil Nağıyev idi. Sovetlər dövründə məsul vəzifələrdə işləmişdi. Amma təkəbbürdən kənar bir el ağsaqqalı olub. Müstəqilliyin ilk illərində hakimiyyətə gələnlərlə işləmək istəmədiyi üçün vəzifəsindən istefa verib evinə çəkilmişdi. Atadanqalma ikimərtəbəli evinin yanında birmərtəbəli uzun bir zal tikdirmişdi. Qaçqın düşən, əlacsız qalan hər kəs ona müraciət edərdi. O da imkanı daxilində kömək əlini uzadardı. Həmin o zalın yuxarı başında Ulu Öndərin böyük portreti vurulmuşdu. Günün istənilən vaxtı Fazil müəllimin qapısı hər kəsin üzünə açıq idi. Onun kənddən çıxmaması insanlarda inam yaradırdı. Fazil müəllim bu hakimiyyət savaşında həqiqətin yer alacağına inanırdı. Lakin olanlar oldu. Ermənilərin Əhmədavar tərəfdən Ağdama girdiklərini eşidən Fazil müəllim dolu ev-eşiyindən heç nə götürmədən kəndi tərk etdi. Deyilənə görə, Qarabağ dərdi onun sonu olub. Şəkər xəstəliyinə tutulub. Sonra ayağını amputasiya ediblər. Amma ölümünə səbəb - yəni əcəli özü olub. Nə yeyib, nə içib. "Mən o torpaqsız yaşaya bilmərəm", - deyərək bu həyata könüllü vida edib.

Ətyeməzlidən sonra Ağdam gəlirdi. Yaraşıqlı binaları, topdağıtmaz uca hasarlı evləri, "Azərbaycanda atom bombası olsa, Ağdam bazarında satılardı" - sözlərinin təsdiqi olan böyük bir bazarı ilə.

Murad doxdur daş yığınlarının arasında çaşıb qalmışdı. Fikrində yeganə tikili olan məscidin minarələrini istiqamət götürərək irəliləməyə çalışırdı. Bazarın yanında bir nömrəli məktəb vardı. Murad bir dəfə qış vaxtı ayaqqabısının palçığını yumaq üçün hovuzun kənarına çıxıb əyilmək istəyəndə sürüşüb suya düşmüşdü. Ondan sonra hovuzun üstünə dəmirdən arakəsməli örtük qoymuşdular. Hələ məktəbin yanında bir qır gölməçəsi vardı. Böyründə də iri sal bir daş. Oğlan uşaqları o daşın üstündə sürüşdükləri üçün şalvarlarının cırılıb yamaqlı olmasından utanmırdılar. Dəcəlliklərinə davam edirdilər.

Ətraf daş yığını idi. Cümə məscidinə çatmışdı. Məscidin qabağında çox zəngin bitki örtüyü olan yaşıl park vardı. Ağdamlıların fəxr etdiyi çay evinin yeri belə bilinmirdi. Murad doxdur o qədər həyəcanlı idi ki, ayağının altında qalıb onu büdrədən daşlara belə fikir vermirdi. Gördükləri onu sarsıtmışdı. Onu da bilirdi ki, Ağdama Qafqazın Xirosiması deyirdilər. Lakin bir var eşitmək, bir də var görmək. Hissləri də, beyni də korşalmışdı. Bircə ürəyi sürətlə döyünürdü. Bu da olmasaydı, öldüyünü və buranın cəhənnəmin özü olduğunu zənn edərdi.

Yanından keçən bir qrup adam nəsə danışır, əlləri ilə nəyisə göstərirdilər. Lakin o, daş yığınlarına gözləri ilə deyil, ürəyi ilə baxırdı. Bunu isə yaşamayanlar bilməzlər. Axı Cümə məscidinin 1992-ci ildə tabutlarla, qaçqınlarla dolu olduğunu görməmişdilər. Xocalıdan qaçıb gələn əyni yalın, ayaqlarını don vurmuş, üst-başı qan içində olan insan mənzərəsi indi yox idi. Əzizini haraylayan, onun öldü-qaldısını gözyaşları içərisində axtaran insanlar da görünmürdü. Onları o faciələr uddu. Ölən öldü, ölməyənlər yaşayan canlı meyitlərə çevrildilər. Hər an yaşadıqları o xəyanətin kabusa çevrilib onları təqib etməsinə dözə-dözə birtəhər yaşadılar. Yaşadılar ki, qisas gününü görsünlər. Bəli, o gün bu gün imiş!

Murad doxdur bir zamanlar Ağdamın mərkəzi sayılan, teatr, raykom, icraiyyə komitəsi, mehmanxana, üçmərtəbəli yaşayış binası olan və meydanın ortasında Fərhadın əlində külüng tutan heykəli, su fontanlı böyük hovuzun olduğu yerə çatmışdı. Heyhat, bu, onun fikirlərindəki idi. Teatrın yalnız üz tərəfdən tağları qalmışdı. Yerdə qalan heç nə yox idi. Murad doxdur yaxşı xatırlayır. O üçmərtəbənin üçüncü mərtəbəsində rayonda hamının hörmət etdiyi Sədəf arvad yaşayırdı. Ürək xəstəsi idi. Murad müalicə həkimi kimi onu dəfələrlə müayinə etmişdi. O zaman Sədəf arvad demişdi ki, onun balkonuna boy verən çinarı öz əlləri ilə əkibmiş. İndi nə üçmərtəbəli bina var, nə də onun sakinləri. Təkcə çinar ağacı qalıb.

Murad doxdur buradan sola burulub bir zamanlar yaşadığı Muradbəyliyə doğru üz tutdu. Bələdçilik edəcək heç nə qalmamışdı. İçində karusellər olan güllü-çiçəkli böyük park, müharibə zamanı könüllülərin qərargahına çevrilən ikimərtəbəli bina, hətta kino Fazilin hər axşam şən musiqi çalınan "Dostluq" kinoteatrı da izsiz yer üzündən silinmişdi. Çaxır zavodu elə bil ki, yerli-dibli olmayıbmış. Bütün Rusiyanı dolaşan "Ağdam" çaxırının emal olunduğu zavod.

Murad doxdur bir qədər irəli yeridi. Nə qədər getdiyini bilmirdi. Çünki daşı daş üstündə qalan bir dənə binaya da rast gəlmədi. Ağ mişar daşından tikilmiş dəbdəbəli evlər sanki heç yoxuymuş. Dayanıb bir qədər diqqət elədi. Hardasa buralarda onların evi olmalıydı. 3 nömrəli məktəbin yanında. Təxminən evlərinə çatmaq üzrə idi. Murad doxdurun atası Əli kişi onu son zamanlarda mişar daşlarından hördürmüşdü. Üstünə vurdurduğu ağ dəmir günəşin altında par-par yanardı. Bircə məhəllədə hamının hörmət etdiyi Yusif kişinin evinin bir divarı qalmışdı. Bu divarı da, onun üzərindəki yazını da yaxşı xatırlayırdı. Uşaqlıq dostu Səfər öz adını iri hərflərlə lap divarın yuxarısına yazmışdı. Həmin addan yalnız üç hərf qalmışdı; Səf…

Yusif kişi əslən ərdəbilli idi. Lakin bu məhəllədə bir el ağsaqqalı kimi nüfuz qazana bilmişdi.

Murad doxdur evlərinin yerində bitən nar koluna yazıq-yazıq baxdı. İstədi ki, üstündəki meyvəni dərsin. Bəlkə yurd qoxusu gələr burnuna. Lakin dəfələrlə xəbərdarlıq edilmişdi. Onlara göstərilən cığırdan çıxmaq olmazdı. Mina qorxusu vardı. Murada elə gəldi ki, anası onu haraylayır. O, tanış səsi dinləmək üçün əlləri ilə qulaqlarını tutdu. Tutdu ki, kənar səs ona mane olmasın. Lakin səs uzaqlaşdı. Nə dediyi anlaşılmırdı.

Murad doxdur kor-peşman gəldiyi yolla geri döndü. Qarağacı qəbiristanlığına getmək üçün Əhmədavar tərəfə üz tutmalı idi. Lakin məlumat verdilər ki, həmin qəbiristanlıq yerlidibli yoxdur. Adamın düşməni də insan olsun gərək. Erməni üçün müqəddəs heç nə yoxmuş. Saxta tarixlərindən başqa. Onu da ki, sübuta yetirməyə nə gücləri var, nə də dediklərini təsdiq edəcək sənədləri, arxiv məlumatları.

Artıq gün günortanı keçmişdi. Geri dönəcəklərinə az qalırdı. Murad doxdur Şəhidlər xiyabanının yerini soruşmaq üçün bələdçini axtardı. Sən bir işə bax, öz doğma şəhərində heç nəyin yerini tapa bilmirsən. O boyda imarəti viran qoyandan, Xurşidbanu Natəvanın və digər məzarların, tarixi abidələrin talan edilməsindən sonra şəhidlər xiyabanının qalacağına ümidi yox idi Murad doxdurun.

Şəhidlər xiyabanı da dağıdılmışdı. Murad doxdur dizləri əsə-əsə gözyaşları içində məzarları axtarsa da, tapa bilmədi. Yalnız boş çalalar vardı. Milli Qəhrəman Allahverdi Bağırovun məzarının yanında torpağa tapşırmışdı övladlarını. Elə mənəvi şəhid sayılan Pakizə də oğullarının yanında dəfn olunmuşdu.

Murad doxdur Allahverdi Bağırovun məzarının sol tərəfində dayandı. Çalalar qazıldığı kimi də dururdu. Murad doxdurun dizləri büküldü. Əli ilə oradan götürdüyü torpağı gözlərinə sürtüb qoxladı. Ona elə gəldi ki, oğlunun qoxusunu hiss etdi. Yas mərasimlərində qadınların dil deməsini eşitməyən yoxdur. Amma kişinin dil deməsi sanki dünyanın sonu deməkdir. Əlacsızlığın, faciənin, dözülməsi mümkün olmayan dəhşətin özü deməkdir. Murad doxdur dəli kimi əlini o çalalara sürtür, balasına laylay deyən ananı xatırladırdı. Lakin bu laylayın içində xoş arzu, fərəh yox idi. Bu laylayın içində itmiş, talan olmuş qəbirlər, puç olmuş arzular, tapılmayan güman vardı. Həm də bu laylayı yaşının ixtiyar vaxtında bir ata övladlarının olmayan qəbirləri başında çalırdı. Çalırdı ki, əbədi yuxuya getmiş oğlanları onun səsinə diksinib gəlişini hiss etsinlər.

Böyük həyəcanla yola çıxan Murad doxdur axırıncı inamı da puç olmuş şəkildə geri döndü. Oğlanlarının, ömür-gün yoldaşının qəbirlərini görəcəyinə, onları ziyarət edəcəyinə özünü elə inandırmışdı ki... Fəqət gördükləri bütün dünyasını alt-üst etdi. İndi daha onun yaşamağa zərrə qədər həvəsi qalmamışdı. Sən demə, onu bu zamana qədər yaşadan ümid imiş.

❖ ❖ ❖

Qulağı batmasın, fikri dağılsın deyə televizorun pultunu əlinə aldı. AzTV Ağdamdan hazırlanmış bir süjeti təqdim edirdi. Süjetdə həyata keçirilən layihələrdən danışılır, insanların öz yurd-yuvalarına dönməsi üçün görüləcək quruculuq işlərindən söhbət açılırdı. Süjet dövlət başçısının söylədiyi "Dünyada yaxşı nə varsa, hamısından Ağdamda olmalıdır" sözləri ilə yekunlaşdı.

Murad doxdur:

- Buna da şükür, - deyib kreslonun arxasına söykəndi. İnsan ölmək istəyəndə ölə bilmirmiş. Murad doxdur bunu yaxşı bilirdi. Ümid ölməzsə, ölmək olmazmış. Eşitdiyi sözlər onu ümidləndirdi. Hələ yaşamaq olardı.

❖ ❖ ❖

Qafar Murad doxdurun səfərindən xəbərdar idi. Həyəcanla onun gəlişini gözləyirdi. Sağlamlığı yerində olmayan bir adamın çox həyəcanlı, həm də sarsıdıcı səfərə çıxmasının acı nəticə doğuracağı yaxşı məlum idi. O, hələ özündə təpər tapa bilməmişdi. Qafara elə gəlirdi ki, o, gözəl şəhərin daş yığınına çevrilməsini görsə, ürəyi tab gətirməz, dözə bilməz.

Nəhayət ki, Murad doxdurun qayıtdığını eşitdi. Lakin sağlamlığı yerində olmadığı üçün işə çıxa bilmir, - dedilər.

Qəsəbədə hamı bir-birini tanıdığı üçün Murad doxdurun evini tapmaq elə də çətinlik yaratmayacaqdı. Qafar onda Murad doxdurun telefon nömrəsinin olduğunu xatırladı və axtarıb tapdı. Lakin zəng çalmaq üçün ehtiyatlandı. Bəlkə yatır… Saata baxdı, yuxu vaxtı deyildi. Bəlkə dincəlir. Mən ona zəhmət vermirəm ki… Sadəcə halını soruşub əhval tutmaq istəyirəm, - deyə ürəyində özünə ünvanladığı suallara tez də cavab tapdı. Nəhayət, qərar verdi və zəng çaldı.

Murad doxdurun yorğunluğu iztirablı səsindən hiss olunurdu. Qafar zəng çaldığına peşmanlasa da, daha gec idi.

Qafarın fikirləşdiklərinə rəğmən Murad doxdurun onun zəngindən razı qaldığı açıqaydın hiss olunurdu. Günlərdir çölə çıxmayan, kimsəylə ünsiyyət saxlamayan Murad doxdura Qafarın zəngi ilac kimi gəldi. Qafar onunla görüşmək istədiyini dedi və Murad doxdur ev ünvanını söylədi. Qadın əli, nəfəsi dəyməyən ev nə qədər yığışdırılsa da, bir pərakəndəlik hiss olunur. Murad doxdurun səliqəyə salmaq istədiyi evin görkəmi Qafarı qüssələndirdi. Ürəyində insanları bu vəziyyətə salan vəhşilərə min lənət oxudu.

Murad doxdur ona oturmaq üçün yer göstərdi. Qafar buraya gələrkən səfərlə bağlı ona sual verməyəcəyini qətiləşdirmişdi. Bu qüssə, kədər, faciə dolu söhbət Murad doxdura pis təsir edə bilərdi.

Bir qədər ordan-burdan danışsalar da, səfər mövzusuna qayıtmaq hər ikisi üçün əzablı idi.

Murad doxdur ayağa qalxıb qonağına çay gətirmək istədi. Lakin qalxması ilə divana çökməsi bir oldu. Qafar ona kömək etmək üçün cəld ayağa qalxdı. Onu divana oturdub arxasına söykənmək üçün yastıq qoydu. Sonra qarşısında əyləşib diqqətlə ona baxaraq:

- Davadan, dərmandan nəsə lazımdırsa, alıb gətirim, - dedi.

Murad doxdur başıyla yox işarəsi etdi. Çox ağır keçən dəqiqələrdə heç biri danışmırdı. Qəflətən telefonun zəngi çaldı. Qafar kiçik masanın üstündəki telefonu Murad doxdura uzatdı. Telefonun ekranına baxan Murad doxdur tanımadığı nömrəni bir qədər süzüb sonra düyməni basdı. Eşitdiyi səs onun öləziyən sifətinə bir təbəssüm gətirdi. Sevinclə divandan qalxıb:

- Nə zaman, nə vaxt? - dedi. Sonra isə - mütləq qarşılayacam, öpürəm, - dedi.

Sanki bayaqkı adam deyildi Murad doxdur. Özünə gəlmişdi. Gözləri gülürdü.

Bu telefon danışığından bir şey anlamayan Qafar sualedici nəzərlərini Murad doxdura dikmişdi.

- Oğlum gəlir! - dedi Murad doxdur.

Qafar "bismillah" deyib zəndlə Murad doxdura baxdı. Ona elə gəldi ki, Murad doxdur havalanıb.

- Kim?

- Oğlum Rasim gəlir.

- Məgər sənin Rasim adında oğlun vardı?

- Var, var, - dedi Murad doxdur. - Türkiyədə müalicədə idi. Sabah təyyarə ilə gəlir.

Qafar yenə də onun sözlərindən heç nə anlamadı. Nəhayət, həyəcanı ötüşən Murad doxdur onu qərib nəzərlərlə süzən Qafara əhvalatı danışmağa başladı. Qafar onu dinlədikdən sonra:

- Yadındadırmı, mən də sənə elə bu mövzuda danışmaq istəyirdim. Uzunçu Əbülfət gəlib söhbəti yarıda qoydu. Amma mənim axtardığım Rasimin anasının adı Südabə deyildi, Qəmər idi. Bəlkə yalnışlıq var?

- Dur gedək, Südabəyə bu xoş xəbəri çatdıraq. Həm də sən suallarını verərsən.

Südabəgilin evinə qədər Murad doxdur iki dəfə dayanıb töyşüyünü aldı. Amma artıq əhvalı düzəlmişdi.

Qapını açan Südabə onları görəndə bir qədər təəccübləndi. O, Murad doxdurun səfərini bilirdi, lakin geri dönüşündən xəbərdar deyildi. Südabə onların hər ikisini evə dəvət etdi. Səliqə-sahmanlı, pəncərəsinin önü gül-çiçəkli mənzil qadın əllərinin hikmətindən xəbər verirdi. Murad doxdur keçib əyləşəndən sonra Qafarı ona təqdim etdi.

- Gərək ki, kəndləriniz qonşudur, - dedi. - Bunu ona Südabə haqqında eşitdiklərindən sonra Qafar demişdi.

Südabə təkrar:

- Xoş gəlmisiniz, - dedi.

Murad doxdur:

- Gözün aydın, Rasim sabah gəlir, - deyib Südabəni muştuluqladı. Südabə sevincdən hönkürüb ağladı. Qafarla Murad doxdur bir-birlərinə baxdılar.

Qafar ürəyində: "Bu qadın millətini anlamaq olmur, sevinc hara, hönkürüb ağlamaq hara".

Murad doxdur isə Südabənin həyatından xəbərdar olduğu üçün bu axan gözyaşlarının nədən qaynaqlandığını yaxşı bilirdi. Rasim bu qadına görə həyatda sağ qalıb, boya-başa çatıb, iş sahibi olmuşdu. Bunun üçün Südabə necə deyərlər, od ayaqlamışdı. Onun bütün əskiklərinə səbirlə, dözümlə qatlaşıb həyat qazandırmışdı. Rasim isə onu həyata bağlayan yeganə bağ idi. Onun cəbhəyə yollandığı, yaralandığı, müalicə üçün Türkiyəyə göndərildiyi müddətdə Südabə nə qarın dolusu yemiş, nə də doyunca yuxu yatmışdı. Bəlkələr onu elə üzüb əldən salmışdı ki, ürəyinə dolan dərdi, boğazını boğan qəhəri yalnız bu hönkürtü və gözyaşları ilə yumşaltmaq olardı.

Çay süfrəsini yığışdırandan sonra Murad doxdur Qafarla birgə gəlişlərinin səbəbini aydınlaşdırmağa çalışdı.

Qafar qardaşımız Rasim adında bir adamı axtarır. Deyilənlər bizim Rasimə tuş gəlir, yalnız anasının adı…

Südabə balası əlindən alınan yaralı quş kimi Qafarı iti nəzərlərlə süzdü. Suala sualla cavab verdi.

- Rasimin nəyisiniz ki, nə üçün axtarırsınız?

Qafar Rasimgilin evlərinə düşən "qrad"dan, Qəmərin daşların altında can verməsindən tutmuş ta kənddən qaçışa qədər hər şeyi danışdı.

- Heç özümü bağışlaya bilmirəm, - dedi. - Qaçhaqaçda Rasimi axtarıb tapa bilmədim. Bizi elə qorxutmuşdular ki, qız balalarıma görə kənddə yubana bilmədim. Özüm cəhənnəm, onlardan qorxdum. Xocalını unutmamışıq, unuda bilmərik.

Qafar sonrakı həyat hekayəsini də danışdı. Salehi itirdiklərini boğazını qəhər boğa-boğa söylədi.

Südabə:

- Qardaş, düz gəlmisən, sənin axtardığın Rasim elə bizim Rasimdir, - dedi.

Qafar yerindən dik atıldı. Lakin dizləri büküldüyü üçün aşağı çökdü. Yerindən cəld qalxan Murad doxdur onu qaldırıb kresloya oturtdu. Hər üçü sevinirdi. Lakin bu sevincin hər biri üçün müxtəlif mənaları olsa da, onların birliyi Rasimin gəlişinə istiqamətlənmişdi.

Qərara aldılar ki, sübh tezdən Bakıya - Binə hava limanına doğru yola çıxsınlar. Murad doxdur ağrıdığı üçün maşını Qafar idarə edəcəkdi. Südabə də onlarla gedirdi. Qarşılanma hazırlığı isə İlduzə və Sevincə həvalə olundu.

Hava limanının möhtəşəm binasının qarşısı əlində gül-çiçək, Azərbaycan və Türkiyə bayraqları tutmuş insanlarla dolu idi. Hamı intizarla gözləyirdi. Vaxt yetişdi. Qazilərin içəridən çıxışı alqış sədaları ilə qarşılanırdı. Zəfərin qazanılmasında imzası olan bu igidlərin sağlamlıqlarına qovuşması hər kəsin sevincinə səbəb olmuşdu. Murad doxdur içəridən çıxanları diqqətdən yayındırmamaq üçün zəndlə oraya baxırdı. Gözləyənlər qayıdanların hamısını əzizi kimi qarşılayırdı. İnsanlar elə doğmalaşmışdı ki, yad kimsə yox idi. Yalnız Azərbaycan Ordusunda vuruşmuş qazilərimiz vardı ki, onlar da bizim qürurumuza çevrilmişdi.

İri şüşəli qapıdan çıxan Rasim dayanaraq ətrafı seyr etdi. Onu görən Murad doxdur ucadan:

- Rasim, biz burdayıq, - deyərək irəli yeridi.

Rasim də onları görmüşdü. Həyəcanlı görüş dəqiqələrindən sonra onlar birlikdə hava limanının maşın dayanacağına gəldilər. Murad doxdur öndə, ana-bala isə arxa oturacaqda əyləşdilər. Maşının güzgüsündən onları seyr edən Qafar gözlərinə inana bilmirdi. O Rasim hara, bugünkü Rasim hara. Bu, sözün həqiqi mənasında bir möcüzə idi. Qafar özünü Rasimə necə təqdim edəcəyini bilmirdi. Onun Rasimin xəyalında hansı yerdə dayandığı da məlum deyildi. Ancaq onu bilirdi ki, bu saat yeri deyildi. Bu gözəl ab-havaya kədər notları qatmaq, olub-keçənləri yada salmaq, faciə dolu həyatı yenidən yaşada biləcək söz-söhbətin heç yeri deyildi.

Qafar yol kənarındakı istirahət məkanlarından birinin qarşısına maşını çəkib:

- Deyirəm, həm çay içək, həm də uzun yolun yolçuluğundan sonra bir az dincələk, - dedi.

Murad doxdur da onun sözünə qüvvət verdi. Yamyaşıl ağacın altında qoyulmuş stollardan birinin arxasına keçib əyləşdilər. Rasimin əynindəki əsgər paltarı istirahət məkanında oturanların diqqətini cəlb etdi. Tanıyan da, tanımayan da gəlib onunla görüşür, xoş gəldin edirdilər. Daha bir avtobusun gəlişi isə meydanı daha da böyütdü. Oradan düşən əsgər paltarlı, sinəsi medallı oğulları hamı doğmaları kimi qarşıladı. Çox çəkmədi ki, ayrı-ayrı düzülmüş masalar birləşdirildi. Masanın başında isə Rasim və avtobusla gələn əsgər və qazilər oturdu. Hamı gülür, hamı sevinirdi.

Hardansa bir musiqi oxudan tapıldı. Sonra onları çalmağı, oxumağı bacaranlar əvəzlədi. Ordumuzun, şəhid və qazilərimizin, Ali Baş Komandanın şərəfinə söylənən sözlər ürəklərdəki 30 illik həsrətin, nisgilin bitdiyini, başa çatdığını bəyan edirdi.

Son zamanların ən dəbdə olan musiqisi, "Yaşa, Azərbaycan!" çalınanda isə hamı hörmətlə qazilərə yol verdi.

*Səni dünya tanıdı,*
*Yaşa, Azərbaycan!*

Bəli, 44 günlük müharibə Azərbaycanı dünyaya tanıtdı.

Rasim sol çiyni hələlik zədəli olduğu üçün sağ əlini qaldırıb oynayırdı. Murad doxdur da, Südabə də, Qafar da onu məhəbbətlə süzürdülər.

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri
Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

8 Noyabr - Zəfər Günü
münasibətilə təbrik edir, əbədi sülh arzulayır

QARABAĞ AZƏRBAYCANDIR!




# Azərbaycanın ərazi bütövlüyünə qəsd etmək istəyən Qarabağ Zəfərini unutmamalıdır

Azərbaycan xalqı bu gün özünün ən qürurlu tarixini yaşayır. Çünki 30 illik məğlub xalq sindromundan xilas olmuşuq. Düzdür, biz məğlubiyyətlə heç vaxt barışmamışdıq, içimizdə qələbəyə olan inam da ölməmişdi. Bununla belə, bir kədər, nisgil, hərdən də pessimist duyğulardan yaxa qurtara bilmirdik.

Xüsusilə münaqişənin uzanması, "sülh" danışıqlarının nəticəsizliyi, Minsk qrupu həmsədrlərinin məsələyə məsuliyyətsiz yanaşması Azərbaycan cəmiyyətində ağrılı qarşılanırdı. Bu üzdən beynəlxalq təşkilatlara, həmçinin Minsk qrupunun həmsədrlərinə qarşı inamsızlıq vardı. Görünürdü ki, bu iş müharibəsiz həll olunmayacaq. Üstəlik, ermənilər də deyirdilər ki, qan töküb işğal etdikləri torpaqları qaytaran deyillər. Həmişə dilində yalan dolaşan ermənilərin sözündə bu dəfə həqiqət vardı. Çünki özünü qalib sayanı güc göstərmədən yerində oturtmaq mümkün deyil. Bunun üçün də erməni işğalçılarına layiq olduqları dərs verilməli idi.

Minsk qrupu həmsədrlərinin tərəfkeşliyi, beynəlxalq təşkilatların laqeydliyi erməniləri sözün həqiqi mənasında azğınlaşdırmışdı. Prezident İlham Əliyev həmsədr ölkələrə, beynəlxalq təşkilatlara müraciətlərində dəfələrlə bildirmişdi ki, problemin sülh yolu ilə həlli üçün Ermənistana sanksiyalar tətbiq olunmalıdır. Lakin Azərbaycanın dövlət başçısının bu ədalətli tələbinə müsbət reaksiya verilmirdi. Elə bunun nəticəsi idi ki, 2020-ci ilin iyul ayında Qarabağdan uzaqda yerləşən Tovuz rayonunun Ermənistanla sərhədində hərbi münaqişə başladı. Bu münaqişə də Ermənistan tərəfindən törədildi. Nəticədə rayonun infrastrukturuna, mülki əhaliyə külli miqdarda ziyan dəydi, hərbçilərimiz və mülki əhali arasında şəhidlər və yaralananlar oldu. Sözsüz ki, ermənilərin bu təcavüzü cəzasızlıqdan doğan nəticə idi.

Azərbaycan Ordusu Ermənistanın bu azğınlığının da qarşısını aldı. Düşmənə elə ağır zərbə endirildi ki, onun atəşkəs barədə müraciət etməkdən savayı əlacı qalmadı. Lakin bu acı məğlubiyyət də onlara dərs olmadı. Sentyabrın 27-də daha böyük qüvvə ilə Qarabağda silahlı təxribat törətdilər. Artıq səbir yeri deyildi, illərdir davam edən erməni təcavüzünə "dur" demək vaxtı gəlmişdi.

Elə döyüşlərin ilk anında "məğlubedilməz erməni ordusu"nun ön cəbhəsi yarıldı və işğal altında olan yaşayış məntəqələrimiz bir-birinin ardınca azad edilməyə başladı. Bununla Azərbaycan dünya hərb tarixinə yeni səhifə yazdı. Ordumuzun apardığı döyüş əməliyyatları dünyanın bütün qabaqcıl hərbi mərkəzləri tərəfindən yüksək qiymətləndirildi. Təsadüfi deyil ki, müharibədən sonra bir çox ölkələrin hərbi məktəblərində ordumuzun həyata keçirdiyi qeyri-adi döyüş taktikası tədris olunmağa başlamışdır.

Bu savaşda həmçinin iki xalqın, iki ordunun mənəvi keyfiyyətləri üzə çıxdı. Azərbaycanlıların bəşəri dəyərlərə söykənən, ermənilərin isə insanlığa yaraşmayan keyfiyyətləri...

İndi dostlarımız da, düşmənlərimiz də düşünür ki, Azərbaycan belə qüdrətli ordunu necə yaradıb? Bunun cavabı çox sadədir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev nəyi necə və nə vaxt edəcəyini yaxşı bilirdi. Anlayırdı ki, Ermənistan sarsıdıcı hərbi zərbə almasa, öz xoşu ilə torpaqlarımızdan çıxmayacaq. Bunun üçün güclü ordu lazımdır. Güclü ordu qurmaq üçün isə inkişaf etmiş iqtisadiyyatın olması başlıca şərtdir.

İqtisadiyyatı güclü olan Azərbaycanın ordu quruculuğu istiqamətində gördüyü ciddi tədbirlər iki il əvvəl döyüş meydanında özünü təsdiq etdi. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanın Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusundan biridir. Son bir neçə ilin statistikasına əsasən, ölkəmiz müasir silahlanmaya görə Avropada 2-ci, dünyada 3-cü yerdə qərar tutub. Sözsüz ki, bütün bu uğurlar Prezident İlham Əliyevin vaxtında həyata keçirdiyi məqsədyönlü ordu quruculuğu siyasəti sayəsində mümkün olub.

Bu gün ordumuzun pilotsuz uçuş aparatları ilə aparılan əməliyyatları dünyanın inkişaf etmiş ordularının komandanlarını düşünməyə vadar edir. ABŞ-nin ordu generalı Ceyms Makkonvil "Army Timos" qəzetinə verdiyi müsahibəsində deyib ki, Qarabağ bölgəsində Azərbaycan tərəfindən pilotsuz uçan aparatlardan geniş istifadə Amerika Silahlı Qüvvələrinin modernləşdirilməsi zərurətini yaradır. Şübhə yoxdur ki, gələcəkdə dünyanın hərb məktəblərində Azərbaycan Ordusunun Qarabağda apardığı döyüş taktikası tədris olunacaq, təlimlərdə sınaqdan keçiriləcək.

Dünya alman faşizminin törətdiyi dəhşətləri hələ də xatırlayır. Ötən əsrin əvvəllərində Avropada baş qaldıran bu bəla Yer üzündə milyonlarla insanın ölümünə və bir çox ölkələrin dağılmasına səbəb olmuşdur. Müttəfiq qoşunları Almaniya üzərində qələbə qazandıqdan sonra Hitlerin tör-töküntüləri üzərində Nürnberq məhkəməsi qurulsa və bəşəriyyətə qarşı dəhşətli cinayətlər törədən faşist cəlladları layiq olduqları cəzanı alsalar da, sonra baş verənlər göstərdi ki, bundan hamı dərs götürməmişdir.

Günü bugünəcən Ermənistanın bətnində faşizm yaşayır. Ermənilər Cənubi Qafqaza köçürüldüyü gündən bütün qonşularla, xüsusilə türklərlə faşizm ideologiyasından qaynaqlanan üsulla rəftar edirlər. Təəssüflər olsun ki, günü bu gün də dünyada erməni faşizmini himayə edənlər mövcuddur.

İlham Əliyev adını Azərbaycan tarixinə müdrik dövlət başçısı, Müzəffər Ali Baş Komandan kimi yazdı. Çünki məhz onun rəhbərliyi, qətiyyəti hesabına iki il öncə uzun illər tarixi torpaqlarını itirməyə məhkum olmuş Azərbaycan xalqının milli mənliyi, gücü özünə qayıtmış, tarixi ədalət bərpa edilmişdir. Sözsüz ki, bu möhtəşəm Zəfərdən sonra torpaqlarımıza əl uzatmaq istəyən hər kəs Qarabağ savaşını gözünün altına almalı olacaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



# Qarabağ və Şərqi Zəngəzurda idman bayramları

## İşğaldan azad olunan torpaqlar artıq beynəlxalq yarışların mərkəzinə çevrilib

Bu gün işğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda Prezident İlham Əliyevin rəhbərliyi ilə geniş abadlıq-quruculuq işləri gedir.

Ölkəmizin bu əsrarəngiz bölgəsində dövrümüzün ən qabaqcıl tələblərinə cavab verən, müasir texnologiyaların tətbiqi ilə yaradılan modern infrastruktur həm işğaldan azad olunmuş ərazilərin iqtisadi potensialından səmərəli istifadə edilməsində, həm də oraya qayıdacaq insanların normal həyat şəraiti ilə təminatında mühüm rol oynayacaq.

Təsadüfi deyil ki, həyata keçirilən abadlıq-quruculuq işlərinin müəllifi olan dövlət başçısı tez-tez işğaldan azad olunan ərazilərə səfərlər edir, müxtəlif infrastruktur obyektlərinin təməlini qoyur, açılışlarına qatılır. Həmin obyektlər isə ən müxtəlif sahələri əhatə edir.

### İlk beynəlxalq turnir

Azad edilmiş ərazilərdə müasir tələblərə cavab verən idman infrastrukturunun qurulması da xüsusi diqqət mərkəzindədir. Heç şübhə yoxdur ki, tezliklə yeni Olimpiya idman komplekslərinin, digər idman müəssisələrinin inşa ediləcəyi əsas məkanlardan biri də işğaldan azad edilən ərazilərimiz olacaq. Avarçəkmədən tutmuş güləşə, şahmatdan başlamış müxtəlif digər intellektual və komanda oyunlarına qədər, eləcə də bir çox digər idman növlərində Azərbaycanı layiqincə təmsil edəcək yeni idmançılar nəsli işğaldan azad olunmuş ərazilərimizdə də yetişəcək.

Çox təqdirəlayiq haldır ki, artıq işğaldan azad olunan torpaqlar beynəlxalq idman yarışlarının mərkəzinə çevrilib. Mayın 6-7-də Suqovuşan qəsəbəsində avarçəkmə üzrə "Prezident kuboku-2022" reqatası keçirilib. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr edilən bu yarış işğaldan azad olunmuş ərazilərdə ilk beynəlxalq turnir kimi yadda qalıb. Yarışlara Azərbaycan ilə yanaşı, Türkiyə, Gürcüstan, Moldova və Özbəkistandan 100-dən artıq idmançı qatılmışdı.

Turnirin birinci günündə idmançılar Suqovuşan Su Anbarında kayak və kanoe növlərində mübarizə aparıblar. Yeniyetmə və gənclər arasında 5 yaş kateqoriyasında təşkil olunan yarışlarda Azərbaycan komandası 7 qızıl, 10 gümüş və 8 bürünc medala sahib çıxıblar.

Ümumi komanda hesabında akademik avarçəkmə yarışlarında Azərbaycan, kayak və kanoe yarışlarında isə Türkiyə idmançıları birinci olublar. Hər iki ölkənin idmançılarına kubok təqdim edilib. Yekunda Azərbaycan komandası reqatada 9 qızıl, 12 gümüş və 12 bürünc medal qazanıb. "Prezident kuboku-2022" turnirinə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilən su üzərində 3D effektli şou və atəşfəşanlıqla yekun vurulub. Ötən ay təşkil edilən avarçəkmə üzrə "Mingəçevir reqatası-2022"nin açılış mərasimi də Suqovuşanda keçirilib.

### Dünyanın ən güclü şahmatçıları Şuşada

Sentyabrda Gənclər və İdman Nazirliyi, Azərbaycan Şahmat Federasiyası (AŞF) və Şuşa Şəhəri Dövlət Qoruğunun birgə təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşada Qarabağ xanlığının sonuncu varisi, görkəmli şair və xeyriyyəçi Xurşidbanu Natəvanın 190 illiyinə həsr olunmuş "Shusha Chess-2022" beynəlxalq turniri keçirilib. Kişilər və qadınlar arasında 4 gün davam edən yarışlarda 9 ölkədən 20 tanınmış qrosmeyster təmsil olunub. Beynəlxalq şahmat turniri iki kateqoriyada - kişilər və qadınlar arasında keçirilib. Hər kateqoriya üzrə 10 şahmatçı rapid və blits üzrə mübarizə aparıblar.

Sentyabrın 21-23-də "Qarabağ" hotelində rapid üzrə yarışlar keçirilib. Yekunda 9 oyunda 15 xal toplayan azərbaycanlı beynəlxalq qrosmeyster Şəhriyar Məmmədyarov birinci olub. 2-3-cü yerləri hərəyə 13 xalla hindistanlı Santoş Vidit və İran təmsilçisi Parhan Maqsudlu bölüşüblər.

Qadınların yarışında isə Nana Dzaqnidze liderliyini sonadək qoruyub və 15 xal qazanaraq qalib olub. İkinci yeri 12 xalla türkiyəli Kübra Öztürk Güvənli tutub. 3-5-ci yerlərdə isə hərəyə 9 xalla ölkəmizin təmsilçiləri Xanım Balacayeva, Gövhər Beydullayeva, habelə gürcüstanlı Meri Arabidze qərarlaşıblar.

Sentyabrın 24-də isə blits üzrə yarışlar keçirilib. Nəticədə həm rapid, həm də blitsdə qazanılan xalların cəminə əsasən turnirin qalibləri və mükafatçıları müəyyənləşiblər. Kişi şahmatçıların yarışında Şəhriyar Məmmədyarov 26 xalla "Shusha Chess-2022"nin qalibi olub. İkinci yeri 24,5 xal qazanan Parhan Maqsudlu tutub. Üçüncü yerə isə Santoş Vidit sahiblənib - 23,5 xal. Qadınların yarışında isə Meri Arabidze hamıdan üstün olub - 24 xal. İkinci yerdə 23,5 xalla Nana Dzaqnidze qərarlaşıb. Üçüncü pillədə isə 20 xal toplayan Kübra Öztürk Güvənli yer alıb.

Xatırladaq ki, kişi şahmatçıların yarışında Azərbaycan milli komandasının üzvləri - üçqat Avropa çempionları Şəhriyar Məmmədyarov, Teymur Rəcəbov, Qədir Hüseynov, Rauf Məmmədov və 18 yaşa qədər şahmatçılar arasında Avropa çempionu Vasif Durarbəyli, həmçinin Asiya çempionu Van Xao (Çin), 20 yaşa qədər şahmatçılar arasında dünya çempionu Santoş Qucrati Vidit (Hindistan), gənclər arasında dünya çempionatının qalibi Parham Maqsudlu (İran), FIDE dünya çempionu Rüstəm Qasımcanov (Özbəkistan) və Türkiyə çempionu, 2021-ci ildə ölkəsinin ən yaxşı şahmatçısı seçilən Mustafa Yılmaz iştirak ediblər.

Qadınların yarışında milli komandanın üzvləri - Avropa çempionatının mükafatçıları Günay Məmmədzadə, Ülviyyə Fətəliyeva, Gülnar Məmmədova, Xanım Balacayeva, Gövhər Beydullayeva, habelə Ümumdünya Şahmat Olimpiadasının qalibi, Avropa çempionu Nana Dzaqnidze (Gürcüstan), yeniyetmələr arasında dünya və Avropa çempionu, ölkəsinin ən reytinqli qadın şahmatçısı Marsel Efroimski (İsrail), 18 yaşlılar arasında dünya çempionu Yolanta Zavadska (Polşa), yeniyetmələr arasında dünya çempionu Meri Arabidze (Gürcüstan) və Türkiyə çempionu Kübra Öztürk Güvənli mübarizə aparıblar.

### "Zəfər yürüşü"

Zəngilan rayonunun Ağalı kəndi isə "Zəfər yürüşü" triatlon turnirinə evsahibliyi edib. Bu torpaqlarımızın işğaldan azad edilməsindən sonra vətəndaşlarımızın məskunlaşdığı yaşayış məntəqəsində ilk idman yarışı, azad edilmiş ərazilərimizdə isə (Şuşa və Suqovuşandan sonra) dördüncü turnirdir.

İdmançılar triatlon (300 metr üzmə, 10 kilometr velosiped sürmə və 2 kilometr qaçış) yarışında mübarizəyə başlayıblar. Sonra duatlon (10 kilometr velosiped sürmə, 2 kilometr qaçış) və uşaq qaçışı (1 kilometr) yarışları təşkil edilib. Yarışların üzgüçülük mərhələsi Həkəri çayında salınmış süni göldə, qaçış və velosiped mərhələləri isə Ağalı kəndi ərazisində keçirilib.

Triatlon yarışında (300 metr üzmə, 10 kilometr velosiped sürmə və 2 kilometr qaçış) Toğrul Məmmədli qalib gəlib. Cəfər Məmmədov ikinci, Cəlal Süleymanov isə üçüncü olub.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

Günay Bank

Azərbaycan xalqını

8 Noyabr - Zəfər Günü

münasibətilə təbrik edir,
ölkəmizə əbədi müstəqillik arzulayır



QARABAĞ AZƏRBAYCANDIR!

Coca-Cola

Şirkəti
Azərbaycan xalqını

8 Noyabr -
Zəfər Günü

münasibətilə təbrik edir,
hər bir ailəyə səadət,
sevinc dolu günlər
arzulayır

# "AzərEnerji"də Zəfər Günü tədbirləri və qanvermə aksiyası keçirilib







**Zəfər Günü ilə bağlı "AzərEnerji" ASC tərəfindən silsilə tədbirlər keçirilir. Rayonlarla yanaşı, Bakıda da tədbirlər düzənlənib.**

Səhmdar Cəmiyyətin Baş idarəetmə, elm, tədris və laboratoriya mərkəzində keçirilən tədbirdə "AzərEnerji"nin İctimaiyyətlə əlaqələr və Media Mərkəzi tərəfindən hazırlana "Zəfərin enerjisi" adlı film nümayiş olunub.

"AzərEnerji"nin rəhbəri Baba Rzayev çıxış edərək Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun və bütövlükdə xalqımızın yumruq kimi birləşərək 30 illik qəzəb hissini Qələbə sevincinə çevirməsinin ikinci ilinin tamam olması münasibətilə energetikləri təbrik edib. Bildirib ki, bu iki ildə zəfər sevincini xalqımız Qarabağ və Şərqi Zəngəzurun quruculuq və dirçəliş sevinci ilə paralel yaşayır. "Təbii ki, bu inkişaf və quruculuq işlərində energetiklərin də üzərinə böyük məsuliyyət düşür. Məhz buna görə də, cənab Prezidentin tapşırığı ilə "AzərEnerji" tərəfindən işğaldan azad edilən ərazilərdə 22 enerji obyektinin - 9 su-elektrik stansiyası, 12 yarımstaniya və bir Regional Rəqəmsal İdarəetmə mərkəzində tikinti işlərinə başlanılıb. Bu günə kimi 14 enerji obyekti cənab Prezidentin iştirakı ilə istismara verilib. Digər 9 enerji obyektinin təməlqoyma və tikintisilə tanışlıq tədbirlərində cənab Prezident iştirak edib". Tikilən 9 enerji obyektinin yaxın vaxtlarda istismara veriləcəyini deyən Baba Rzayev müharibə zamanı Müzəffər Ali Baş Komandanın hərb və diplomatiya meydanında uğurlarından, Mingəçevirdəki elektrik stansiyalarının hədəfə alınmasından, qəhrəman Azərbaycan əsgərinin şücaətindən danışıb.

Tədbirdə qeyd edilib ki, 44 günlük Vətən müharibəsində "AzərEnerji" ASC-nin 130 əməkdaşı iştirak edib. Onlardan ikisi şəhidlik zirvəsinə ucalıb. 12 əməkdaşın övladı şəhid olub. 2020-ci ildən sonra 45 nəfər müharibə iştirakçısı işlə təmin edilib. Hazırda "AzərEnerji"də 44 günlük Vətən müharibəsində iştirak edən 175 müharibə iştirakçısı var.

* * *

Daha sonra "AzərEnerji"nin Baş idarəetmə, elm, tədris və laboratoriya mərkəzində qanvermə aksiyası keçirilib. Qanvermə aksiyasında Səhmdar Cəmiyyətin 100-dən artıq əməkdaşı talassemiya və hemofiliyadan əziyyət çəkən uşaqlara kömək məqsədilə iştirak ediblər. Qeyd edək ki, Zəfər Günü ilə bağlı "AzərEnerji" tərəfindən keçirilən tədbirlər davam edir və bölgələrdəki elektrik stansiyaları, yarımstansiyalar və regional elektrik şəbəkələrinin əməkdaşları da aksiyalara qatılıblar.

# Şəhid ailələri və qazilərə bayram sovqatı

**Vətəndaşların problemlərini aradan qaldırmaq, şəhid ailələrinə və müharibə iştirakçılarına, eləcə də aztəminatlı ailələrə qayğı ilə yanaşmaq, onlara lazımi maddi və mənəvi dəstək göstərmək dövlətimizin sosial siyasətinin mühüm tərkib hissəsidir.**

Ölkəmizdə vətəndaş rifahının yaxşılaşdırılması və həssas əhali qruplarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində əhəmiyyətli işlər görülür. Dövlətimizlə bərabər, ölkəmizin aparıcı ictimai təşkilatları da humanist layihələrə dəstək verir, bu kateqoriyaya aid vətəndaşlara qayğı göstərirlər.

Heydər Əliyev Fondu bu istiqamətdə də nümunəvi fəaliyyəti ilə fərqlənir. Fondun Prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə şəhid ailələri, qazilər və aztəminatlı ailələrə bayramlarda və əlamətdar günlərdə sovqatlar, hədiyyələr göndərilir, bayram süfrələri təşkil olunur.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) da belə sosial layihələrin əsas iştirakçılarındandır. Konfederasiyanın İcraiyyə Komitəsinin qərarları əsasında 2020-ci il aprelin 29-da respublikanın 76 şəhər və rayonunda yaşayan 3 min 900, 2021-ci il martın 17-də 3 min 900, həmin ilin mayın 8-də 4 min, bu ilin martın 16-da isə 4 min 65 şəhid ailəsi, qazi və aztəminatlı ailə ərzaqla təmin edilib.



Həmçinin Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasına həmin kateqoriyadan olan ailələrə sovqat göndərilməsi üçün maliyyə vəsaiti ayrılıb. Bu günə qədər AHİK 15 minə yaxın aztəminatlı ailəyə ərzaq yardımı göndərib.

Nəcib missiyanın davamı kimi noyabrın 5-də də Zəfər Günü ilə əlaqədar respublikanın rayonlarında yaşayan 5 min 500 şəhid və qazi ailəsi üçün ərzaq dolu avtomobil karvanı yola salınıb.

AHİK sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev bildirib ki, ölkəmizdə Zəfər bayramı ilə əlaqədar həmrəylik müşahidə edilir: "Dövlət orqanları, ictimai təşkilatlar, o cümlədən vətəndaşlarımız şəhid ailələrinin üzvləri, qazilər və veteranlarla görüşür, onların qayğıları ilə maraqlanırlar. Həmin kateqoriyaya aid olan vətəndaşlar dövlət qayğısı ilə tam əhatə olunublar. Azərbaycan şəhidlərinə ən ali qiyməti verən nadir ölkələrdəndir".

S.Möhbalıyev qeyd edib ki, həmkarlar ittifaqları şəhid ailələrinə və qazilərə mütəmadi dəstək verir: "Bizim əsas məqsədimiz əziz günlərdə onları yad etmək, mənəvi dəstək olmaqdır. Bu, bizim hər birimizin müqəddəs borcudur. Onlar əzizlərini bu Vətən uğrunda, bu torpaq yolunda şəhid veriblər".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Qələbəmizin ikinci ildönümü qeyd edilmişdir

Gəncədəki Bitki Mühafizə və Texniki Bitkilər Elmi Tədqiqat İnstitutunda keçirilən tədbirdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsində qazanılan uğurlar diqqətə çatdırılmış, Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində göstərdiyi qəhrəmanlıqlar barədə geniş söhbət açılmışdır.



Tədbirdə torpaqlarımızın bütövlüyü uğrunda şəhid olanların xatirəsi ehtiramla yad edilmiş, Azərbaycanın Dövlət himni səsləndirilmişdir. Sonra institutun direktoru, AMEA-nın müxbir üzvü İbrahim Cəfərov çıxış edərək ermənilərin yüz illərlə Azərbaycan xalqının başına gətirdiyi müsibətlərdən danışmışdır.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki baş konsulu Zəki Öztürk, tarixçi alimlər Elnur Həsənov və Vəfa Musayeva çıxış edərək torpaqlarımızın erməni işğalçılarından azad edilməsini Prezident İlham Əliyevin gərgin əməyinin nəticəsi olduğunu qeyd etmişlər.

Sonda Qələbəmizdən bəhs edən videoçarx nümayiş olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

azərişıq
AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

*Azərbaycan xalqını*

**8 Noyabr - Zəfər Günü**

*münasibətilə təbrik edir,*
*əbədi sülh və işıqlı həyat arzulayır*







# Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin təliminin növbəti mərhələsi icra edilib

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən Azərbaycan Respublikasının cənub sərhədlərinə yaxın ərazilərdə Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin təliminin növbəti mərhələsi icra edilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, real döyüş şəraitinə uyğunlaşdırılmış təlimin növbəti mərhələsində xüsusi təyinatlılar ərazinin qorunma xüsusiyyətləri və maskalanma vasitələrindən istifadə etməklə müxtəlif kəşfiyyat tapşırıqları yerinə yetiriblər.

Ssenariyə əsasən, şərti düşmənin komanda-idarəetmə məntəqələri, rabitə mərkəzləri sıradan çıxarılıb, eləcə də yaşayış məntəqələrindəki infrastruktur obyektlərində gizlənən canlı qüvvə zərərsizləşdirilib.

Təlimdə, həmçinin döyüş meydanında qrupun qarşılaşa biləcəyi maneələr mobil qruplar şəklində dəf edilərək şərti hədəflərə qəfil atəş basqını icra edilib.

Xüsusi Təyinatlı Qüvvələrin hərbi hissələrinin təlimində qarşıya qoyulan tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib.

# "Olimpiya, incəsənət və idman" adlı sərginin açılış mərasimi keçirilib

Noyabrın 5-də Azərbaycan Respublikası Milli Olimpiya Komitəsində (MOK) "Olimpiya, incəsənət və idman" adlı sərginin açılış mərasimi keçirilib.





AZƏRTAC xəbər verir ki, sərgi Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə MOK-un 30 illik yubileyinə həsr olunub.

Mərasimdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, baş katibi Azər Əliyev, olimpiya çempionları, tanınmış mədəniyyət və incəsənət xadimləri, idman mütəxəssisləri və digər qonaqlar iştirak ediblər.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxışında bu il qurumun yaranmasının 30 ilinin tamam olduğunu deyib. Bildirib ki, Milli Olimpiya Komitəsi ötən müddətdə çətin və şərəfli bir yol keçib, yüksək nailiyyətlərə imza atıb: "Bu gün açılışında iştirak etdiyimiz sərgidə nümayiş etdirilən idman mövzusunda rəngkarlıq, qrafika və heykəltəraşlıq işləri MOK-un 1998-ci ildən "Olimpiya, incəsənət və idman" adı altında keçirdiyi müsabiqələrdən toplanılmış qiymətli əsərlərdir. Beynəlxalq Olimpiya Komitəsi hər Yay Olimpiya Oyunlarının keçirilməsinə iki il qalmış "Olimpiya, incəsənət və idman" adlı beynəlxalq müsabiqə elan edir. Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi də bu müsabiqənin ən fəal iştirakçısı kimi rəssam və heykəltəraşlarımızın respublika daxili yarışmasında ilk 3 yeri tutmuş əsərlərini göndərir. Sevindirici haldır ki, Beynəlxalq Olimpiya Komitəsinin təşkil etdiyi belə müsabiqələrdə ölkəmizin rəssam və heykəltəraşlarının işləri uğur qazanır, diplom və sertifikatlarla mükafatlandırılır".

Azərbaycan Rəssamlar İttifaqı sədrinin birinci müavini, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının prorektoru, Xalq rəssamı Səlhab Məmmədov qarşıdan gələn Zəfər Günü münasibətilə tədbir iştirakçılarını təbrik edib. "Olimpiya, incəsənət və idman" sərgisində Azərbaycanın tanınmış rəssamlarının əsərlərinin nümayiş olunduğunu bildirən Xalq rəssamı layihənin təbliğat və təşviqat baxımından əhəmiyyətini vurğulayıb.

Sonda qonaqlar sərgi ilə yaxından tanış olublar.

Qeyd edək ki, MOK-un inzibati binasının dörd mərtəbəsində də nümayiş olunan sərgidə Xalidə Səfərova, Kərim Cəlal, Telman Abbasov, Hidayət Cəlilov, Mais Əliyev, Asif Azərelli, Rauf İsmayılov, Adil Rüstəmov, Böyükağa Yəhyayev, Arif Mərdanov, Rəsul Hüseynov, heykəltəraşlardan Natiq Əliyev, Xanlar Əhmədov, Asim Quliyev, Faiq Hacıyev, Vaqif Nəzirov, Arif Qazıyev, Azad Əliyev, Zakir Mehdiyev, Nəcəf Salamov kimi tanınmış rəssamların 60 rəsm və 30 heykəltəraşlıq əsəri nümayiş olunur.

"Olimpiya, incəsənət və idman" sərgisi bu ilin sonunadək ziyarətçilər üçün açıq olacaq.

# "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib

Bu ilin döyüş hazırlığı planına uyğun olaraq "Komando başlanğıc kursu"nun növbəti buraxılış mərasimi keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını fəda edən şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla anılıb. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Müdafiə Nazirliyinin rəhbərliyinin təbrikləri kurs iştirakçılarına çatdırılıb. Buraxılış mərasimində çıxış edənlər məzunlara gələcək xidmətlərində uğurlar arzulayıb. Kurs birincisi əsgər Adəm Həsənov yaş kötüyünə rəmzi emblem vurub.

Sonra hərbi qulluqçulara sertifikatlar təqdim olunub. Sonda şəxsi heyət təntənəli marşla tribuna önündən keçib.

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Vətən müharibəsi Şəhidləri və əlilləri haqqında "Unudulmazlar" innovativ informasiya resursunun imkanlarının genişləndirilməsi və xarici dillərdə yaradılması" adlı müsabiqə keçirir

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Vətən müharibəsi Şəhidləri və əlilləri haqqında "Unudulmazlar" innovativ informasiya resursunun imkanlarının genişləndirilməsi və xarici dillərdə yaradılması" adlı müsabiqə keçirir.

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 22 noyabr 2022-ci il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 23 noyabr 2022-ci il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5037)

***Müsabiqə komissiyası***




**Azercell abunəçilərinin nəzərinə**

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 10.11.2022-ci il tarixi gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.







**UNHCR**
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

## Layihə təkliflərinin verilməsi üçün müraciət: No. RFP/AZE/013/2022

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Azərbaycandakı Nümayəndəliyi

➤ **AZƏRBAYCANDA QAÇQINLARA VƏ SIĞINACAQ AXTARAN ŞƏXSLƏRƏ İKİNCİ SƏVİYYƏLİ TİBB XİDMƏTLƏRİ**

fəaliyyətinin həyata keçirilməsi üçün layihə təkliflərini qəbul edir.

- Tender ölkədaxilidir.
- Ətraflı məlumatı **http://www.azerweb.com** və ya **https://azerbaijan.un.org/en/205794-rfp-secondary-healthcare-services-refugees-and-asylum-seekers-azerbaijan** internet səhifəsindən əldə edə bilərsiniz.
- Sualların qəbulu üçün son tarix 10 noyabr 2022-ci il Bakı vaxtı ilə saat 23:59-dur.
- **27 noyabr 2022-ci il Bakı vaxtı ilə saat 23:59-a** qədər daxil olan təkliflər etibarlı sayılacaq.

**UNHCR**
United Nations High Commissioner for Refugees
Haut Commissariat des Nations Unies pour les réfugiés

## Request for Project Proposal: No. RFP/AZE/013/2022

The Office of the United Nations High Commissioner for Refugees in Baku, Azerbaijan invites you to submit project proposals on:

➤ **SECONDARY HEALTHCARE SERVICES FOR REFUGEES AND ASYLUM SEEKERS IN AZERBAIJAN:**

- The tender is open at a country level.
- For details, please visit **http://www.azerweb.com** or **https://azerbaijan.un.org/en/205794-rfp-secondary-healthcare-services-refugees-and-asylum-seekers-azerbaijan** website.
- The deadline for receipt of questions is 23:59 hrs. BAKU time on 10 November 2022.
- Offers should be submitted by **27 November 2022 at 23:59** hours Baku time.

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının müdafiə sənayesi naziri Mədət Quliyev və nazirliyin kollektivi sabiq vergilər naziri

**FAZİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı sabiq vergilər naziri

**FAZİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının maliyyə naziri Samir Şərifov və nazirliyin kollektivi

**FAZİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi sabiq vergilər naziri

**FAZİL ƏSƏD OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Sahir Məmmədxanov ailəsi ilə birlikdə

**FAZİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Azneftemaş" ASC-nin prezidenti Şahmar Vəliyev sabiq vergilər naziri

**FAZİL ƏSƏD OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

**Tiraj 6510**
**Sifariş 3129**
**Qiyməti 40 qəpik**